# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
## ƏLİYEV

# DOXSAN BİRİNCİ KİTAB

## NOYABR 2018 - YABVAR 2019

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş və yekun nitqləri, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il münasibətilə Azərbaycan xalqına təbriki və digər materiallar toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır.

Oxucular bu clddə dövlət başçısının Bakıda «Rosiyya-24» kanalına geniş müsahibəsi, Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdəki nitqi ilə də tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

# BELARUS RESPUBLİKASINA SƏFƏRİ ZAMANI NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Minsk*

*19 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 19-da təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**A l e k s a n d r  L u k a ş e n k o:** Hörmətli İlham Heydər oğlu! Hörmətli dostlar!

Sizi Belarusun paytaxtında salamlamağa ürəkdən şadam. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 25 illiyi qeyd edildi. Biz bu əlamətdar tarixə yaxşı nəticələrlə gəlmişik. Əsrin dörddəbiri qədər vaxt ərzində ikitərəfli dialoq strateji xarakter alıb. Dövlətlərarası etimadın yüksək səviyyədə olması təsadüfi deyil. Bunun əsasını Belarus və Azərbaycan xalqlarının qədim dostluq ənənələri təşkil edir. Bu hətta ən mürəkkəb məsələləri də konstruktiv şəraitdə müzakirə etməyə imkan yaradır. Vurğulamalıyam ki, Belarus ticari-iqtisadi sahədə sistemli və uzunmüddətli əməkdaşlıq əzmindədir. Azərbaycan ilə əmtəə dövriyyəsinin müsbət dinamikasına baxmayaraq, onun həcmi optimal səviyyədən uzaqdır. Bu

gün biz cənab Prezidentlə bu barədə xeyli söhbət etdik. Biz əmtəə dövriyyəsinin artırılması üçün potensialın olduğunu görürük. İqtisadiyyatın inkişafına cənab Prezidentlə baxışlarımızın oxşar olması sayəsində geniş istehsal kooperasiyası üçün təməl yaradılıb. Belarusda maşınqayırmanın flaqmanları olan Minsk Traktor zavodu, Minsk Avtomobil zavodu, habelə Gəncə Avtomobil zavodu bu işin layiqli nümunələridir. Gəncədə artıq 10 mindən çox traktor və 3500 vahid avtotexnika yığılıbdır.

Bu gün biz əməkdaşlığın prinsipcə yeni mərhələsinə – üçüncü ölkə bazarlarının birgə mənimsənilməsinə başlamağa hazırıq. Vaxtilə biz bunu yalnız arzu edə bilərdik. Minsk və Gəncə zavodlarının iştirakı ilə Türkiyə üçün traktorların buraxılışı layihəsi yüksək hazırlıq səviyyəsindədir. Gələcək məhz belə təşəbbüslərindir, onlara istiqamətlənmək lazımdır. Azərbaycana elektrobuslar, liftlər, taxılyığan kombaynlar və digər kənd təsərrüfatı texnikası göndərilməsi və onların orada yığılması kimi istiqamətlər üzrə perspektivlər vardır. Biz vaxtilə öz kombaynlarımızın istehsalı barədə qərar qəbul etməyə məcbur olduq və yanılmadıq. Biz sizdə bu texnikanın birgə istehsalını yaratmağa və hətta Azərbaycandan daha çox üçüncü ölkələr üçün işləməyə hazırıq. Ona görə ki, sizin qonşularınızın bu texnikaya ehtiyacı Azərbaycanın özünün ehtiyacından xeyli çoxdur. Odur ki, biz MAZ və MTZ prinsipləri üzrə bu texnikanın Azərbaycanda birgə istehsalı ilə məşğul olmağa hazırıq.

Bundan əlavə, aqrar sahədə əlaqələri genişləndirmək, ərzaq məhsullarının qarşılıqlı satışını artırmaq lazımdır. Azərbaycan istehlakçısının bizim süd, ət, balıq məhsullarımıza, qənnadı məmulatlarımıza tələbatı vardır. Beynəlxalq ticarət ikitərəfli ticarətdir. Buna görə də Belarus bazarında sizin malların artırılmasına maraq vardır. Bu gün cənab Prezident baş çəkdiyi Ticarət Evi haqqında danışdı. Gələcəkdə bu şəbəkəni inkişaf etdirərək, vilayət mərkəzlərinə keçmək nəzərdə tutulur. Tanrının izni ilə bu mağazalar və bu ticarət evləri sizin məhsullarla dolu olacaqdır. Həmin məhsulları təkcə belaruslar almır. Ukrayna hadisələri ilə əlaqədar, bütün axınlar Belarusdan keçir, Azərbaycan məhsullarına çox böyük tələbat vardır. Xüsusən ona görə ki, azərbaycanlılar ticarəti bacarandırlar, mən bunu həmişə etiraf etmişəm. Bunu necə etməyi biz sizdən öyrənməliyik. Bununla əlaqədar, keçən il Minskdə Ticarət Evinin açılmasını alqışlayıram. Biz bu layihəyə maksimum dəstək veririk, əmtəə dövriyyəsinin tarazlaşdırılmış artım istiqamətləri üzrə təklifləri bundan sonra da dəstəkləmək niyyətindəyik.

Siz lap yaxın vaxtlarda Türkiyədə Neft Emalı Kompleksi inşa etmisiniz. Azərbaycanlı sərmayədarların Belarusa gəlişinə şad olarıq və strateji sahələrdə ciddi qarşılıqlı fəaliyyətə hazırıq. İndi Azərbaycan Dövlət Neft Şirkətinin «Qrodno–Azot» şirkətinin modernləşdirilməsinə sərmayə qoymaq imkanları müzakirə edilir. Biz belə səyləri alqışlayırıq.

Nəqliyyat-logistika sahəsində xeyli ehtiyatlar vardır. Məsələn, Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin

yaradılması və «İpək yolu İqtisadi Kəməri» təşəbbüsü çərçivəsində dəmir yollarının çəkilişi. Biz həmin layihələrə bu və ya digər şəkildə qoşulmuşuq. Fikrimcə, əczaçılıq üzrə birgə müəssisələrin yaradılması, habelə informasiya-kommunikasiya texnologiyaları, elm və mədəniyyət sahələrində səylərin əlaqələndirilməsi də perspektivli olacaqdır. Biz Azərbaycan üçün, özü də sizə lazım olacaq bütün ixtisaslar üzrə lazımi qədər kadr hazırlanmasını davam etdirmək əzmindəyik. O cümlədən sizin xilasedicilərin Belarus Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Universitetində təhsil alması yolu ilə.

Hüquq-mühafizə strukturlarının, sosial-müdafiə qurumlarının, aqrokompleksin, xüsusi rabitə və informasiyalaşdırma sahələrinin əməkdaşları arasında ənənəvi sıx və fəal ikitərəfli əlaqələr dəstəklənir. İmzalanmaq üçün hazırlanmış sazişlər bizim əməkdaşlığımızı daha da səmərəli edəcək. Belarus ikinci Avropa oyunlarının müdiriyyəti ilə əməkdaşlıq edən azərbaycanlı məsləhətçilərə, Azərbaycan Gənclər və İdman Nazirliyinə təşəkkür edir. Gələn il keçiriləcək oyunların təşkili məsələsində göstərdiyiniz fəal köməyə və dəstəyə görə Sizə təşəkkür edirəm və təbii ki, sizin hamınızı həmin oyunlarda gözləyirik.

Bir daha vurğulayıram, Azərbaycan bizim üçün etibarlı strateji tərəfdaş olub və olaraq da qalır. Biz sizinlə dostluğumuzu yüksək qiymətləndiririk və Avropanın mərkəzində Azərbaycanın mənafelərinin irəliləməsinə səmimi və açıq şəkildə kömək etməyə hazırıq. Bizdə əməkdaşlıq üçün qapalı mövzular yox-

dur. Biz heç vaxt hansısa üçüncü, beşinci ölkələrə qarşı əməkdaşlıq etməmişik. Biz xalqlarımızın rifahı üçün nə lazımdırsa edirik. Aramızda hər hansı bir gizli, qapalı mövzu yoxdur və heç vaxt da olmayacaq. Biz bütün dünya üçün səmimi və açığıq, bizim qarşılıqlı münasibətlərimiz də elədir.

Hörmətli İlham Heydər oğlu, Sizi və nümayəndə heyətinizin üzvlərini Belarus torpağında bir daha salamlayıram. Bilin ki, siz bizim üçün həmişə arzu edilən qonaqlarsınız. Təşəkkür edirəm.

**İlham Əliyev:** Hörmətli Aleksandr Qriqoryeviç, ilk növbədə, dəvətə görə Sizə bir daha təşəkkür etmək istərdim. Belarusa səfər bizə həmişə xüsusi sevinc bəxş edir. Sizi və bütün Belarus xalqını ölkənizin sosial-iqtisadi inkişafında qazandığınız nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Mən Belarusa müntəzəm səfər edən bir şəxs kimi, ölkənizin necə dinamik və səmərəli inkişaf etdiyini görürəm. Bizim münasibətlərimiz ölkələrimiz arasındakı səmimiyyəti və əməkdaşlığı yaxşı nümayiş etdirir. Biz bütün məsələlərlə bağlı qarşılıqlı fəaliyyət göstəririk və qəbul edilən qərarlar hökmən həyata keçirilir. Bu gün Siz ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərini qeyd etdiniz. Mən də öz növbəmdə, qeyd etmək istərdim ki, biz bütün istiqamətlər üzrə fəal irəliləyiş olduğunu və yaxşı nəticələrin qazanıldığını görürük. Bizim hər görüşümüz münasibətlərimizə təkan verir və konkret layihələrin həyata keçirilməsinə doğru aparır. Biz görülmüş işlərə yekun vururuq, gələcək qarşılıqlı fəaliyyətin və əməkdaşlığın yollarını

müəyyənləşdiririk və qəbul etdiyimiz qərarları səmərəli şəkildə həyata keçiririk.

Beynəlxalq münasibətlər sahəsində də əməkdaşlıq həmişə çox səmərəli və proqnozlaşdırıla biləndir. Biz həmişə bir-birimizi dəstəkləyirik və düşünürəm ki, beynəlxalq məsələlərdə qarşılıqlı dəstək bizim münasibətlərin səmimiliyini yaxşı nümayiş etdirir. Biz şadıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi artır. Həm keçən il, həm də bu il əmtəə dövriyyəsini xeyli artırmağımıza baxmayaraq, onun artım dinamikası hələ də davam edir. Siz qeyd etdiyiniz kimi, sənaye kooperasiyası sahəsində müstəsna müsbət nəticələr əldə edilib. Lakin biz əməkdaşlığı davam etdirmək, qazanılmış səviyyə ilə kifayətlənməmək fikrindəyik. Ona görə ki, sənaye sahəsində əməkdaşlıq potensialını bundan sonra da artırmaq üçün hələ çox iş görmək olar.

Fikrimcə, bizim gələcək əməkdaşlığımızın əsas istiqamətlərindən biri nəqliyyat sahəsi ilə bağlı olacaq. Siz çıxışınızda Şimal–Cənub nəqliyyat dəhlizini qeyd etdiniz. Azərbaycan öz ərazisində bu dəhlizin fəaliyyəti ilə əlaqədar bütün işləri başa çatdırıb. İndi biz xeyli yükdaşıma qabiliyyəti olan nəqliyyat infrastrukturumuzun daha da modernləşdirilməsi məsələləri ilə məşğuluq. Azərbaycan həm də Şərq–Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. Düşünürəm ki, bu iki mühüm nəqliyyat marşrutu üzrə ölkələrin fəaliyyətinin əlaqələndirilməsi əməkdaşlıq üçün tamamilə yeni şərait yaradacaq, on minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaq, ölkələrimiz arasında yük axınını xeyli

artıracaqdır. Təsadüfi deyil ki, hökumətlərarası birgə Komissiyanın dünənki iclasında mühüm mövzulardan biri də nəqliyyat sahəsi ilə bağlı məsələlər olubdur.

Əlbəttə, biz Belarusun ikinci Avropa oyunlarını keçirməyə necə fəal hazırlaşdığını diqqətlə izləyirik. Bu təbiidir, birincisi, ona görə ki, biz dostuq. İkincisi, birinci oyunlar Bakıda keçirilib. Biz inanırıq ki, yaradılmış idman infrastrukturu, qonaqların qalmaları üçün gözəl şərait, habelə Belarusun beynəlxalq tədbirlərin təşkili sahəsində nümayiş etdirdiyi yüksək səviyyə oyunların da çox yüksək səviyyədə keçirilməsinə imkan verəcəkdir.

Siz qeyd etdiyiniz kimi, biz kənd təsərrüfatı, təhsil və elm sahələrində əməkdaşlığa da böyük diqqət yetiririk. Daha doğrusu, bizim çox yaxşı nəticələr əldə etdiyimiz sahələri sadalamaqdansa, fəal əməkdaşlıq etmədiyimiz sahələri sadalamaq daha asan olar. Bizim münasibətlərimizin başlıca əsası qarşılıqlı dəstək, qarşılıqlı hörmət və qarşılıqlı etimadın yüksək səviyyəsidir. Düşünürəm ki, biz bu əsasda birgə səylərimizlə ölkələrimiz, xalqlarımız üçün yaxşı imkanlar yaradacaq, münasibətlərimizi daha da inkişaf etdirəcəyik. Azərbaycan üçün Belarus mehriban dost və etibarlı tərəfdaşdır. Əminəm ki, mənim bugünkü səfərim münasibətlərimizə yeni təkan verəcəkdir.

Qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm və əminəm ki, yaxşı nəticələr ölkələrimiz arasında daha sıx qarşılıqlı fəaliyyətə gətirib çıxaracaqdır. Sağ olun.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Minsk*

*19 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə noyabrın 19-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatını Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko imzaladılar.*

*«Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında sosial-əmək sahəsində əməkdaşlıq məsələləri üzrə Anlaşma Memorandumu»nu Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və Belarusun Əmək və Sosial Müdafiə naziri İrina Kosteviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Belarus Respublikasının Rabitə və İnformasiya Nazirliyi arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu»nu Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnolo-*

*giyalar naziri Ramin Quluzadə və Belarusun Rabitə və İnformasiya naziri Konstantin Şulqan imzaladılar.*

*«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında 17 oktyabr 2006-cı il tarixində Minsk şəhərində imzalanmış əməkdaşlıq haqqında sazişin həyata keçirilməsinə dair 2019–2021-ci illər üzrə Kompleks Tədbirlər Planı»nı Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Belarusun Fövqəladə Hallar naziri Vladimir Vaşenko imzaladılar.*

*«Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsi arasında hava hücumundan müdafiə silah və texnikasının təchiz olunması sahəsində ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Müdafiə naziri Zakir Həsənov və Belarusun Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Roman Qolovçenko imzaladılar.*

*«Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov və Belarusun Kənd Təsərrüfatı nazirinin müavini Vladimir Qrakun imzaladılar.*

*«Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Belarus Respublikası Məhkəmə Ekspertizası Dövlət Komitəsi arasında məhkəmə-ekspertiza fəaliyyəti sahə-*

*sində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov və Belarusun Məhkəmə Ekspertizası Dövlət Komitəsinin sədri Andrey Şved imzaladılar.*

*«Azərbaycan Respublikasının Baş Prokurorluğu və Belarus Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Baş prokuroru Zakir Qaralov və Belarusun Baş prokuroru Aleksandr Konyuk imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarusun Daxili İşlər naziri İqor Şuneviç imzaladılar.*

* * *

*Sənədlərin imzalanmasından sonra ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş birgə poçt markasının buraxılışı mərasimi oldu. Azərbaycanın və Belarusun dövlət başçıları markaları xüsusi ştamplarla möhürlədilər.*

*Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko üzərində marka olan zərfi imzaladılar.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Minsk*

*19 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko noyabrın 19-da sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Belarus Prezidenti Aleksandr Lukaşenkonun bəyanatı

Hörmətli dostlar!

Bu gün mənim dostum, həmkarım Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə məhsuldar danışıqlar apardıq. Biz ölkələrimiz arasında tərəfdaşlığın strateji xarakterini, ikitərəfli münasibətlərdə problemlərin qətiyyən olmadığını, yalnız xoş məramı və bizim birgə əməkdaşlıq səylərimizi təsdiq etdik. Bu il mühüm tarixlə – Belarusla Azərbaycanın diplomatik münasibətlər qurmasının 25 illiyi ilə əlamətdardır.

Əsrin dörddəbiri ərzində ölkələrimiz dövlətlərarası qarşılıqlı fəaliyyətin qurulmasında xeyli irəliləyiblər. Buna müntəzəm dialoq, o cümlədən yüksək səviyyədə dialoq kömək edibdir.

Mən Prezident həmkarımla görüşlərin etimada əsaslanan, səmimi ab-havasını çox yüksək qiymətləndirirəm. Biz beynəlxalq gündəliyin istisnasız olaraq bütün məsələlərini açıq və məhsuldar müzakirə edirik. Bugünkü danışıqların gedişində əsas diqqət uğurlu ticari-iqtisadi və investisiya əməkdaşlığına yönəldilib. Əldə olunan razılaşmalar bu əməkdaşlığın artırılmasına əlavə impuls verməyə kömək edəcəkdir.

Cari ildə biz qarşılıqlı ticarətin artımını müşahidə edirik. Bir vaxtlar təşəbbüskarları prezidentlər olan layihələr gücünü artırır. Məsələn, Gəncə Avtomobil zavodunda 11 il ərzində artıq 10 mindən çox «Belarus» traktoru və onların bazasında xüsusi texnika yığılıb. Müəssisə, həmçinin 3500-dən çox MAZ avtomobili və qoşqular buraxıb. Bu gün məmnuniyyətlə öyrəndim ki, sizin aldığınız Amerika və alman taxılyığan kombaynları ilə yanaşı, Azərbaycana Belarusun ilk «Qomselmaş»ı da gəlib. Bizim üçün bu, qarşılıqlı səmərəli əməkdaşlığın əla nümunəsidir. Yeri gəlmişkən, lokallaşma artıq, demək olar ki, yarıya çatıb. Bu, Azərbaycan sənayesinin böyük imkanlarından və onun yüksək kadr potensialından aydın xəbər verir. Amma məhsul nə qədər keyfiyyətli olsa da, onu səmərəli satmaq, daha yaxşı olar ki, ixrac etmək lazımdır. Buna görə də Minsk Traktor zavodu və Gəncə Avtomobil zavodu hazırda Türkiyədə traktorların yığılması ilə

bağlı bizim ümumi layihə üzərində işləyir. Biz bu mühüm perspektivli istiqaməti inkişaf etdirəcəyik və bu, Azərbaycan Prezidentinin mövqeyi sayəsində mümkün olubdur.

Belarus Azərbaycan investisiyalarına və yüksək səviyyəli məhsullarına maraq göstərir. Bu gün sizin məhsullar ötən il Minskdə açılan Azərbaycan Ticarət Evində geniş təqdim edilir. Onların Belarus alıcılarında populyarlıq qazanmasına görə Azərbaycan Prezidenti bu şəbəkənin vilayət mərkəzlərinə də genişləndirilməsi haqqında qərar qəbul edibdir.

Nəqliyyat-logistika sahəsində də birlikdə çox iş görmək olar. Biz Azərbaycanın infrastruktur layihələrində – yeni dəmir yollarının, dəniz limanlarının, logistika mərkəzlərinin tikintisində iştirak etməyə hazırıq. Səhiyyədə, təhsildə, informasiya-kommunikasiya texnologiyalarında, idmanda, turizmdə əməkdaşlıq ehtiyatları mövcuddur. Bu gün əldə olunan razılaşmaların gerçəkləşdirilməsi lap tezliklə niyyətlərimizi konkret işlərə çevirməyə imkan verəcəkdir. Məsələn, artıq Azərbaycanda Belarus dərmanlarının buraxılışı üzrə birgə müəssisənin yaradılması sahəsində işlər aparılır. Tam əminəm ki, digər irimiqyaslı maraqlı layihələrin gerçəkləşməsi də çox uzaqda deyil.

Əziz dostlar, sizə məlumdur ki, 2019-cu ildə Belarus Bakıdan sonra ikinci Avropa oyunlarını qəbul edir. Cənab Prezidentlə mən 2015-ci ildə belə miqyaslı tədbiri əla keçirməyin öhdəsindən gələn Azərbaycanın təcrübəsini ətraflı müzakirə etdik. Üstəlik deməliyəm ki,

sizdən sonra bütün ölkələr belə oyunları qəbul etməyə çəkinirlər. Çünki həmin səviyyə ilə rəqabət aparmaq, mən bunu səmimi deyirəm, qətiyyən mümkün deyildir. Biz də bu səviyyəni aşağı salmamaq üçün ciddi fikirləşməliyik. Həm də fikirləşməliyik ki, bunu nəyin hesabına edə bilərik. Amma sizə olduqca minnətdarıq ki, mütəxəssisləriniz, nazirləriniz bizə ciddi məsləhətlər verərək, bizi faktiki olaraq, ikinci Avropa oyunlarına hazırlayırlar. Mən də ilk növbədə, bu beynəlxalq idman tədbirinə hazırlıqda köməyinə görə öz həmkarıma təşəkkür edirəm. Növbəti dəfə sizin hamınızı, məhz bu Avropa oyunlarını izləməyi arzulayan Azərbaycan vətəndaşlarını Belarusa gəlməyə dəvət edirəm.

Bizim ölkələrimiz arasında həll edilməmiş məsələlər və müzakirə üçün qapalı mövzular yoxdur. Belarus və Azərbaycan həmişə etibarlı və strateji tərəfdaş olaraq qalacaq. Əminəm ki, ənənəvi səmərəli əməkdaşlıq, qarşılıqlı dəstək bundan sonra da Belarus–Azərbaycan münasibətlərini fərqləndirən cəhət olacaq. Təşəkkür edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Aleksandr Qriqoryeviç!

Əziz dostlar!

Mən yenidən dost Belarus torpağında olmağımdan şadam. Dəvətə görə dostum Aleksandr Qriqoryeviç Lukaşenkoya minnətdaram. Deməliyəm ki, bu mənim sizin ölkənizə 5-ci rəsmi səfərimdir. Aleksandr

Qriqoryeviç Azərbaycana 4 rəsmi səfər edib və mən bu gün Belarus Prezidentini yenidən Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Qarşılıqlı səfərlərin sayının özü və onların intensivliyi ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Aleksandr Qriqoryeviç qeyd etdi ki, bizim ölkələrimiz strateji tərəfdaşdır və biz bunu əməkdaşlığımızın hər bir sahəsində nümayiş etdiririk.

Siyasi münasibətlərin yüksək səviyyəsi, ölkələrimiz arasında qarşılıqlı hörmət, etimad, prezidentlər arasında şəxsi dostluq – bütün bunlar üzərində Belarus–Azərbaycan dostluğunun möhtəşəm binasının tikildiyi təməldir.

Biz beynəlxalq təşkilatlarda aktiv qarşılıqlı fəaliyyət göstəririk, bütün məsələlərdə bir-birimizi dəstəkləyirik. Mən deyərdim ki, bu dəstək avtomatik xarakter daşıyır – hətta müzakirəsiz, məsləhətsiz, razılaşmasız. Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən olan namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfindən də görürük. Bu bizim münasibətlərimizin yüksək səviyyəsinin göstəricisidir. Biz həmçinin ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma digər ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir. Bu gün bizim münasibət-

lərimizin səviyyəsi məhz elədir ki, istənilən məsələləri açıq müzakirə etməyə imkan verir. Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, bizdə heç bir qapalı mövzu və əməkdaşlığımızın heç bir sahəsində qətiyyən məhdudiyyət yoxdur. Biz bu gün gələcəkdə münasibətlərimizin xarakterini müəyyənləşdirəcək xeyli sənəd imzaladıq. Mən onların arasında, ilk növbədə, əlbəttə, prezidentlərin Birgə Bəyanatını qeyd edərdim. Bu, əməkdaşlığımızın əsas istiqamətlərini ehtiva edən, ölkələrimizin siyasi iradəsini ifadə edən mühüm siyasi sənəddir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar məsələlər üzrə Belarusun mövqeyinə görə həm öz adımdan, həm də Azərbaycan xalqı adından xüsusi minnətdarlığımı bildirmək istərdim. Birgə Bəyanatda vurğular dəqiq qoyulub və deyilir ki, bu münaqişə Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həll edilməlidir. Biz Belarusa həm bizim, həm də bütün region üçün son dərəcə mühüm olan məsələdə belə obyektiv mövqeyinə görə minnətdarıq.

Aleksandr Qriqoryeviçin dediyi kimi, ticari-iqtisadi sahədə yaxşı perspektivlər və nəticələr vardır. Əlbəttə, əmtəə dövriyyəsinin artımı bizi sevindirir. Bu gün biz vəziyyəti təhlil etdik. Dünən hökumət üzvləri çox uğurlu iş apardılar – hökumətlərarası birgə Komissiyanın iclası çox yaxşı nəticələr verdi. Bizə bildirdilər ki, on milyonlarla dollarlıq müqavilələr

bağlanılıb. Bu, gələcək üçün yaxşı göstəricidir. Biz görülən işləri təhlil edirik, məsələlərin həlli yollarını müəyyənləşdiririk və bu məsələləri həll edirik. Mən Aleksandr Qriqoryeviçlə Gəncə Avtomobil zavodunun bazasında «Belarus» traktorlarının yığılması üçün istehsal sahəsi yaratmaq barədə razılaşanda da eyni hadisə baş verdi. Budur, Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, artıq 10 mindən çox traktor yığılıb və lokallaşma səviyyəsi ildən-ilə artır. Bu, Azərbaycanda yeni iş yerləri yaradır. Artıq yeni sənaye sahəsi yaradılıb. Bu bizim sənaye potensialımızın artımına səbəb olubdur. Bu, belaruslu istehsalçılara öz təcrübələrini bizimlə bölüşmək, öz məhsullarını üzə çıxarmaq imkanı yaradıb və indi o məhsullar artıq üçüncü ölkələrin bazarlarına çıxarılır. Biz bu gün kombaynların istehsalı üçün oxşar yanaşma barədə razılaşdıq. Artıq qeyd edildiyi kimi, Belarus avtomobilləri Azərbaycanda istehsal olunur. Belə ki, çox yüksək səmərəlilik dərəcəsi ilə tammiqyaslı sənaye kooperasiyası gedir.

Mən bu gün səhər Azərbaycan Ticarət Evinə baş çəkdim. Deməzdim təəccübləndim, amma sevindim ki, belə gözəl yerdə, şəhərin mərkəzində Azərbaycanın yaraşıqlı guşəsi yaradılıb və orada bizim nailiyyətlərimiz Belarus vətəndaşlarına nümayiş etdiriləcək. Həmçinin mənə dedilər ki, bizim məhsullarımız artıq Belarus bazarına çıxıb və onlara yaxşı tələbat vardır. Biz bu baxımdan belaruslulardan geri qalmışıq. Artıq Bakıda yüksəkkeyfiyyətli və bizim vətəndaşlar arasında çox məşhur olan Belarus məhsullarını satan 7 ticarət

müəssisəsi mövcuddur. Biz məhsullarımızı Belarus bazarına çıxarmaq niyyətindəyik. Düşünürəm ki, bu həm bizim ikitərəfli ticari-iqtisadi əlaqələrimizi möhkəmləndirəcək, həm də bir-birimizin imkanlarını daha çox nümayiş etdirəcəkdir.

Biz şadıq ki, Belarus Bakıdan estafeti qəbul edib və ikinci Avropa oyunları Minskdə keçiriləcəkdir. Əminəm ki, oyunlar ən yüksək səviyyədə olacaq. Artıq çox gözəl idman infrastrukturu yaradılıb. Qonaqların qalması üçün də yaxşı şərait vardır. Düşünürəm ki, təşkilatçılıq da yüksək səviyyədə olacaq. Çünki Belarusda keçirilən bütün irimiqyaslı beynəlxalq tədbirlər ən yüksək standartlara cavab verir.

Bizim əməkdaşlığımızın istiqamətlərindən biri də hərbi-texniki sahədir. Biz bu əməkdaşlıqdan çox razıyıq, məhsulların keyfiyyəti və səmərəliliyi çox yüksəkdir. Buna görə də təsadüfi deyil ki, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın artıq yaxşı tarixi, kifayət qədər böyük həcmləri və genişlənməyə yaxşı meyli vardır. Təsadüfi deyil ki, bu gün imzalanmış sənədlər arasında Memorandum da vardır. Bu sənəd ən qısa müddətdə Belarusdan hərbi texnikanın növbəti partiyasının alınması üçün müqaviləyə çevriləcəkdir.

Bu gün bizim müzakirə etdiyimiz digər istiqamətlər – sosial, kənd təsərrüfatı, miqrasiya, fövqəladə hallar sahələri üzrə də yaxşı dinamika mövcuddur. Münasibətlərimiz tam dəyərli, olduqca mehriban və səmimidir. Əminəm ki, mənim səfərim onlara yeni təkan verəcək. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

* * *

*Sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verildi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfəri noyabrın 19-da başa çatdı.*

**LİVAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MİŞEL AUNA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 noyabr 2018-ci il*

## TÜRKİYƏ RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİN BAŞ QƏRARGAH RƏİSİ YAŞAR GÜLƏRİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülərin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq, ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd etdi və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxın etdiyini bildirdi. Prezident İlham Əliyev nəzərə çatdırdı ki, bu il Bakıda Türkiyə zabitlərinin də iştirak etdiyi iki hərbi paradın keçirilməsi, xüsusilə Bakının işğaldan azad edilməsi ilə bağlı təşkil edilmiş hərbi parad bütün dünyada böyük maraqla izlənilib və bu tədbirlər bir daha Türkiyə–Azərbaycan birliyini nümayiş etdirir. Dövlətimizin başçısı hərbi sahədə əməkdaşlığımızın genişlənməsində Azərbaycan*

*ilə Türkiyənin birgə hərbi təlimlərinin böyük önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülərin səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Türkiyə Respublikası Silahlı Qüvvələrin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülər Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən böyük qürur hissi keçirdiyini bildirdi. Yaşar Gülər qeyd etdi ki, «bir millət – iki dövlət» olan Türkiyə ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə malikdir və ölkələrimiz arasında strateji işbirliyi gündən-günə möhkəmlənməkdədir. O bir daha Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bu əlamətdar hadisədən Türkiyənin də qürur hissi keçirdiyini vurğuladı. Yaşar Gülər Azərbaycanın gələcəkdə də böyük inkişafa nail olacağına əminliyini ifadə etdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Yaşar Gülər qeyd etdi ki, bu, Azərbaycan üçün önəmli olduğu qədər, Türkiyə üçün də önəmli məsələdir.*

*Söhbət zamanı noyabrın 21-də Bakıda keçiriləcək Azərbaycan–Türkiyə–Gürcüstan ordu rəhbərlərinin görüşünün əməkdaşlığın genişlənməsi baxımından önəmi qeyd edildi.*

*Sonda Türkiyə Respublikası Silahlı Qüvvələrin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülər dövlət başçımıza xatirə hədiyyəsi təqdim etdi.*

## RUSİYA FEDERASİYASI JURNALİSTLƏR İTTİFAQININ SƏDRİ VLADİMİR SOLOVYOV İLƏ GÖRÜŞ

*20 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyası Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Rusiya arasında digər sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin arasında da ənənəvi olaraq uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirdi, eyni zamanda, bu sahədə əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini qeyd etdi. Bu baxımdan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası KİV nümayəndələrinin mütəmadi qarşılıqlı səfərləri ictimaiyyətin ölkələrimizdə baş verən proseslər barədə daha çox məlumatlı olması işinə kömək edə bilər. Eyni zamanda, dövlətimizin başçısı qeyd etdi ki, belə səfərlər ölkələrimiz arasında bu gün çox uğurla inkişaf edən ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından da önəmlidir. Prezident İlham Əliyev əlaqələrimizin*

*möhkəmlənməsində Azərbaycanın və Rusiyanın dövlət başçılarının qarşılıqlı səfərləri və mütəmadi görüşlərinin xüsusi rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı Vladimir Solovyovun səfərinin jurnalistika sahəsində əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Rusiya Federasiyası Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Prezident İlham Əliyevlə görüşündən dərin məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, bu gün Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir və çox yüksək səviyyədədir. Qonaq Azərbaycanda Rusiya mədəniyyətinə, mətbuatına böyük hörmətlə yanaşıldığını qeyd edərək, məmnunluq hissi ilə ölkəmizdə bütün Rusiya televiziya kanallarının yayımlandığını bildirdi. O, Rusiya jurnalistlərinin azərbaycanlı həmkarları ilə daim qarşılıqlı əlaqələr saxlamaq istəyində olduqlarını dedi. Vladimir Solovyov bu baxımdan noyabrın 19-da Azərbaycan Mətbuat Şurası və Rusiya Federasiyası Jurnalistlər İttifaqı arasında imzalanmış əməkdaşlıq haqqında Memorandumun əhəmiyyətini vurğuladı.*

**ӘFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLӘRİ CӘNAB MӘHӘMMӘD ӘŞRӘF QANİYӘ**

Hörmәtli cәnab Prezident!

Kabil şәhәrindә törәdilmiş partlayış nәticәsindә çox sayda insanın hәlak olması vә yaralanması xәbәri bizi son dәrәcә kәdәrlәndirdi.

Biz bu dәhşәtli terror aktından olduqca hiddәtlәnir, terrorizmә qarşı әn sәrt şәkildә, qәtiyyәtlә vә ardıcıl mübarizә aparılmasını zәruri vә vacib hesab edirik.

Baş vermiş bu faciә ilә әlaqәdar Sizә, hәlak olanların ailәlәrinә vә yaxınlarına, bütün Әfqanıstan xalqına öz adımdan vә Azәrbaycan xalqı adından dәrin hüznlә başsağlığı verir, yaralananlara şәfa dilәyirәm.

Allah rәhmәt elәsin.

**İLHAM ӘLİYEV**
**Azәrbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2018-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ İŞÇİLƏRİNƏ VƏ HAKİMLƏRƏ

Hörmətli ədliyyə işçiləri və hakimlər!

Sizi Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi 1918-ci ildə təsis edilmiş Azərbaycan ədliyyəsi bir əsrlik mürəkkəb və şanlı inkişaf yolu keçibdir.

Azərbaycanda ədliyyə sisteminin intibahı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, bir neçə dəfə ləğv edilmiş Ədliyyə Nazirliyinin fəaliyyəti məhz ulu öndər tərəfindən 1970-ci ildə bərpa edilmiş, zəruri normativ sənədlər qəbul olunmuş və milli kadr hazırlığına xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Respublikası müstəqilliyini qazandıqdan sonra ümummilli liderin rəhbərliyi ilə Ədliyyə Nazirliyinin cəmiyyətdəki rolu və əhəmiyyəti artmış, müasir məhkəmə sistemi yaradılmış, məhkəmələrin müstəqilliyinin təmin olunması üçün mühüm addımlar atılmışdır.

Azərbaycanda ədliyyə orqanları və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər bu gün də davam etdirilməkdədir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın təmin edilməsi məqsədilə «Elektron məhkəmə» informasiya sisteminin

yaradılması haqqında sərəncam imzalanıb, test üsulu ilə şəffaf prosedurlar əsasında yeni hakim korpusu formalaşdırılıb, ədliyyə orqanlarının işi və göstərdiyi hüquqi xidmətlər yeni tələblər səviyyəsində qurulubdur. Son illərdə hakimlərin sayı əhəmiyyətli dərəcədə artıb, müasir məhkəmə kompleksləri inşa edilib, ədliyyə orqanları və məhkəmələrin maddi-texniki bazası gücləndirilibdir.

Əminəm ki, ədliyyə və məhkəmə işçiləri qanunun aliliyinin, hər kəsin qanun qarşısında bərabərliyinin təmin olunması, vətəndaşların hüquqlarının qorunması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirərək, Azərbaycan ədliyyəsinin inkişafına öz töhfələrini verəcəklər.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2018-ci il*

## TÜRKMƏNİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*21 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkmənistan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkmənistanın Dövlət bayraqlarının dalğalandığı Aşqabad Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Türkmənistanın Baş Nazirinin müavini, Xarici İşlər naziri Rəşid Meredov və digər yüksəkvəzifəli şəxslər qarşıladılar.*

## «XALQ XATİRƏSİ» MEMORİAL KOMPLEKSİNİ ZİYARƏT

*Aşqabad*

*21 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda «Xalq xatirəsi» memorial kompleksini ziyarət etmişdir.*

*Kompleksdə 1948-ci ildə baş vermiş zəlzələ zamanı həyatlarını itirmiş və Göytəpə döyüşlərində şəhid olmuş insanların xatirəsinə abidələr ucaldılıb.*

*Prezident İlham Əliyev «Əbədi şöhrət» abidəsinin önünə əklil qoydu.*

*Sonra dövlətimizin başçısı «Vətən müqəddəsliyi» Muzeyi ilə tanış oldu.*

*Muzeydə Göytəpə döyüşlərinin maketi quraşdırılıb, eyni zamanda, Göytəpə qalası, həmin döyüşlərin qəhrəmanları, döyüşlər zamanı istifadə olunan silahlar, libas və digər eksponatlar nümayiş olunur.*

*Dövlət başçısı 1881-ci ildə baş vermiş Göytəpə döyüşlərinin instalyasiyasına baxdı. Muzeydə eyni zamanda, İkinci dünya müharibəsi, onun qəhrəmanları, həmçinin həmin müharibə zamanı hərbçilərin istifadə etdikləri geyimlər, silah, sursat və digər eksponatlar da sərgilənir.*

*Muzeyin növbəti bölməsi 1948-ci ildə Aşqabadda baş verən zəlzələyə həsr olunub. Burada həmin zəlzələ zamanı dağılan binaların qalıqları nümayiş etdirilir.*

*Türkmənistanın inkişafına həsr olunmuş bölmədə müasir Aşqabadın görkəmini əks etdirən fotolar sərgilənir.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## OLİMPİYA KOMPLEKSİ İLƏ TANIŞLIQ

*Aşqabad*

*21 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Olimpiya Kompleksi ilə tanış olmuşdur.*

*2017-ci ildə Aşqabadda keçirilmiş qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya oyunlarının ən əsas idman obyektləri bu kompleksin ərazisində yerləşir.*

*Ümumi ərazisi 157 hektar olan Olimpiya Kompleksində qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya oyunlarının açılışı və bağlanışı mərasimləri, bütün yarışlar, o cümlədən mükafatlandırma tədbirləri təşkil olunub. Kompleksdə ümumilikdə 30-dan çox müxtəlif təyinatlı idman qurğusu, həmçinin 45 min tamaşaçı tutumu olan Olimpiya stadionu, paralimpiya kompleksi və tibbi bərpa mərkəzi yerləşir.*

*Ərazidə eyni zamanda, üzgüçülük arenası, voleybol, basketbol, futbol meydançaları, olimpiya kəndi, qapalı velotrek, döyüş sənəti üzrə idman kompleksi, yüngül atletika arenası və tennis kortu, eləcə də idmanın*

*müxtəlif növləri ilə məşğul olmaq üçün çoxfunksiyalı zal inşa olunubdur.*

*Aşqabad Olimpiya Kompleksində, həmçinin biznes-mərkəz, mehmanxanalar və sağlamlıq mərkəzi də fəaliyyət göstərir.*

## TÜRKMƏN MİLLİ XALÇA MUZEYİ İLƏ TANIŞLIQ

*Aşqabad*

*21 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Türkmən Milli Xalça Muzeyi ilə tanış olmuşdur.*

*Bu muzey Türkmənistan Prezidentinin sərəncamı ilə 1993-cü ildə yaradılıb. Məqsəd Türkmənistanın xalçaçılıq sənətini qorumaq və inkişaf etdirməkdir. Muzeyin yaradıldığı gün hər il ölkədə Türkmən Xalçası Günü kimi qeyd olunur.*

*Burada muzeylə yanaşı, «Türkmənxalı» Dövlət Birliyinin inzibati binası da vardır. Muzey binasının ümumi sahəsi 5000 kvadratmetrdən çoxdur.*

*Bu muzeydə 2000-dən çox xalça nümunəsi toplanılıb. Onların sırasında nadir eksponatlar da vardır. Burada miniatür xalça nümunələri ilə bərabər, əl ilə toxunmuş ən böyük xalça kimi, Ginnesin rekordlar kitabına düşmüş ümumi sahəsi 301 kvadratmetr olan «Altın Asır» xalçası da nümayiş etdirilir. Bu böyük xalça Türkmənistanın müstəqilliyini bərpa etməsinin 10 illiyi münasibətilə toxunulub. Muzeydə köhnə xalçaların bərpası da həyata keçirilir.*

*Burada, həmçinin müxtəlif səpkili mədəni tədbirlər, sərgilər, beynəlxalq forumlar və konfranslar da təşkil olunur. Bu muzey Türkmənistanın mühüm mədəniyyət mərkəzlərindən biri hesab edilir.*

*Dövlətimizin başçısı muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Aşqabad*

*22 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 22-də Aşqabadda Müstəqillik Meydanında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Türkmənistanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Azərbaycanın və Türkmənistanın Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan əsgərlərini salamladı.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkmənistanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Aşqabadda akkreditə olunmuş səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nü-*

*nümayəndə heyətinin üzvləri isə Türkmənistan Preziden-ti Qurbanqulu Berdıməhəmmədova təqdim edildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Sonra Azərbaycan və Türkmənistan prezidentləri süvari dəstənin müşayiəti ilə Oğuzxan adına saray kompleksinə gəldilər.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

# TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Aşqabad*

*22 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədov ilə noyabrın 22-də təkbətək görüşü olmuşdur.*

**Qurbanqulu Berdıməhəmmədov**: Hörmətli İlham Heydər oğlu!

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş qonşu ölkəyə – qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə dərin minnətdarlığımı bildirim. Sizin nümayəndə heyətinin üzvlərinə təşəkkür edirik.

Bildiyiniz kimi, Türkmənistan və Azərbaycan xalqlarının qədim, zəngin mənəvi ənənələri vardır. Yəni biz həmişə, bütün dövrlərdə çox böyük potensiala və imkanlara malik olmuşuq. Sevindirici haldır ki, həm Türkmənistan, həm də Azərbaycan müasir mərhələdə həmin potensialdan istifadə edir. Biz bunu siyasi arenada, iqtisadi məsələlərimizdə, bir sıra başqa

sahələrdə görürük. Bu baxımdan bizim güclü ehtiyatımız vardır. Biz bu ehtiyatdan həm xalqlarımızın rifahı naminə, həm də regional və beynəlxalq səviyyədə istifadə edirik. Biz Birləşmiş Millətlər Təşkilatı kimi çox nüfuzlu beynəlxalq qurumların üzvüyük. Vurğulamaq istərdim ki, bu gün Türkmənistan və Azərbaycan BMT-nin Davamlı İnkişaf Məqsədlərini həyata keçirir. Bizdə təkcə regionda deyil, bütün dünyada sabitlik və təhlükəsizlik kimi məsələlərə ortaq münasibət vardır. Onu demək istərdim ki, biz öz imkanlarımızı nəzərə alaraq, regional və beynəlxalq səviyyədə iqtisadiyyat və iqtisadi inteqrasiya sahələrində əməkdaşlıq potensialından istifadə edə bilərik. Buna görə biz, əlbəttə ki, Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Artıq qeyd etdiyim kimi, bizim çox yaxşı imkanlarımız vardır. Bizim köklərimiz, tariximiz, mentalitetimiz, milli xüsusiyyətlərimiz ortaqdır. Biz çox haqlı olaraq vətənpərvərlik göstərir, bu dəyərlərin böyüməkdə olan nəslə ötürülməsi işinə incəsənət xadimlərini, yaradıcı ziyalıları cəlb edirik.

Gördüyünüz kimi, bu gün təkcə Sizinlə bizim aramızda, iki dövlət arasında deyil, həm də region və dünya miqyasında çox iş görülür. Buna görə fürsətdən istifadə edib, Sizə təşəkkürümü bildirmək istərdim, ilk növbədə, ona görə ki, Siz Türkmənistan ilə Azərbaycan arasında dostluq tellərinin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar diləyir, qardaş Azərbay-

can xalqına ən xoş arzularımı bildirirəm. Bu gün Sizi burada görməyə çox şadıq. Xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Sağ olun, hörmətli cənab Prezident!

Mən ilk növbədə, qardaş Türkmənistana səfərə dəvətə görə Sizə təşəkkür etmək istərdim. Dünən Sizin torpağa qədəm qoyduğum andan özümü evimizdəki kimi hiss edirəm. Bu, qardaş türkmən xalqının qonaqpərvərliyi, şəxsən Sizin qonaqpərvərliyiniz sayəsindədir.

Azərbaycanda Sizi ölkəmizin böyük dostu kimi tanıyırlar. Siz ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün çox iş görürsünüz. Fürsətdən istifadə edib Sizi və Türkmənistanın qardaş xalqını inkişafda qazandığınız böyük nailiyyətlərə, Türkmənistanın beynəlxalq aləmdə rolunun möhkəmlənməsinə, milli-mənəvi dəyərlərə çox diqqət yetirməyinizə, xalqınızın ənənələrini qoruyub saxlamağınıza və bunları yeni nəsillərə ötürməyinizə görə təbrik etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bizim ortaq köklərimiz var və bu bizi birləşdirir. Biz ənənələrimiz, tariximiz, ortaq mədəniyyətimiz, dünyagörüşümüz əsasında daha da yaxınlaşmaq istəyirik. Buna görə düşünürəm ki, mənim səfərim bizim qardaşlıq münasibətlərimizin möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Mən Sizinlə razıyam ki, ölkələrimiz regional əməkdaşlığın, regionda təhlükəsizliyin möhkəmlənməsi məsələlərində də mühüm rol oynayır. Sabitliyin, inkişafın yüksək səviyyəsi bizim ölkələri fərqləndirir. Siz çox

düzgün qeyd etdiniz ki, ölkələrimiz BMT-nin Davamlı İnkişaf Məqsədləri çərçivəsində dəyişiklikləri fəal həyata keçirir. Biz əksər göstəricilər üzrə nəzərdə tutulanları nəinki yerinə yetirmişik, hətta artıqlaması ilə yerinə yetirmişik. Türkmənistana gələn, Sizin ölkənizin necə inkişaf etdiyini, vətəndaşlar üçün necə şərait yaradıldığını, iqtisadiyyatın, sənaye potensialının necə artdığını görən hər kəs bunu yəqin edir.

Biz Azərbaycanda Sizin uğurlarınıza sevinirik. Biz əminik ki, qardaş Türkmənistan xalqı Sizin müdrik rəhbərliyinizlə bundan sonra da tərəqqi yolu ilə irəliləyəcək. Əlbəttə, belə yaxşı imkanlardan istifadə etməklə, əməkdaşlığı möhkəmlətmək lazımdır. Biz məhz bununla məşğuluq və əminəm ki, səfər bu istiqamətdə çox səmərəli olacaq. İqtisadi sahədə qarşılıqlı fəaliyyət, nəqliyyat sahəsində əməkdaşlıq, sənaye kooperasiyası – müzakirə üçün mövzu çoxdur. Əminəm ki, biz qarşıya qoyulmuş hədəflərə nail olacağıq. Səmimi qəbula və qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Aşqabad*

*22 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun noyabrın 22-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**Qurbanqulu Berdıməhəmmədov**: Hörmətli İlham Heydər oğlu!

Hörmətli nümayəndə heyətinin üzvləri!

İcazə verin, bizim dəvətimizi qəbul etdiyinizə və qardaş, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edim. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Çünki bu səfər bizim mehriban qonşuluğumuzun, qarşılıqlı hörmətin, beynəlxalq aləmdə, ticari-iqtisadi əməkdaşlıq məsələlərində və mədəni-humanitar sahədə təsəvvürlərimizin şaxələndirilməsinin məntiqi davamıdır.

Xarici siyasət məsələlərinə gəldikdə, bizim prinsiplərimiz oxşardır və ya üst-üstə düşür. Yəni biz həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanılmasına tərəfdarıq. Sizə təşəkkür edirik ki, beynəlxalq aləmdə Türkmənistanın

bitərəf statusundan irəli gələn bütün təşəbbüsləri dəstəkləyirsiniz. Biz bütün məkanlarda, BMT və ATƏT kimi nüfuzlu qurumlarda, beynəlxalq təşkilatlarda bir-birimizi qarşılıqlı surətdə dəstəkləyirik. Mənim fikrimcə, bu da çox düzgündür. Əlbəttə, tərəfdaşlıqda elə məsələlər var ki, biz onlara da münasibət bildirməliyik. Terrorizm, narkotiklərin qanunsuz dövriyyəsi, transsərhəd cinayətkarlıq kimi təhdidlər və çağırışlar bu qəbildəndir. Buna görə də biz, əlbəttə ki, belə təhdidlərə qarşı mübarizəni bundan sonra da davam etdirəcəyik.

Demək istərdim ki, Xəzər dənizi də bizi birləşdirir. Bu yaxınlarda Xəzəryanı dövlətlər Xəzərin hüquqi statusu barədə Konvensiya qəbul etdilər və bizim üçün burada da, yəni mehriban qonşuluq məsələlərində də çox böyük imkanlar yaranır. Başlıca məsələ odur ki, biz hamımız eyni fikirdəyik – Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir və biz bundan sonra da fəaliyyətimizi bu ruhda davam etdirəcəyik.

Bizim ticari-iqtisadi məsələlərimizə gəldikdə, iqtisadi əməkdaşlığa dair hökumətlərarası birgə Komissiya fəaliyyət göstərir və buna görə Sizə təşəkkür edirik. Sevindirici haldır ki, bu ilin 9 ayı ərzində əmtəə dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 17 faiz artıb. Kənd təsərrüfatı, tikinti, sənaye kimi sahələrdə yaxşı meyillər yaranıb. Azərbaycanın yeni texnologiyaları, əlbəttə ki, bizi cəlb edir. Hər halda, bütün dünya rəqəmsal texnologiyalara, rəqəmsal iqtisadiyyata keçir. Buna görə biz də bu ruhda davam edəcəyik.

Əlbəttə ki, nəqliyyat məsələlərini, yəni məhz tranzit nəqliyyat dəhlizlərinin inkişafı və onun logistikasının düzgünlüyünün müəyyənləşdirilməsini qeyd etmək istərdim. Sizinlə bizim – Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropaya çıxışla bağlı nümunəvi təcrübəmiz və imzalanmış razılaşmalarımız çoxdur. Mən xatırlatdım ki, biz bu gün TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı, TİR kimi beynəlxalq qurumlarla yaxşı əlaqələrə malikik və bu, böyük əhəmiyyət kəsb edir. Sizin Bakı–Tbilisi–Qars kimi çox yaxşı infrastrukturunuz vardır. Görürsünüz, bizdə nümunələr çoxdur. Ona görə də biz düzgün logistikamızı həm avtomobil, həm dəmir yolu, həm də bərə nəqliyyatı üzrə inkişaf etdirə bilərik. Sizin dəmir yolu üçün güclü bərə nəqliyyatınız vardır. Bu bizdə Ro-Ro tipli avtonəqliyyat üçün oxşar variantdır. Düşünürəm ki, biz bu fəaliyyəti düzgün logistikamızla da gücləndirə bilərik. Hərçənd yadımdadır, Siz Xəzəryanı ölkələrin dövlət başçılarının Sammitində də bu variantı təklif etdiniz – Xəzəryanı dövlətlər arasında düzgün logistika yaradılsın və bu müşavirə məhz Bakıda keçirilsin. Fikrimcə, biz bu məsələnin əməkdaşlığa dair ikitərəfli dialoq çərçivəsində müzakirəsinə artıq başlamışıq.

Energetika məsələlərinə gəldikdə isə, bizim çox güclü ehtiyat potensialımız vardır. Buna görə də biz bu məsələlərdə enerji inteqrasiyasının tərəfdarıyıq. Təkcə bizim ölkələrimiz üçün yox, həm də regional səviyyədə beynəlxalq bazarlara birgə çıxa bilərik. Düşünürəm ki, bu cəhətdən biz yaxşı əməkdaşlıq edə bilərik. Yəni

gördüyünüz kimi, bizdə müxtəlif sahələrin elə mənzərəsi və aspekti var ki, ölkələrimiz arasında əmtəə nomenklaturunu genişləndirə bilərik. Buna görə də mən bir daha qeyd edirəm ki, burada iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiya bilavasitə rol oynayır. Yəni biz onun iclasını azı ildə bir dəfə keçirməliyik, çünki bir qədər fasilə yaranıb, amma bəzi məsələlər, necə deyərlər, təcili həllini tələb edir.

Əlbəttə ki, mədəni-humanitar sahə əməkdaşlığın ayrılmaz tərkib hissəsidir. Bizi çox sevindirir ki, ortaq köklərimiz, mənşəyimiz, ənənələrimiz, milli xüsusiyyətlərimiz vardır. Biz müasir mərhələdə təhsil, elm, turizm sahələrinin, idmanın inkişafı məsələlərinə böyük əhəmiyyət veririk. Bu gün, əlbəttə ki, bunlar da lazımdır, çünki onların hamısı böyüməkdə olan gələcək nəsil üçün həm vətənpərvərlik, həm də ideoloji cəhətdən bizim əcdadlarımızın vəsiyyətidir. Bilirəm ki, Siz xalçaçılıq məsələlərinə böyük diqqət yetirirsiniz. Dediyim kimi, biz də bu sahəyə böyük diqqət yetiririk. Hətta Bakıda olanda təklif etmişdik ki, həm bizdə, həm sizdə xalça sərgiləri təşkil olunsun. Bu halda, beynəlxalq səviyyəyə çıxmaq və ya bizim xalçalara aid beynəlxalq konfrans keçirmək olardı. Yəni gördüyünüz kimi, biz qarşılıqlı hörmət və etimad fonunda belə ikitərəfli əməkdaşlığa meyilliyik. Buna görə də mən bir daha Sizə bu səfərinizə görə təşəkkür etmək istərdim. Çünki Sizin səfəriniz şübhəsiz ki, bu gün müzakirə etdiyimiz məsələlərə daha yaxşı təkan verəcəkdir.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Sizin nümayəndə heyətinizin üzvlərinə, əlbəttə ki, qardaş Azərbaycan xalqına ən yaxşı arzularımı bildirirəm. Sizə təşəkkür edirəm.

**İlham Əliyev:** Sağ olun, əziz Qurbanqulu Məlikqulıyeviç!

Mən ilk növbədə, qonaqpərvərliyə, dəvətə, səmimi qəbula görə təşəkkür etmək istərdim. Yenidən qardaş Türkmənistan torpağında olmağıma şadam.

Mən dünən ölkənizin nailiyyətləri ilə tanış olmaq imkanı qazandım və bu, Türkmənistanın inamlı müsbət inkişafının nümayişidir. Şəxsən Sizi və bütün Türkmənistan xalqını quruculuq yollarında böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm.

Biz də səfərə böyük əhəmiyyət veririk və səfər çox yaxşı hazırlanıb. Səfərin yekunları üzrə xeyli sənədin imzalanacağı nəzərdə tutulub. Əminəm ki, onlar vaxtında reallaşacaq və bununla da bizim əməkdaşlığımız üçün daha yaxşı şərait yaranacaqdır.

Biz Türkmənistanla əməkdaşlığa böyük əhəmiyyət veririk. Siz qeyd etdiyiniz kimi, bizim ümumi köklərimiz, tariximiz, xalqlarımızın yaxınlığı elə bir bünövrədir ki, onun üzərində öz birgə gələcəyimizi qururuq. Həm də təsadüfi deyil ki, biz beynəlxalq qurumlarda birgə fəaliyyət göstəririk, bir-birimizi dəstəkləyirik. İkitərəfli planda əməkdaşlıq potensialını gücləndiririk və bütün bunlar sabitliyə doğru aparır, regional təhlükəsizliyi möhkəmləndirir. Bu gün regional təhlükəsizliklə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb

edir. Biz görürük ki, dünyanın müxtəlif guşələrində toqquşmalar, qanlı hadisələr baş verir, dövlətlərin təməlini sarsıdan proseslər gedir. Buna görə də düşünürəm ki, belə mürəkkəb vəziyyətdə həm Azərbaycanın, həm də Türkmənistanın yüksək inkişaf səviyyəsi, sabitlik nümayiş etdirməsi xüsusilə əhəmiyyətlidir və bunlar bir daha ölkələrimizin getdiyi yolun düzgün olmasından xəbər verir.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın istiqamətləri çoxdur. Əminəm ki, indiyədək olduğu kimi, gələcəkdə də beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcəyik. Bu gün biz artıq təkbətək görüşdə əməkdaşlığın xeyli mühüm məsələlərini müzakirə etdik və nümayəndə heyətləri çərçivəsində də müzakirələri davam etdirəcəyik. Biz gələcək əməkdaşlığın əsas istiqamətlərini, prioritetlərini qeyd etdik. Hesab edirəm ki, əmtəə dövriyyəsinin artırılması məsələsində çox iş görmək olar. Əmtəə dövriyyəsi artsa da, fikrimcə, hələlik ölkələrimizin potensialını tam əks etdirmir. Düşünürəm ki, nümayəndə heyətinin üzvləri Türkmənistan mallarının Azərbaycana, Azərbaycan mallarının isə Türkmənistana ixracını necə artıra biləcəyimizi konkret müzakirə etmək imkanına malik olacaqlar. Əlbəttə ki, bu mövzu hökumətlərarası birgə Komissiyanın işi çərçivəsində də prioritet məsələlərdən biri olmalıdır. Razıyam ki, iclaslar arasında müəyyən fasilə olur. Hesab edirəm ki, yaxın vaxtlarda artıq əldə olunmuş razılaşmaların yerinə yetirilməsi proqramını işləyib hazırlamaq məqsədilə

mənim səfərimin yekunlarına əsasən, operativ iclas keçirmək mümkün olacaqdır.

Artıq dediyim kimi, bu gün xeyli sənəd imzalanacaq. Onlar inkişaf istiqamətlərini müəyyənləşdirir, amma həmin məsələlərin reallaşdırılması üzrə fəaliyyət planının olması da zəruridir.

Həm Türkmənistan, həm də Azərbaycan böyük təbii ehtiyatlara malik ölkələrdir. Əlbəttə ki, ölkələrimiz arasında energetika sahəsində əməkdaşlıq təbiidir. Azərbaycan Türkmənistanın enerji ehtiyatları üçün tranzit imkanlar təqdim edir. Biz şadıq ki, Türkmənistan nefti Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə nəql edilərək, əməkdaşlığımızı möhkəmləndirir. Əlbəttə, bizim münasibətlərimizin əsas mövzularından biri nəqliyyat sahəsidir. Təsadüfi deyil ki, mənim nümayəndə heyətimin tərkibində Azərbaycanın bütün nəqliyyat qurumlarının rəhbərləri vardır. Onlar artıq türkmənistanlı həmkarları ilə fəal işləyirlər. Biz bu gün sizinlə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın bu məsələlərini də müzakirə etmişik. Yəni biz bu sahədə bütün ölkələrə və xalqlara fayda gətirəcək çoxtərəfli regional əməkdaşlıq üçün yaxşı perspektivlər görürük. Belə ki, mən bizim söhbətimizdən çox məmnunam və düşünürəm ki, səfərin nəticələri də müsbət olacaq, ölkələrimizin daha da yaxınlaşmasına xidmət edəcəkdir.

Qonaqpərvərliyə görə bir daha sağ olun, Sizə möhkəm cansağlığı, gələcək uğurlar, qardaş Türkmənistan xalqına sülh və tərəqqi arzulayıram. Sağ olun.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Aşqabad*

*22 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun iştirakı ilə noyabrın 22-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Türkmənistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun Birgə Bəyanatını dövlət başçıları İlham Əliyev və Qurbanqulu Berdıməhəmmədov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş»i Azərbaycanın Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın Maliyyə və İqtisadiyyat naziri Batır Bazarov imzaladılar.*

*«Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında əməkdaşlıq*

*haqqında Saziş»i Azərbaycanın Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Elmlər Akademiyasının prezidenti Sapardurdı Toylıyev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Respublikası Hökuməti arasında 2019–2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Əməkdaşlıq Proqramı»nı Azərbaycanın Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın Təhsil naziri Mammetmurat Geldiniyazov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan–Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında Saziş»i Azərbaycanın Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı naziri Azat Atamuradov imzaladılar.*

*«Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Türkmənistan Respublikasının Sənayeçilər və Sahibkarlar Birliyi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Türkmənistandakı səfiri Həsən Zeynalov və Türkmənistanın Sənayeçilər və Sahibkarlar Birliyinin sədri Aleksandr Dadayev imzaladılar.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi arasında nəqliyyat və tranzit məsələlərinə dair Saziş»i «Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı naziri Azat Atamuradov imzaladılar.*

*«Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistan Respublikasının Dövlət Gömrük Xidməti arasında Saziş»i Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və Türkmənistanın Dövlət Gömrük Xidmətinin rəisi Atadurdı Osmanov imzaladılar.*

*«Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Türkmənistan Respublikasının Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutu arasında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Xarici İşlər Nazirliyinin Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Baba Zaxırov imzaladılar.*

*«Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində ADA Universiteti ilə Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitet arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universitetinin rektoru Esen Aydoqdıyev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan Respublikası iki dövlətin (əlavə) ərazilərindən keçməklə, həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında Saziş»i Azərbaycanın Xarici*

*İşlər nazirinin müavini Xələf Xələfov və Türkmənistanın Dövlət Miqrasiya Xidmətinin sədri Merqen Qurdov imzaladılar.*

*«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında dəniz ticarət gəmiçiliyinin inkişafına dair Saziş»i «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin sədri Rauf Vəliyev və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.*

*«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» Qapalı Səhmdar Cəmiyyəti ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında avtomatlaşdırılmış informasiya mübadiləsi haqqında Saziş»i «Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.*

*«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında yükaşırma həcmlərinin artırılması haqqında Saziş»i «Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» QSC-nin baş direktoru Taleh Ziyadov və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında iki ölkənin limanlarından keçən daşımaların inkişafı haqqında Saziş»i Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək*

*Texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidmətinin sədri Amanmurad Qurdov imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkmənistan Respublikasının Avtomobil Nəqliyyatı Nazirliyi arasında beynəlxalq avtomobil daşımalarının inkişafı haqqında Saziş»i Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın Avtomobil Nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında 2019–2022-ci illər üçün nəqliyyat sahəsində əməkdaşlıq Proqramı»nı Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Türkmənistanın Avtomobil Nəqliyyatı naziri Orazdurdı Suxanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın Sənaye naziri Xoşgəldi Mergenov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında 2019–2021-ci illər üzrə ticari-iqtisadi əməkdaşlıq Proqramı»nı Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın Ticarət və Xarici İqtisadi Əlaqələr naziri Amandurdı İşanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında uzunmüddətli*

*ticari-iqtisadi əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın Ticarət və Xarici İqtisadi Əlaqələr naziri Amandurdı İşanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın Maliyyə və İqtisadiyyat naziri Batır Bazarov imzaladılar.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Aşqabad*

*22 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədov noyabrın 22-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədovun bəyanatı

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri! Mən ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə və onun nümayəndə heyətinin üzvlərinə dərin təşəkkürümü bildirmək istərdim ki, dəvətimizi qəbul edib mehriban qonşunuz, qonaqpərvər Türkmənistana rəsmi səfərə gəlmisiniz. Buna görə biz Sizə bir daha minnətdarıq.

Demək istərdim ki, biz bu gün çox yaxşı, konstruktiv danışıqlar apardıq. Prinsipcə, bizim ikitərəfli münasibətlərimizin bütün aspektlərini, yəni onların cari və perspektiv vəziyyətini, regional və beynəlxalq siyasətə dair məsələləri nəzərdən keçirdik. Mən dərhal demək istəyirəm ki, bizim – həm Türkmənistanın, həm də Azərbaycanın beynəlxalq məsələlər barədə baxışları eynidir, yaxud bənzərdir. Bunlar həm regionda, həm də bütün dünyada sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması məsələləridir. Buna görə də bu gün biz beynəlxalq aləmdə xarici siyasi kursumuzdan, yəni Türkmənistanın bitərəf statusundan irəli gələn bütün təşəbbüsləri daim dəstəklədiklərinə görə Azərbaycana minnətdar olmalıyıq. Eyni zamanda, biz də qardaş Azərbaycanı daim dəstəkləyirik.

Onu da demək istərdim ki, bu gün biz həm də bizi birləşdirən ümumi məsələlərimiz üzrə fikir mübadiləsi apardıq. Bu, Xəzər dənizi məsələsidir. Bildiyiniz kimi, bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya qəbul olunub. Biz həmişə bildiririk ki, Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir. Buna görə də biz gələcəkdə də, əlbəttə ki, öz siyasətimizi aparacağıq.

Bu gün biz ticari-iqtisadi məsələlərdən danışarkən çox geniş aspekti, yəni yaxşı təmasa malik olduğumuz sahələri – kənd təsərrüfatını, tikintini, sənayeni, yeni texnologiyaları nəzərdən keçirdik. Nəqliyyat məsələlərinə, məhz nəqliyyat-tranzit dəhlizlərinin və düzgün logistikanın tərtib olunmasına toxunduq. Əlbəttə,

əsas məsələlər energetika məsələləri idi. Yəni bu məsələdə biz həmişə həmrəyik. Biz enerji resurslarımızı həm regional, həm də beynəlxalq bazarlara çıxarmaq imkanına malikik. Bu baxımdan mən, əlbəttə, dövlətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyanın fəaliyyətinə görə minnətdaram. Həmin Komissiya çox iş görür və yəqin ki, gələcəkdə də görəcəkdir.

Mədəni-humanitar sahədən danışarkən, əlbəttə ki, bu bizim üçün böyük əhəmiyyət kəsb edir. Çünki həm Türkmənistan, həm də Azərbaycan, bizim xalqlarımız vahid köklərə, adətlərə, milli xüsusiyyətlərə, ənənələrə malikdir. Əlbəttə, bizim üçün sevindiricidir ki, biz müasir mərhələdə də gələcək gənc nəslin vətənpərvər ruhda böyüməsi naminə bu işi davam etdiririk. Buna görə də biz bu sahə haqqında bu kontekstdə danışarkən, bu gün bizim üçün mühüm olan tətbiqi sənət, yəni xalçaçılığa toxunduq. Həm Türkmənistan, həm də Azərbaycan xalçaları bütün dünyada məşhurdur. Biz bu fikrə gəldik ki, həm Türkmənistanda, həm də Azərbaycanda xalça sərgisi təşkil etmək, həmçinin gələcəkdə beynəlxalq konfransın keçirilməsi haqqında düşünmək yaxşı olardı.

Gördüyünüz kimi, biz bugünkü görüşdə çox geniş əhatəli məsələləri nəzərdən keçirdik, xeyli sənəd və saziş imzaladıq.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, mən sizin diqqətinizi iki məsələyə yönəltmək istərdim. Birincisi, nəqliyyat məsələsidir. Biz dedik ki, tranzit dəhlizləri inkişaf etdirmək, düzgün lo-

gistika tərtib etmək istərdik. Bu, avtomobil və bərə nəqliyyatına, hava məkanına, dəmir yollarına aiddir. Ən başlıcası odur ki, indi bizim aramızda məhz nəqliyyat-tranzit dəhlizləri və logistikanın inkişafı məsələləri ilə məşğul olacaq xüsusi Komissiya fəaliyyət göstərəcəkdir.

Türkmənistanla Azərbaycan arasında xeyli nümunəvi cəhətlər vardır. Biz Əfqanıstan, Türkmənistan, Azərbaycan və Türkiyə arasında Avropaya çıxışla bağlı nəqliyyat sazişi imzaladıq. Bu, artıq Şərq–Qərb xəttinə aiddir, yəni biz burada bütün Orta Asiyanı Avropa ilə birləşdiririk. Biz istər beynəlxalq siyasətə, istərsə də başqa istiqamətlərə aid bütün məsələlərdə ixtisaslaşdırılmış beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqəli addımlar atırıq. İndiki halda biz Bakı–Tbilisi–Qars kimi yaxşı infrastrukturun olduğu TRASEKA, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı xətti ilə gedə bilərik. Belə nümunələr çoxdur. Bunun əsasında noyabrın 28-də böyük beynəlxalq konfrans keçirəcəyik. Düşünürəm ki, bu gün biz həmin iştirakçı ölkələrin üzvlərinə müəyyən güzəştlər – deyək ki, güzəştli tariflər və sair edə bilərdik. Burada əsas məsələ düzgün logistikanı inkişaf etdirməkdən ibarətdir.

Demək istədiyim ikinci məsələ odur ki, biz bu gün sənədlər paketi ilə yanaşı, 2019–2021-ci illər üçün ticari-iqtisadi sahənin inkişafı haqqında da əməkdaşlıq proqramı qəbul etdik. Yəni bu bir daha ondan xəbər verir ki, biz gələcəkdə də əmtəə nomenklaturamızı inkişaf etdirə bilərik. Hərçənd, indi bizdə çox yaxşı tendensiya gedir, yəni biz artıq öz statistikamızı

bildirdik. Qeyd etdik ki, hər il müəyyən faiz artım var, deyək ki, əvvəlki illə müqayisədə 17 faiz artım olub. Biz elə bu ruhda iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyamıza üstünlük veririk. Buna görə də mən xüsusi qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən, yüksək hörmət və qarşılıqlı etimad fonunda keçdi. Ən əsası gələcək əməkdaşlığa doğru yaxşı meyil vardır. Buna görə də mən fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının hörmətli Prezidentinə onun şəxsi töhfəsinə, bizim xalqlarımız və ölkələrimiz arasında dostluq tellərinin möhkəmlənməsi üçün etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Əlbəttə, ali dövləti fəaliyyətində böyük uğurlar, bütün qardaş Azərbaycan xalqına isə ən yaxşı rifah və tərəqqi arzulayıram. Diqqətə görə təşəkkür edirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli dostlar!

Mən Türkmənistan Prezidentinə, mənim əziz dostuma dəvətə, çox səmimi qəbula, qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Mən dünəndən qardaş Türkmənistan torpağındayam. Türkmənistanın sosial-iqtisadi inkişafındakı nailiyyətlərlə tanış olmaq imkanına malik oldum. Biz sizin uğurlarınıza da öz nailiyyətlərimiz kimi sevinirik. Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqı adından qardaş türkmən xalqına salamlarımı çatdırmaq istəyirəm. Bizi tarix, mədəniyyət, ümumi köklər,

ənənələr, dünyagörüşü birləşdirir. Bu həmin güclü bünövrədir ki, bizə öz münasibətlərimizi bərabər hüquqlar, mehriban qonşuluq, dostluq və qardaşlıq əsasında qurmağa imkan verir.

Səfər sona yaxınlaşır. Artıq bu gün, demək olar ki, bu səfər bizim ölkələrimiz arasında münasibətlər tarixində xüsusi yer tutacaq. Bu münasibətlərin çox böyük potensialı vardır. Bu gün aparılan danışıqlarda, prezidentlər arasında təkbətək formatda, eləcə də nümayəndə heyətlərinin iştirakı ilə aparılan fikir mübadiləsi zamanı biz əməkdaşlığımızın mühüm məsələlərini müzakirə etdik. Biz görülən işlərə yekun vurduq və gələcək qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Bu gün 20-dən çox sənəd imzalandı və onların hər birinin olduqca konkret xarakteri vardır. Bu bizim münasibətlərimizin, əməkdaşlıq həcminin və nailiyyətlərimizin, bir-birimizə qardaşlıq münasibətinin göstəricisidir. Yalnız yaxın ölkə ilə həyat fəaliyyətinin belə müxtəlif istiqamətləri üzrə işləmək mümkündür.

Biz gələcəkdə də bir-birimizə beynəlxalq qurumlarda, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək göstərməyə razılaşdıq. Türkmənistan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir. Bu, artıq adi hala çevrilib və bizim münasibətlərimizin səmimiliyini göstərir.

Türkmənistan Prezidenti artıq gündəlikdə olan əsas məsələlər barədə danışdı. Öz tərəfimdən qeyd etmək istərdim ki, biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması üzərində fəal işləyəcəyik.

Biz ölkələrimiz arasında fəaliyyət göstərən hökumətlərarası birgə Komissiyaya müvafiq tapşırıqlar vermişik ki, onlar Azərbaycandan Türkmənistana və Türkmənistandan Azərbaycana ixracı artırmaq üzrə işi fəallaşdırsınlar. Malların konkret siyahısı var və qurumların müvafiq rəhbərləri bu məsələləri müzakirə edirlər. Fikrimcə, əgər biz konkret istiqamətlərə diqqəti yönəltsək, qısa müddət ərzində əmtəə dövriyyəmizi daha da artıra bilərik.

Türkmənistan Prezidenti hörmətli Qurbanqulu Məlikqulıyeviç Berdıməhəmmədovun dediyi kimi, nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə böyük yer ayrılıb. Səfər ərəfəsində bizim nümayəndə heyətlərimiz fəal işləyib, bir neçə raund danışıqlar aparıb və Şərq–Qərb beynəlxalq dəhlizinin fəaliyyətinin əsas məsələlərini razılaşdırıblar. Türkmənistan və Azərbaycan öz tərəflərindən əvvəlki illərdə müasir nəqliyyat infrastrukturunun yaradılması və logistika imkanları üçün böyük iş aparıb. Biz əvvəlcədən razılaşmamışdıq, amma belə alındı ki, paralel yollarla getdik. Bu da təbiidir, çünki bu, ölkələrimiz və xalqlarımız üçün zəruri olan məsələdir. Təsadüfi deyil ki, həm Türkmənistanda, həm də Azərbaycanda bu il beynəlxalq ticarət limanlarının açılması eyni vaxtda, eyni ayda – may ayında baş verib. Hərə öz ərazisində bu layihələrə sərmayə qoymağa başlayanda, biz uzaqgörənliklə hərəkət etdik. Bu gün biz ticarət limanlarımızın tam inteqrasiyası haqqında danışırıq, müvafiq sənəd bu gün imzalandı. Bu bizim ölkələrimiz üçün əmtəə dövriyyəsini və tranzit daşımaları artırmaq

imkanları yaradır. Biz qonşularımız üçün də böyük potensial yaradırıq. Bizim mühüm nəqliyyat qovşaqları kimi gələcək uğurlu inkişafımız regional vəziyyətdən də asılıdır. Buna görə də bizim qonşularımızla yaxşı münasibətlərimiz regionda təhlükəsizliyi, sabitliyi möhkəmləndirir, eləcə də Azərbaycanla Türkmənistanı mühüm nəqliyyat qovşaqlarına çevirir.

Müasir infrastruktur, nəqliyyat sahəsinə böyük sərmayələr işləmək üçün gözəl şərait yaradır. Rəqəmləri göstərmək istəmirəm, amma əminəm ki, yaxın vaxtlarda biz Türkmənistanla Azərbaycan arasında yük axınının xeyli artımını görəcəyik. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında Türkmənistandan əlavə yüklərin qəbulu üçün xüsusi yer ayrılır və biz sözsüz ki, şərq–qərb, qərb–şərq marşrutları üzrə ölkələrimiz arasında tranzit yüklərin həcminin artdığını görəcəyik.

Ötən il o vaxta qədər mövcud olmayan və dünya bazarlarına çıxış əldə etmək üçün son əlaqələndirici bənd olan Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə verildi. Bu, dünya bazarlarına çıxmaq üçün daha bir əlavə marşrutdur. Əminəm ki, bu marşrut ölkələrimizə böyük mənfəət gətirəcək, bütün nəqliyyat razılaşmaları paketi regionda təhlükəsizliyi möhkəmləndirəcək. Çünki nəqliyyat sahəsi yeni iş yerlərinin yaradılmasına, iqtisadi fəallığa, böyük İpək yolu üzərində yerləşən ölkələrin həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaq. Bununla da sabitlik və təhlükəsizlik möhkəmlənəcək. Biz bu gün ikitərəfli münasibətlərin ən mühüm konkret məsələlərini, regional əməkdaşlıq üçün yeni şərait yaradan

məsələləri həll etdik. Buna görə də hesab edirəm ki, səfər bizim gələcək qarşılıqlı fəaliyyətimiz, Türkmənistanla Azərbaycan arasında ənənəvi qardaşlıq münasibətlərinin möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edəcək, regionumuzun ölkələri arasında yeni, daha yaxşı şərait yaradacaqdır.

Fürsətdən istifadə edərək, qardaş Türkmənistan xalqına sülh, tərəqqi və Prezident Qurbanqulu Məlikqulıyeviçin rəhbərliyi ilə daha böyük inkişaf diləyir, ona yeni uğurlar, rifah, cansağlığı arzulayıram. Diqqətinizə görə sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Aşqabad*

*22 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun adından Azərbaycan Prezidentinin şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.*

**Qurbanqulu Berdıməhəmmədov**: Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar, qonaqlar, hörmətli səfirlər!

Mən möhtərəm İlham Heydər oğluna və onun nümayəndə heyətinin üzvlərinə bir daha səmimi minnətdarlığımı və təşəkkürümü bildirmək istərdim. Onlar bizim dəvətimizi qəbul edərək, öz qonşularının, qardaşlarının ölkəsinə rəsmi səfərə gəliblər və biz bu gün onları qonaqpərvər Türkmənistanda görməyə şadıq.

Demək istəyirəm ki, bu gün biz həqiqi qardaşlar kimi, qarşılıqlı hörmət şəraitində çox yaxşı danışıqlar apardıq, ikitərəfli əməkdaşlığımızın, regional və beynəlxalq xarakterli məsələlərin çox böyük aspektini müzakirə etdik. Biz bütün aspektlərə aid 21 sənəd imzaladıq. Buraya həm humanitar, həm də istehsalat is-

tiqamətləri daxildir. Ən başlıcası isə, əlbəttə, nəqliyyat məsələlərinə çox böyük diqqət yetirdik.

Biz İlham Heydər oğlunun təşəbbüsü ilə Xəzərə aid məsələləri nəzərdən keçirdik. Bildiyiniz kimi, Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya artıq qəbul edilib. Odur ki, nəqliyyat-tranzit dəhlizinin düzgün logistikası tərtib edilməlidir. Biz həmin mövzunu lobbiləşdirməyə başladıq və yeri gəlmişkən, yəqin siz də bilirsiniz ki, bu təşəbbüsə dair Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələri qəbul edilib. Hətta nəqliyyat-tranzit dəhlizlərinin inkişafı, düzgün logistikası barədə 3 qətnamə qəbul edilib. Noyabrın 28-də məhz nəqliyyat-tranzit dəhlizlərinin inkişafı mövzusunda konfrans keçiriləcək və elə indi bütün hörmətli səfirlərimizi həmin konfransa dəvət edirəm.

Məntiqlə yanaşsaq, coğrafi baxımdan həm Türkmənistan, həm də Azərbaycan bu məsələdə əsas ölkələrdir. Yəqin ki, böyük İpək yolunu xatırlatmağa və onun haqqında danışmağa ehtiyac yoxdur, çünki bu il Türkmənistanda «Böyük İpək yolu ili» elan edilib. Ümumiyyətlə, bugünkü görüşü biz bundan başladıq ki, Türkmənistan və Azərbaycan xalqları tarixən həmişə zəngin millətlər olub. Onların həmişə güclü ehtiyat potensialı olub və bu potensialdan həm öz xalqlarının, həm də qonşularının, regionun rifahı naminə istifadə ediblər. Sevindirici haldır ki, bu gün biz bunu müasir mərhələdə davam etdiririk.

Bir daha qeyd etmək istəyirəm ki, bugünkü danışıqlar həqiqətən, qarşılıqlı hörmət, qarşılıqlı etimad, mehriban qonşuluq ruhunda keçdi, bizim dostluq

tellərimizi bir daha nümayiş etdirdi. Azərbaycanın böyük şairi Füzuli deyib ki, düz yol ilə gedən insana dostu həmişə kömək edər. Bu kəlam bir daha sübut edir ki, bu gün biz həqiqətən, öz milli ənənələrimiz və xüsusiyyətlərimizlə mənəvi cəhətdən dəyərliyik.

Mən qardaşlarıma ən səmimi sözlərimi dedim. Qoy dostluğumuz əbədi olsun! Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Əziz dostlar, xanımlar və cənablar!

Mənim qardaş Türkmənistana rəsmi səfərim sona çatır. Qardaş Türkmənistan torpağına gəldiyim ilk dəqiqələrdən türkmən xalqının səmimiyyətini və qonaqpərvərliyini, əlbəttə ki, ilk növbədə, Türkmənistan Prezidentinin qayğısını hiss etdim.

Dünən mən türkmənlər üçün müqəddəs yerlərdə oldum. Bu xalqın nə qədər istedadlı, onun tarixinin və mədəniyyətinin nə qədər zəngin olduğunu bir daha gördüm. Əsrlərboyu türkmən xalqı öz torpağında yaşayıb, yaradıb, öz gələcəyini qurub. Biz azərbaycanlılar həmişə sizin yanınızda olmuşuq. Bizim dostluğumuzun, qardaşlığımızın çoxəsrlik tarixi vardır. Bu, qarşılıqlı hörmət, qarşılıqlı etimad, qarşılıqlı dəstək, əməkdaşlıq tarixidir.

Türkmənistan son illərdə çox böyük yol keçib. Dünən müxtəlif obyektlərdə – idman kompleksində, Xalça Muzeyində olarkən mən Aşqabadı tanımadım. Mənə elə gəlirdi ki, tamamilə başqa şəhərə gəlmişəm. Mənim burada olmadığım qısa müddət ərzində sanki şəhər içində şəhər yaradılıb. Bu, Türkmənistan dövlətinin qüdrətinin, onun iqtisadi potensialının

göstəricisidir. Amma bu, ilk növbədə, ölkə rəhbərliyinin öz xalqının qayğısına qalmasını, inkişaf üçün göstərdiyi səyləri nümayiş etdirir. Bu gün Aşqabadda olarkən Türkmənistanın son illərdə necə inkişaf etdiyini görürsən. Bu bizi sevindirir. Biz dost və qardaş kimi, sizin uğurlarınıza sevinirik. Ölkələrimizin daha da yaxınlaşması üçün öz tərəfimizdən səy göstərmişik və göstərəcəyik.

Hörmətli Qurbanqulu Məlikqulıyeviç, biz xalqlarımızın ənənəvi qardaşlıq və dostluq tellərinin daha da möhkəmlənməsi üçün çox iş görürük. Bunu bizə tarix, xalqlarımızın tarixi, ümumi etnik kökləri diktə edir. Bugünkü reallıq da bunu diktə edir. Bu gün bizim maraqlarımız üst-üstə düşür. Bu gün biz birgə səylərlə regionumuzda təhlükəsizliyə töhfə veririk. Biz Xəzər dənizi məsələsində fəal qarşılıqlı fəaliyyət göstəririk. Bilirsiniz ki, bu il Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya imzalanıb. Bizim ölkələrimiz bu Konvensiyanın imzalanmasına böyük töhfə verib. Biz Xəzər dənizinin ekoloji təhlükəsizliyi ilə, hal-hazırda mühüm olan və gələcəkdə də mühüm olacaq qitələrarası əhəmiyyətli məsələlərlə, o cümlədən Şərq–Qərb nəqliyyat dəhlizinin möhkəmləndirilməsi ilə məşğuluq. Bu dəhliz əsrlərboyu mövcud olub. Bu dəhlizlə bizim əcdadlarımıza ünsiyyət qurmağa imkan vermiş karvanlar keçib. Böyük tarixi İpək yolu bizim ölkələrimizin ərazisindən keçib və təbii ki, bu gün biz fəal surətdə bu dəhlizin müasir infrastrukturunun yaradılması üçün əlavə səylər göstəririk. Mən artıq qeyd etmişəm ki, biz sanki razılaşmışdıq, amma

əslində razılaşmamışdıq. Faktiki olaraq, Türkmənistan və Azərbaycan ərazisində möhkəm nəqliyyat potensialı yaradılıb. Bu gün isə imzalanmış sənədlərlə biz bu nəqliyyat potensialını birləşdirdik, əlaqələndirdik. İmzalanmış 20-dən çox sənədin əksəriyyəti birbaşa və ya dolayısı ilə nəqliyyat təhlükəsizliyi üzrə əməkdaşlıq məsələsinə aiddir.

Biz regionda qarşılıqlı əməkdaşlıqdan, bu dəhlizin fəaliyyətindən ölkələrimizin, xalqlarımızın, qonşularımızın böyük fayda götürəcəyi tamamilə yeni vəziyyət yaradırıq. Bu, həyat arteriyası kimi, ölkələrimizi yeni enerji ilə qidalandıracaq, yeni iş yerləri yaradacaq, yeni istehsalat sahələrinin qurulmasına doğru aparacaq, təhlükəsizliyi, əməkdaşlığı möhkəmləndirəcəkdir.

Bu gün mən səfərimin yekunlarını təhlil edərək görürəm ki, səfər dövlətlərarası çərçivədən çıxıb, onun ən azı mühüm regional əhəmiyyəti vardır. Nəqliyyat və logistika imkanlarımızın genişləndirilməsi nəzərə alınmaqla, bu, qlobal Avrasiya əhəmiyyəti kəsb edəcək. Avropa ilə Asiyanın nəqliyyat dəhlizlərinin birləşdirilməsi artıq reallıqdır. Bu reallığı biz yaradırıq. Əgər həm Türkmənistanda, həm də Azərbaycanda quruculuq, inkişaf yolları üzrə addımlar atılmasaydı, onda bu barədə söhbət aparmaq da, ümumiyyətlə, mümkün olmazdı. Əgər ölkələrimizin iqtisadi potensialına vaxtında yönəldilən sərmayələr olmasaydı, onda bu gün coğrafi vəziyyətimizin böyük əhəmiyyəti olmazdı. Biz öz coğrafiyamızı ölkələrimiz və qonşularımız üçün böyük potensiala çevirmişik. Buna görə düşünürəm ki, bizim

razılaşdığımız məsələlərin əhəmiyyəti onilliklər boyu özünü göstərəcəkdir.

Ən başlıcası, biz bu gün münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Hörmətli Türkmənistan Prezidentinin Azərbaycana səfəri zamanı strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdı. Bu gün biz öz işimizlə münasibətlərimizin strateji xarakterini təsdiq etdik. Dostlar, qardaşlar arasında belə də olmalıdır. Bu gün biz münasibətlərimizi ən yüksək zirvəyə qaldırırıq. Hörmətli dostuma, Türkmənistan Prezidentinə ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsindəki səylərinə görə təşəkkür etmək istəyirəm. Hörmətli Qurbanqulu Məlikqulıyeviçə uğurlar, cansağlığı, rifah, qardaş türkmən xalqına xoşbəxtlik və tərəqqi arzulayıram. Sağ olun.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri noyabrın 22-də başa çatdı.*

**BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MİLORAD DODİKƏ**

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, qarşıdakı fəaliyyətinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2018-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİNZO ABEYƏ**

Hörmətli cənab Baş Nazir!

Osaka şəhərinin «Ekspo–2025» sərgisini keçirmək hüququnu qazanması münasibətilə Sizi və bütün Yaponiya xalqını ürəkdən təbrik edirəm.

Sizə və dost Yaponiya xalqına bu mötəbər tədbirin hazırlıq mərhələsində və keçirilməsində uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 noyabr 2018-ci il*

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Mavritaniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2018-ci il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLİR METAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Albaniya əlaqələrinin, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2018-ci il*

## ABŞ-ın TANINMIŞ DİN XADİMLƏRİ RAVVİN ABRAHAM KUPER VƏ YEVANGELİST İCMASININ NÜMAYƏNDƏSİ CONNİ MUR İLƏ GÖRÜŞ

*26 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da ABŞ-ın tanınmış din xadimləri ravvin Abraham Kuperi və yevangelist icmasının nümayəndəsi Conni Muru qəbul etmişdir.*

*Abraham Kuper hələ sovetlər dövründə Azərbaycanda olarkən xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən dini icmaların azad fəaliyyəti üçün şəraitin yaradıldığının şahidi olduğunu dedi. Ravvin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün dini icmaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dinc və sərbəst fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda bütün xalqların və dini icmaların nümayəndələrinin tarixən dinc yanaşı yaşadığını qeyd edərək, bu ənənələrin çoxəsrlik tarixə malik olduğunu bildirdi və müstəqillik dövründə bu meyilin uğurla davam etdirildiyini, multikulturalizmin dövlət siyasətinin prioritetlərindən biri olduğunu, milli və dini tolerantlığın yüksək dərəcədə təmin edildiyini vurğuladı. Dövlət başçısı bildirdi ki,*

*bütün bunlar dövlətin həyata keçirdiyi siyasəti və xalqın iradəsini əks etdirir. Müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə bir ailə kimi dostluq şəraitində yaşadıqlarını vurğulayan Prezident İlham Əliyev onların Azərbaycanın ümumi inkişafına töhfə verdiklərini dedi. Dövlətimizin başçısı ravvin Abraham Kuperin və yevangelist icmasının nümayəndəsi Conni Murun ölkəmizə səfərinin əməkdaşlığın və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Söhbət zamanı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu.*

## RUSİYA FEDERASİYASI ÇEÇENİSTAN RESPUBLİKASININ BAŞÇISI RAMZAN KADIROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Ramzan Əhmədoviç!

Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz! Sizin səfəriniz xalqlarımız arasında ənənəvi qardaşlıq əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəkdir. Çeçen və Azərbaycan xalqları əsrlərboyu dostluq edir, bir-birini dəstəkləyir və bu gün bizim münasibətlərimiz yeni səviyyəyə yüksəlir. Mən Sizi bizim əziz qonağımız kimi, ölkəmizdə salamlamağa çox şadam. Fürsətdən istifadə edərək, Sizi və bütün qardaş çeçen xalqını sosial-iqtisadi inkişafda böyük nailiyyətlərə görə təbrik etmək istərdim. Mən bilirəm və Sizin respublikanıza səfər edənlər mənə danışırlar, televizorda da görürəm ki, şəhərlər necə dəyişir, respublika çiçəklənir və bir çox sosial, infrastruktur məsələləri həll olunur. Bilirəm ki, bütün bunlar Sizin şəxsi nəzarətiniz və rəhbərliyiniz altında baş verir.

Bizi o da çox sevindirir ki, Çeçenistan Respublikasında sabitlik bərqərar olub, insanlar təhlükəsizlik şəraitində, sakit yaşayırlar, öz doğma torpaqlarında qurub-yaradırlar.

Bildiyiniz kimi, Azərbaycanı Şimali Qafqaz respublikaları ilə uzun tarix, yaxın münasibətlər, mənəvi, mədəni, doğma əlaqələr bağlayır. Biz hesab edirik ki, Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf ancaq birgə səylər nəticəsində mümkündür. Əlbəttə, bizim Çeçenistan Respublikası və Şimali Qafqazın digər respublikaları ilə münasibətlərimiz Azərbaycanla Rusiya arasında münasibətlərin mühüm amilidir. Siz bilirsiniz ki, bu münasibətlər uğurla inkişaf edir. Biz strateji tərəfdaşlarıq. Dövlət başçılarının çoxlu qarşılıqlı səfərləri olub. Son 5 ildə Rusiya Prezidenti Azərbaycana 4 dəfə səfər edib. Bu ilin sentyabrında isə mən də Rusiyaya səfər etdim, o da Azərbaycana gəldi. Biz çox fəal qarşılıqlı fəaliyyət göstəririk və çox yüksək etimad səviyyəsi mövcuddur. Yəqin bilirsiniz ki, Vladimir Putinin səfəri zamanı sizin də nümayəndələrinizin olduğu Rusiya–Azərbaycan Regionlararası Forumu keçirilib. Bir daha demək istəyirəm ki, münasibətlərimiz tarixə, qardaşlığa əsaslanır. Əminəm ki, Sizin səfəriniz əlaqələrimizin möhkəmlənməsinə xidmət edəcək. Bir daha xoş gəlmisiniz!

**R a m z a n K a d ı r o v**: Möhtərəm İlham Heydər oğlu, dəvətə və bizə vaxt ayırdığınıza görə sağ olun. Fürsətdən istifadə edərək, Sizi yenidən xalqın etimadı ilə Prezident seçilməyiniz münasibətilə bir daha təbrik etmək istərdik. Siz təkcə Azərbaycanda deyil,

bütövlükdə müsəlmanlar üçün xeyirxah işlər görürsünüz. Biz Sizin qardaşlıq münasibətləri qurduğunuzu, konfranslar keçirdiyinizi, təkcə dini liderləri deyil, bizim regionların rəhbərliyini də qəbul etdiyinizi və yalnız müsəlmanları deyil, bütün konfessiyaları birləşdirdiyinizi görürük. Bu çox qiymətlidir. Bunu həm Azərbaycan xalqı, həm də bütün Qafqaz xalqları görür. Bizimlə görüşə vaxt ayırdığınız üçün çox şadam. Şadam ki, bizim qardaşlıq və dostluq münasibətlərimiz vardır. İndi mədəni, idman və digər sahələrdə münasibətləri inkişaf etdiririk. Ən əsası isə qardaşlıq münasibətləridir. Çünki xatırlatmaya bilmərəm, ən çətin illərdə Prezident Heydər Əliyev bizim xalqa kömək əlini uzatdı və sonadək kömək etdi, bizi dəstəklədi. Biz bunu heç vaxt unutmayacağıq. Buna görə biz hörmətli Heydər Əliyevin xatirəsinə bağ salmışıq. Onun açılışında əziz, böyük qardaşımızın iştirakını gözləyirik. Əgər Siz imkan tapıb Çeçenistan Respublikasına gələ bilsəniz, bu bizim üçün həm siyasi, həm qardaşlıq, həm də insani cəhətdən çox mühüm olacaqdır. Bizi dəvət etdiyinizə, bizə vaxt ayırdığınıza, bütün müsəlmanlar və Qafqaz, xüsusən də bizim region üçün hər şey etdiyinizə görə bir daha «Çox sağ olun» – demək istəyirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən atam Heydər Əliyevin xatirəsinə olan hörmətə və belə gözəl bağın yaradılmasına görə təşəkkürümü bildirmək istərdim. Bu bizim hamımız üçün çox vacibdir. Çox minnətdaram və öz tərəfimdən demək istərdim ki, ən çətin illərdə xalqını tərəqqi yolu ilə aparan, öz dini və xalqının gələcəyi naminə şəhid kimi özünü qurban

verən Çeçenistan Respublikasının rəhbəri Hacı Əhməd Kadırovun xatirəsinə Azərbaycanda da böyük hörmətlə yanaşırlar. Bilirsiniz ki, valideynlərimizi də yaxın münasibətlər bağlayıb. Biz bu ənənəni davam etdiririk. Belə də olmalıdır. Əminəm ki, irəliyə doğru gedəcəyik və əlbəttə, böyük məmnuniyyətlə Sizin dəvətinizi qəbul edirəm, səfər edəcəyəm.

* * *

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun şərəfinə nahar verildi.*

*Sonda xatirə şəkilləri çəkdirildi.*

## AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XV QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Əziz müəllimlər və təhsil işçiləri!

Sizi – Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarını səmimi salamlayır, ölkəmizin bütün təhsil işçilərinə ən xoş arzularımı yetirir, hər birinizə çətin və şərəfli fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm.

Müəllimlərin bu ali məclisinin Azərbaycan Xalq Cümhuriyyətinin əlamətdar 100 illik yubileyi ilə bir vaxta təsadüf etməsinin rəmzi mənası vardır. Ölkəmizdə anadilli təhsil sistemi və təhsil quruculuğunun təməli məhz Xalq Cümhuriyyəti dövründə qoyulmuşdur. Xalq Cümhuriyyətinin varisi müstəqil Azərbaycan bu gün dinamik inkişaf tempinə malik dövlətlərdəndir. İqtisadiyyatımızın tərəqqisi ölkəmizdə təhsilin inkişafına da öz müsbət təsirini göstəribdir. Sosial siyasətimizin əsas prioritetlərindən biri ölkəmizdə zamanın çağırışlarına cavab verən və beynəlxalq standartlara uyğun milli təhsil sisteminin qurulmasıdır.

«Bilik iqtisadiyyatı»na keçid və ölkənin modernləşməsi üçün həlledici amil kimi, insan kapitalının inkişafını təmin edəcək «Azərbaycan Respublikasında

təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın icrasına başlanılmasından 5 il keçir. Bu müddətdə ölkəmizdə müasir təhsil quruculuğu istiqamətində uğurlu addımlar atılıb və Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası sürətlənibdir. Ümumi təhsildə yeni proqramların tətbiqi başa çatdırılıb, tədrisdə müasir texnologiya və innovasiyaların istifadəsi genişlənib, «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» müvəffəqiyyətlə başa çatıb və bu günlərdə yeni «2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı» qəbul olunubdur.

Müəllim əməyinin stimullaşdırılması tədbirləri nəticəsində cəmiyyətimizdə müəllimin nüfuzu yüksəlib, istedadlı gənclərin müəllimlik peşəsinə marağı əhəmiyyətli dərəcədə artıbdır. Qazanılmış uğurlar dövlətin təhsil sahəsinin davamlı inkişafına diqqət və qayğısının təzahürü, eyni zamanda, Azərbaycan müəlliminin fədakar əməyinin bəhrəsidir.

Ali məclisinizin təhsil sahəsində ötən dövr ərzindəki fəaliyyəti lazımınca dəyərləndiriləcək, gələcək strateji hədəflərin düzgün müəyyənləşdiriləcəyinə və ölkənin intellektual potensialını təhsilin inkişafı məqsədi ətrafında səfərbər edəcəyinə əminəm. İnanıram ki, müəllimlərimiz bundan sonra da vəzifələrinin öhdəsindən layiqincə gələcək, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ölkədə müasir təhsil sisteminin qurulması və insan kapitalının formalaşmasına töhfələr verəcək, gənc nəsli vətən-

pərvərlik, milli-mədəni irsə bağlılıq və azərbaycançılıq məfkurəsi ruhunda yetişdirəcək, yüksək peşəkarlığa və səriştəliliyə malik, rəqabətədavamlı mütəxəssislər hazırlanması üçün əzmlə çalışacaqlar.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 noyabr 2018-ci il*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS VERNER İOHANNİSƏ**

Hörmətli cənab Prezident!

Rumıniyanın birləşməsinin 100 illiyi münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Rumıniya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, strateji xarakter daşıyan tərəfdaşlığımız, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq, bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2018-ci il*

## XALQ RƏSSAMI TAHİR SALAHOVA

Hörmətli Tahir müəllim!

Sizi – dövrümüzün böyük sənətkarını və tanınmış ictimai xadimini 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi olaraq, Siz uzunmüddətli səmərəli və bənzərsiz yaradıcılığınızla zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazmış, milli sənət xəzinəmizin «qızıl» fondunda özünə həmişəlik layiqli yer tutmuş əsərlərinizlə Azərbaycan təsviri sənətinə geniş şöhrət qazandırmısınız.

«Sərt üslub»un banilərindən biri kimi, yaratdığınız sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışınız və fəlsəfi düşüncələriniz rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapıbdır. Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirən, mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləriniz ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirlər təlqin edir. Heyrətamiz portret yaradıcılığınız sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanıbdır. Vətənə məhəbbət dolu silsilə lövhələr, peyzajlar və natürmortlarınızda insanın təbiətlə

dərin məna kəsb edən ahəngdar mənəvi vəhdətini əks etdirməyə müvəffəq olmusunuz.

Dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinizin, hər biri hadisəyə çevrilən fərdi sərgilərinizin Azərbaycan mədəniyyətinin ölkə hüdudlarından uzaqlarda təbliğində böyük rolu vardır. Milli rəssamlığın gələcək inkişafı üçün gənc fırça ustalarının yetişdirilməsi sahəsində xidmətləriniz təqdirəlayiqdir.

Sizin çoxşaxəli yaradıcılığınız və məhsuldar ictimai fəaliyyətiniz xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilibdir. Siz müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə – 1998-ci ildə «İstiqlal» və 2008-ci ildə «Heydər Əliyev» ordenlərinə, 2015-ci ildə «Heydər Əliyev mükafatı»na layiq görülmüsünüz. Çoxsaylı beynəlxalq mükafatlarınız da sənətinizə göstərilən ehtiramın parlaq təzahürüdür.

Əminəm ki, mədəniyyətimizin bugünkü simasının müəyyənləşməsində və dünya incəsənətinin inkişafında özünəməxsus mövqeyə malik sənətkar və şəxsiyyət kimi, Siz Azərbaycan təsviri sənətinin şöhrətini bundan sonra da yeni zirvələrə ucaldacaqsınız.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2018-ci il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2018-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2018-ci il*

**ƏBU-DABİ ƏMİRLİYİNİN VƏLİƏHDİ, BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANININ MÜAVİNİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2018-ci il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VORAÇİTƏ**

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Laos xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2018-ci il*

**GÜRCÜSTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM SALOME ZURABİŞVİLİYƏ**

Hörmətli xanım Zurabişvili!

Gürcüstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. İnanıram ki, ölkələrimiz arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın bütün sahələrdə bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi və inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 noyabr 2018-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ 43-cü PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC UOKER BUŞA**

Zati-aliləri!

Atanız – Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı xəbərindən son dərəcə kədərləndim.

Bu ağır anlarda dərdinizi bölüşür, əvəzsiz itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 dekabr 2018-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 dekabr 2018-ci il*

**FİNLANDİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2018-ci il*

**TAİLAND KRALI ƏLAHƏZRƏT MAHA VACİRALONQKORN BODİNDRADEBAYAVARANQKUNA**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Tailand xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2018-ci il*

## RUSİYA FEDERASİYASININ RƏQƏMSAL İNKİŞAF, RABİTƏ VƏ KÜTLƏVİ MEDİA NAZİRİ KONSTANTİN NOSKOV İLƏ GÖRÜŞ

*3 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Media naziri Konstantin Noskovu qəbul etmişdir.*

*Rusiya Federasiyasının Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Media naziri Konstantin Noskov Bakıda keçirilən XXIV «BakuTel» Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində iştirak etmək üçün dəvətə görə minnətdarlığını bildirdi. O bu tədbirə paralel olaraq Bakıda Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin görüşü barədə məlumat verdi. Qonaq qeyd etdi ki, bu görüş və «BakuTel» sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcək. Konstantin Noskov Rusiyanın və Azərbaycanın müvafiq nazirlikləri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, artıq iki ölkənin poçt xidmətlərinin səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini bildirdi və bunun Çindən Azərbaycan vasitəsilə Rusiyaya böyük həcmdə*

*elektron ticarət məhsullarının göndərilməsi üçün imkan yaratdığını dedi. Qonaq Azərbaycanla Rusiya mobil rabitə operatorları arasında əməkdaşlıqla bağlı danışıqların aparıldığını diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Rusiya Federasiyasının Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Media naziri Konstantin Noskovun Bakıda keçirilən XXIV «BakuTel» sərgisində iştirakından məmnunluğunu ifadə etdi, Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin Rabitə nazirlərinin toplantısının beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlət başçısı Bakıda ənənəvi olaraq keçirilən «BakuTel» tədbirinə beynəlxalq marağın və iştirakçı ölkələrin sayının artdığını qeyd edərək, bu tədbirin telekommunikasiya və texnologiyalar sahəsində əldə olunmuş nailiyyətlərlə yaxından tanışlıq və təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi vurğulandı və Rusiya Federasiyasının Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## CISCO ŞİRKƏTİNİN QLOBAL İNNOVASİYALAR ÜZRƏ VİTSE-PREZİDENTİ QAY DİDRİXİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Cisco şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Cisco şirkətinin uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Cisco şirkətinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən nəqliyyat sahəsində həyata keçirdiyi layihələrə toxunaraq, bu sahənin ölkəmizdə prioritet istiqamətlərdən biri olduğunu vurğuladı. Dövlət başçısı regional əməkdaşlıq üçün yeni infrastrukturun yaradıldığını nəzərə alaraq, digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.*

*Cisco şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix Azərbaycan Prezidenti ilə əvvəlki görüşünü məmnunluqla xatırladaraq, şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi. Ölkəmizə səfərindən xoş hisslər keçirdiyini deyən qonaq səfərinin*

*məqsədinin əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu və bu əməkdaşlığın «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına uyğun şəkildə həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi.*

*Görüşdə XXIV «BakuTel» Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisinin əhəmiyyətinə toxunularaq, bu tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.*

## XXIV BEYNƏLXALQ «BAKUTEL–2018» TELEKOMMUNİKASİYA, İNNOVASİYA VƏ YÜKSƏK TEXNOLOGİYALAR SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində XXIV Beynəlxalq «BakuTel–2018» telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgi və konfransının açılışı münasibətilə səmimi salamlayır, hər birinizə uğurlar arzulayıram.

Yüksək texnologiyalar sahəsində mühüm hadisələrdən olan sərgi və konfransınızın informasiya-kommunikasiya texnologiyaları sektoru nümayəndələrinin ənənəvi görüş məkanına çevrilməsi sevindirici haldır. Ən son yeniliklərin və texnoloji nailiyyətlərin nümayiş etdirilməsi baxımından geniş imkanlara malik «BakuTel» platformasında informasiya-kommunikasiya sənayesi təmsilçiləri, aparıcı biznes rəhbərləri və mütəxəssislər özlərinin qlobal əhəmiyyətli layihələr və eləcə də gələcək inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşərək, həlledici qərarlar qəbul edirlər.

Bu gün Azərbaycanda telekommunikasiya üzrə yeni texnologiyaların tətbiqi və xidmət şəbəkəsinin ən müasir standartlara uyğunlaşdırılması istiqamə-

tində ardıcıl tədbirlər həyata keçirilməkdədir. Vətəndaşların telekommunikasiya, poçt və digər xidmətlərlə daha keyfiyyətli təmin olunması məqsədilə yaradılmış «Şəbəkə» xidmət mərkəzlərinin sayı davamlı artırılır. İnformasiya-kommunikasiya texnologiyalarının cəmiyyət həyatının ayrı-ayrı sahələrində geniş tətbiqi və məlumatların vahid mərkəzdə təhlükəsiz saxlanılması üçün beynəlxalq səviyyədə təhlükəsizlik standartlarına cavab verən Data Mərkəzi qurulubdur.

Azərbaycan Poçtu ənənəvi xidmətlərlə yanaşı, bank-maliyyə xidmətləri də göstərir. Milli poçtumuz beynəlxalq tranzit poçt mərkəzi kimi fəaliyyətə başlayıbdır. İnformasiya-kommunikasiya texnologiyalarına marağın artırılması və gənclərin innovativ ideyalarına dəstək məqsədilə paytaxtda, həmçinin bölgələrdə «İdeyadan biznesə» startap turları və müxtəlif yarışlar təşkil olunur. Bu yaxınlarda ölkəmizdə ilk dəfə olaraq beynəlxalq «İnnovasiyalar həftəsi» keçirildi. Layihə çərçivəsində ziyarətçilər yüksək texnologiya və innovasiyalara dair yeniliklərlə yaxından tanış olmaq imkanı qazandılar.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılmasının ölkəmizdə yüksək texnologiyaların inkişaf tempini daha da artıracağına əminliyimi ifadə etmək istərdim. İnanıram ki, sərgi və konfrans aparacağınız geniş müzakirələr və keçirəcəyiniz səmərəli görüşlərlə qarşılıqlı əməkdaşlıq əlaqələrinin dərinləşməsinə və yeni təşəbbüslərin meydana çıx-

masına yol açacaq, informasiya-kommunikasiya texnologiyaları sənayesinin inkişafına öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 dekabr 2018-ci il*

## «BAKUTEL–2018» SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*4 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisi – «Baku-Tel–2018» ilə tanış olmuşlar.*

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə dövlət başçısına və xanımına sərgi barədə məlumat verdi.*

*Bildirildi ki, builki sərgidə 20 ölkədən 230 şirkət iştirak edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilən sərgidə 10 ölkə – ABŞ, Türkiyə, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, Polşa, Xorvatiya, İran, Sloveniya milli pavilyonlarla təmsil olunur.*

*Prezident İlham Əliyevə nazirliyin qurumlarının, müəssisələrinin məhsul və xidmətləri, həyata keçirdiyi layihələr barədə məlumat verildi. , Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə həyata keçirilən «Robopark» layihəsinin məqsədi*

*məktəblilərin müasir elmi-texniki biliklərinin artırılması, intellektual elmi-texniki yaradıcılığının inkişafı, yüksək texnologiyalar sahəsinə marağın artırılması, eyni zamanda, robot texnikasının əsasları ilə bağlı məlumatlar əldə etmələrinə imkan yaratmaqdır. Layihə çərçivəsində nazirlik Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə 23 saylı orta məktəbdə ilk «Robopark» robot texnika laboratoriyası yaradıbdır.Nazirlik tərəfindən «İdeyadan biznesə» layihəsinin icrasına bu ilin aprelindən başlanılıb. Layihənin reallaşdırılmasına Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi, Azərbaycan Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, «Microsoft» və «Azercell» şirkətləri dəstək olub. 7 ay ərzində respublikanın ayrı-ayrı şəhər və rayonlarında keçirilən startap turuna 2000-dən çox iştirakçı qatılıb. Ümumilikdə seçilən 75 komandadan 15-i respublika finalında iştirak hüququ qazanıbdır.*

*Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu tərəfindən qrant alan layihələr kommersiyalaşdırılmış layihələr hesab edilir. Nazirliyin İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu bu məqsədlə keçirdiyi 6 müsabiqə üzrə ümumilikdə 117 layihəyə qrant ayırıb. Layihələrdən 20-si kommersiyalaşdırılıb və fəaliyyətini davam etdirərək, bazarda öz yerini tutubdur.«Bakı Telefon Rabitəsi» MMC– «Baktelecom» və «Aztelekom» sərgidə birgə stendlə təmsil olunur. «Baktelecom» GPON texnologiyası ilə «Evədək optika» layihəsini davam*

*etdirir. Bu il 40 min mənzildə bu texnologiya vasitəsilə infrastruktur yaradılıb. Cari ilin əvvəlindən Bakı şəhərində və regionlarda rabitə infrastrukturunun məhdud olduğu ərazilərdə LTE texnologiyası tətbiq edilir. «Aztelekom» ilkin olaraq, Xaçmazın kəndlərində simsiz rabitə xidmətinin tətbiqinə başlayıb. Bundan başqa, bu il «Aztelekom» magistral şəbəkənin müasir standartlarla yenidən qurulması layihəsinə də start veribdir.*

*Azərbaycanın malik olduğu ilk regional Data Mərkəzinin «Microsoft» şirkəti ilə əməkdaşlığı nəticəsində müştərilərə ən əlverişli şərtlərlə virtual mühit üçün lisenziyalaşdırılmış əməliyyat sistemi təqdim olunur. Burada saxlanılan məlumatların və beynəlxalq səs trafikinin ehtiyat bazasının yaradılması məqsədilə növbəti ilin ikinci rübündə istifadəyə verilməsi planlaşdırılan Yevlax Ehtiyat Data Mərkəzinin inşası davam etdirilir. Bununla yanaşı, «Dövlət Data Mərkəzi» layihəsi üzərində də işlərə başlanılıbdır.*

*Azərbaycanda ilk dəfə olaraq, gələn il Məlumat Hesablama Mərkəzi tərəfindən istifadəçi ilə veb-səhifənin serveri arasında şifrəli məlumat mübadiləsini həyata keçirmək üçün lazım olan təhlükəsizlik sertifikatlarının verilməsinə başlanılacaq. İndiyədək həm dövlət, həm də özəl saytlar bu sertifikatı xaricdən əldə edirdi. Gələcəkdə bu sertifikatların ixracı da mümkündür. Müəssisə və təşkilatlarda sənəd dövriyyəsini elektronlaşdırmağa imkan verən «made in Azerbaijan» brendinə uyğun olaraq, yerli mütəxəssislər tərəfindən «AzDoc» adlı proqram hazırlanıb. «Elektron imza və*

*Elektron sənəd haqqında» Qanuna və kargüzarlıq təlimatlarına uyğun olan proqram hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi daxilində tətbiq olunur. Gələcəkdə isə bütün dövlət təşkilatları bu proqramdan istifadə edə bilər. Proqramda sənədləri «Elektron imza» ilə də təsdiqləmək mümkündür.*

*Dövlət Radiotezliklər İdarəsi bu il «BakuTel – 2018» çərçivəsində ən yeni informasiya-kommunikasiya texnologiyalarının ölkədə tətbiqinə şərait yaradılması üçün müasir radiomonitorinq, mobil rabitə xidmətlərinin müqayisəli analizi və digər bu kimi sistem və texnologiyalarını sərgiləyir. Sərgidə 5G – beşinci nəsil mobil rabitə, «süni intellekt» kimi texnologiyaların işinə və keyfiyyətinə nəzarət prinsiplərini özündə cəmləyən sistemlər də nümayiş olunur.Dövlət Avtomobil Nəqliyyatı Xidməti avtomobil nəqliyyatı sahəsində dövlət tənzimləməsini, əhalinin və iqtisadiyyatın avtomobil nəqliyyatı ilə daşımalara və digər nəqliyyat xidmətlərinə ehtiyacının təmin olunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Prezident İlham Əliyevin 2008-ci ildə imzaladığı fərmanla yaradılmış bu xidmət avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşımaların inkişafı sahəsində tədbirlər görür, beynəlxalq və ölkədaxili sərnişin və yükdaşımaları yerinə yetirən avtomobil nəqliyyatı subyektləri tərəfindən beynəlxalq norma və qaydalara, həmçinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına riayət olunmasına nəzarət edir.*

*Sonra dövlət başçısı və xanımı Azərbaycanda müasir poçtun və rabitənin yaradılmasının 100 illiyinə, eyni zamanda, «Azərbaycan memarlığına» həsr olunmuş poçt markasını möhürlədilər.*

*Sərgidə «Azərpoçt» MMC tərəfindən ən çox tələb olunan xidmətlərin göstərildiyi, tam avtomatlaşdırılmış, sutkaboyu fasiləsiz fəaliyyət göstərən poçt şöbəsinin prototipi də təqdim olunur. Artıq 2 ildir innovativ və texnoloji yeniliklərlə təchiz olunmuş «Şəbəkə» xidmət mərkəzləri yaradılıb. Növbəti – 9-cu «Şəbəkə» Mərkəzinin Beynəlxalq Avtovağzal Kompleksində istifadəyə verilməsi nəzərdə tutulur.*

**Sərgi zamanı «Rossiya-24» televiziya kanalına müsahibə**

**M ü x b i r:** Cənab Prezident, müsahibə verdiyiniz üçün çox sağ olun. Azərbaycanda olmağımızdan çox məmnunuq. İcazənizlə, Sizinlə söhbətimizi rus dilində davam edək.

**İ l h a m Ə l i y e v:** Olar, buyurun. Azərbaycan dilində də çox gözəl danışırsınız.

**S u a l: İlk növbədə, demək istərdim ki, mən Azərbaycana birinci dəfə gəlmirəm və Bakıda həmişə nəyinsə dəyişdiyini görmək çox xoşdur. Siz inkişaf edirsiniz, nailiyyətlərlə kifayətlənmirsiniz. Bilmək istərdik, son zamanlar Azərbaycanda hansı innovasiyaları xüsusilə inkişaf etdirirsiniz? Mən bilirəm ki, siz təkcə neft sektorunu inkişaf etdirmirsiniz, həm də diqqəti qeyri-neft sektoruna yönəldirsiniz. Siz burada nəyi inkişaf etdirmək istərdiniz?**

**C a v a b:** Tamamilə doğrudur. Dünyada neftin qiymətinin artıb-azalmasından asılı olmayaraq, Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir. Buna görə də biznesə yaxşı şəraitin yaradılması məqsədilə infrastruktur layihələrinin inkişafı üçün çox iş görülür. Biznesin həvəsləndirilməsilə, sahibkarlara köməklə bağlı xeyli layihələr vardır. Bütövlükdə investisiya, biznes mühiti Azərbaycanda yaxşılaşır. Dünya Bankının son məlumatlarına, «Doing business» hesabatına görə Azərbaycan 25-ci yerdədir. Biz 1 il ərzində 32 pillə irəliləmişik və bu gün biznes sahəsində dünyanın aparıcı ölkələri sırasındayıq. Buna görə də burada təqdim olunmuş sahə həm biznes, həm innovasiya, həm də təhsil baxımından çox mühümdür. Bu bizim üçün prioritet olan sahələrdən biridir və təsadüfi deyil ki, 24 ildir belə bir sərgi keçiririk. İştirak edən şirkətlərin sayı ilbəil artır. Mənə dedilər ki, bu il iştirak edən şirkətlərin sayı 230-dur və çoxlu yerli Azərbaycan şirkətləri vardır. Yarıdan çoxu Azərbaycan şirkətləridir. Bu o deməkdir ki, ölkəni inkişaf etdirmək və yeni iş yerləri yaratmaq üçün biz bu istiqamətdə işləməyə hazırıq. Çünki neft sektoru iş yerləri yaratmır.

**M ü x b i r:** Həm də əbədi deyil.

**İ l h a m  Ə l i y e v:** Bəli, əlbəttə. Ona görə biz daim çalışmalıyıq ki, iş yerlərinin yaradılması iqtisadi inkişafın səviyyəsinə uyğun olsun. Azərbaycanda demoqrafik artımı nəzərə almaqla, biz çalışmalıyıq ki, dünyaya yeni gələn hər bir Azərbaycan vətəndaşı 20–30 ildən sonra işlə təmin edilmiş olsun.

**S u a l: Siz ölkənizdə turizmi inkişaf etdirmək niyyətindəsiniz. Bildiyimə görə, indi ən çox turist Rusiyadandır. Doğrudurmu?**

**C a v a b:** Bəli, birinci yerdə Rusiyadan gələn turistlərdir. İl hələ ki, yekunlaşmayıb, amma 800 mindən çox rusiyalı gəlib. Rusiyalılar inamla birinci yeri qoruyub saxlayırlar. Bizdə son 2 ildə turizmin artımı müşahidə edilib. 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz artım olub, bu il hələ ki, bilmirik, amma yenə də artım vardır. Turistləri ilk növbədə, burada özlərini təhlükəsiz hiss etdikləri şərait cəlb edir. Rusiyalılara gəlincə, düşünürəm ki, onlar özlərini evlərindəki kimi hiss edirlər. Burada dil səddi yoxdur, onlara münasibət çox yaxşıdır. Bizim ortaq tariximiz də mühüm rol oynayır.

**M ü x b i r:** Ləziz təamlarınız...

**İ l h a m Ə l i y e v:** Bəli, tamamilə doğrudur. Əlbəttə, təhlükəsizliyin, rahatlığın təmin olunması səviyyəsi, Azərbaycan xalqının qonaqpərvərliyi, tarixi abidələr, iqlim – yəni mən turistlərin Azərbaycana niyə gəldiklərinin səbəbləri barədə çox danışa bilərəm. Düşünürəm ki, rusiyalılar məni eşidəcəklər. Mən məmnunluqla onları ölkəmizə dəvət edirəm. Biz onların gəlişinə həmişə şadıq.

**M ü x b i r:** Müsahibəyə görə çox sağ olun.

* * *

*Sərgidə «Nafantano» şirkəti də iştirak edir. Bu şirkət artıq 3 ildir fəaliyyət göstərir. Azərbaycan şirkəti*

*olan «Nafantano» onlayn satış həyata keçirir. Şirkət qeyri-adi oyuncaq heyvanlar istehsal edir.*

*Tibdə rəqəmsal cərrahiyyə erası yüksək dəqiqlik tələb edən əməliyyatlarda xüsusi naviqasiya qurğularından istifadə edir. Azərbaycan Tibb Universitetində alim və mütəxəssislər qrupunun tədqiqatlarında bu sahədə rəqəmsal kompüter texnologiyalarının son nailiyyətlərinə hesablanmış «reallıq eynəkləri» istifadə olunur. Kompüter proqramı artırılmış «reallıq eynəkləri»ni istifadə etdikdə cərraha real görüntü ilə yanaşı, gözlə görünməyən anatomik strukturları aşkarlamağa imkan verir.İqtisadiyyat Nazirliyinin tabeliyində olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi də sərgidə təmsil olunur. Burada agentlik tərəfindən kiçik və orta sahibkarların hüquqlarının qorunması ilə bağlı müraciətlərə onlayn baxılması sistemi təqdim edilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə yaradılmış «Sahibkarlara dəstək sistemi» sahibkarların hüquqları ilə bağlı müraciətlərə baxılması və onların operativ həlli üçün onlayn platformadır. Məqsəd sahibkarların hüquq müdafiəsinin mükəmməl mexanizmlərinin tətbiqində səmərəliliyin yüksəldilməsi və çevikliyin artırılmasından ibarətdir.*

*«BakuTel» sərgisi gənc layihəçilərə öz ixtira və proqramları haqqında məlumat vermək üçün də geniş şərait yaradır. Sevindirici haldır ki, bu il sərgidə müxtəlif innovasiya mərkəzlərini təmsil edən rekord sayda – 50-dən artıq startap təmsil olunub. Startaplar öz parlaq innovativ ideyalarını turizm, ekologiya,*

*səhiyyə və maliyyə sektorları üçün təqdim edirlər. Məhsulların əsas hissəsi virtual və artırılmış reallıq texnologiyaları, veb-sayt və mobil tətbiqlərdir.*

*Belarusun pavilyonunda bu ölkənin şirkətləri innovativ məhsullarını təqdim edir. Ümumilikdə sərgidə Belarus Respublikasının Rabitə və İnformasiyalaşdırma Nazirliyi, «Beltelekom», «Belpoçta», «Giprosvyaz», Milli Elektron Xidmət Mərkəzi, Milli Nəqliyyat Mübadilə Mərkəzi, «Promsvyaz», İnformasiya Təhlükəsizliyi üzrə Tədqiqat İnstitutu, «Softvare Applied Systems Institute», Belarus Milli Telekommunikasiya İnstitutu və «Nevland» şirkəti iştirak edir.*

*Digər sərgilərdə olduğu kimi, budəfəki sərgidə də qardaş Türkiyə geniş təmsil olunur. Türkiyənin pavilyonu ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkədən «Ptt Turkish Post», «Türk Telekom International», «Turkcell», «Türksat» və «Havelsan» şirkətləri innovativ, müasir məhsullarını təqdim edir. Bu şirkətlər əsasən süni peyk, rəqəmsal ticarət, mobil operator xidmətləri üzrə ixtisaslaşıb və dünyada qabaqcıl İKT xidmətləri ilə seçilir.*

*İran da «BakuTel» sərgisinin iştirakçıları sırasındadır. İranın stendində «Telecommunications Infrastructure Company», «Iranian Space Agency», «Saymantech Ltd», «Nasim Telecom», «Samim Group», «Faraz», «Harita» və digər şirkətlər iştirak edir. Ümumilikdə İran bu sərgidə 25 şirkətlə təmsil olunur. Ziyarətçilərə əsasən internet və elektron cihaz xidmətləri, «Ağıllı şəhər» layihələri təklif edilir.*

*«BakuTel–2018»də ABŞ da təmsil olunur. Birləşmiş Ştatların stendində Azərbaycanda Amerika Ticarət Palatası ilə yanaşı, «American International Radio», «Inc. Air», «Avirtel», «Parallel Vireless», «Seabak» və «Transition Netvorks» şirkətləri məhsullarını təqdim edir.İtaliya pavilyonunda İtaliya–Azərbaycan Ticarət Palatası, «GAP İtaliya», «DBA Group» və «GEM Elettronica» şirkətləri məhsullarını təqdim edir. Təqdim olunan məhsullar arasında kibernetika, elektronika, rəqəmsal arxiv kimi bir sıra qabaqcıl texnologiyalar vardır.*

*Fransa pavilyonu ilə tanışlıq zamanı məlumat verildi ki, Azərbaycan–Fransa Ticarət və Sənaye Palatası ilə yanaşı, bu ölkədən «Linagora», «Schneider Electric» və «Thales» şirkətləri də sərgidə öz innovativ məhsullarını təqdim edir.Birləşmiş Ərəb Əmirlikləri də sərgidə təmsil olunur. Əmirliyin PROV və «Xerrov Technologies» şirkətlərinin məhsulları maraqla qarşılanır.4G texnologiyası əsasında genişzolaqlı mobil internet xidmətləri göstərən «Sazz» internet şirkəti sərgidə ən son texniki nailiyyətlərini təqdim edir. Şirkət yaxın vaxtlarda respublikamızda 5G texnologiyalarının tətbiqinə hazırlaşır. Yenilikçilik ənənələrinə sadiq qalan şirkət mobil internetin son texnologiyası TDD–LTE–ni də nümayiş etdirir. Bu xidmət  3 sahəni – simsiz televiziya, simsiz telefon və təhlükəsizlik kameralarını özündə birləşdirir.*

*1995-ci ildə yaradılmış «BestComp Group» şirkəti sistem inteqrasiyası, Data Mərkəzi həlləri, layihə həlləri, proqram təminatının yaradılması, distribusiya*

*və digər İT xidmətlərin göstərilməsi sahəsində Cənubi Qafqaz və Orta Asiyanın İKT sektorunun liderlərindən biridir. Şirkət dövlət və özəl sektorda əhəmiyyətli layihələrə imza atır.*

*Hazırda Bakı Beynəlxalq Avtovağzal Kompleksinin yardımçı sahəsində avtobusların, minik avtomobillərinin, taksilərin, həmçinin sərnişinlərin və turistlərin daha təhlükəsiz, rahat hərəkətinin təmin edilməsi məqsədilə nəqliyyat qovşağı inşa edilir. Bakı Beynəlxalq Avtovağzalı və Cisco şirkətinin birgə hazırladığı «Ağıllı şəhər» pilot layihəsi vasitəsilə yerli və beynəlxalq daşımaların idarə olunmasında nəqliyyat xidmətlərinin keyfiyyətinin artması, xərclərin azaldılması, o cümlədən təhlükəsizliyin yüksək səviyyədə təmin olunması nəzərdə tutulub. Bakı Beynəlxalq Avtovağzalının SAP şirkəti ilə birlikdə təqdim etdiyi «ağıllı jiletlər» sürücülərin səhhəti ilə bağlı məlumat verir, eyni zamanda, avtobusda yarana biləcək problemlər barədə onlayn rejimdə sürücünü dərhal xəbərdar edir.Azərbaycan Dövlət Reklam Agentliyinin stendi ilə tanışlıq zamanı məlumat verildi ki, agentlik açıq məkanda reklam daşıyıcılarının yerləşdirilməsi, onların üzərindəki reklamların hazırlanması və yayımlanması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən qurumdur. Stendə agentliyin bir çox xidmətləri, o cümlədən açıq məkanda reklam daşıyıcılarının elektron qeydiyyatı portalı, reklam daşıyıcılarının kənardan ölçmə cihazı və proqram təminatı, açıq məkanda reklam mühitinin monitorinq və analizini aparan cihaz və proqram təminatı təqdim*

*edilir.Sərgidə «Azərkosmos» ASC tərəfindən «Peyk layihələrimiz» barədə məlumat verilir. Bu stenddə «Azərspace-1» peykinin nailiyyətlərini əks etdirən infoqrafika, «Azərspace-2» peykinin tutumları vasitəsilə Azərbaycan Respublikasının 600 ucqar kənd məktəbinin peyk interneti ilə təmin olunmasına dair perspektiv layihənin məzmunu, «Azərsky» peyki tərəfindən əldə olunan təsvirlər vasitəsilə 2018-ci ildə həyata keçirilən «Azərbaycan Respublikasının meşələrinin monitorinqi layihəsi» və «Bitki örtüyünün xəritələşdirilməsi və məhsuldarlığın proqnozlaşdırılması» layihəsi haqqında məlumat verilir.Sərgidə «Huavei» şirkəti də məhsullarını təqdim edir. İKT sahəsindəki həllərin dünya üzrə tədarükçüsü olan «Huavei» müştərilərin tələblərinə müvafiq olaraq, fasiləsiz innovasiyaların yaradılması istiqamətində çalışır, telekommunikasiya şəbəkələri, korporativ şəbəkələr, abonent qurğuları və «bulud» hesablamaları sahəsində tərəfdaşlarla yeni əməkdaşlıq imkanları yaradır.*

*«Microsoft» korporasiyası da artıq çoxdandır ki, sərgidə fəal iştirak edir. 1975-ci ildə təsis olunmuş bu şirkət proqram təminatı istehsalında dünya lideridir. Korporasiya geniş çeşidli proqram məhsulları hazırlayır və istehsal edir. Ümumilikdə şirkət İT texnologiyası ilə bağlı ən müasir həll variantlarını nümayiş etdirir. Şirkət ölkəmizdə 2005-ci ildən fəaliyyət göstərir.*

*Rəqəmsal sahəni təşkil edən texnologiyaların nümayiş olunması və müzakirəsi ilə yanaşı, «BakuTel» həm də yüksək texnologiyaların tətbiqi ilə əyləncəli*

*məhsulların təqdim edildiyi nadir platformadır. Bu il burada «3D Production» şirkətinin rəqəmli muzey layihəsi də həyata keçirilibdir.*

*Bu il oyun zonasında «Yüksəklik» kompüter oyunu, milli nağıl qəhrəmanları, «Külək» virtual nağılları da təqdim edilir. Oyun zonasında Azərbaycanın görməli yerlərini çap edəcək 3D printerlər və dronların şousu da nümayiş olunur. Azərbaycanın milli brendi Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyası məktəblilərin dərsdənkənar elmi yaradıcı potensialını inkişaf etdirmək üçün «Mən pilotam» adlı layihəsini təqdim edir.Sonra Prezident İlham Əliyev məşhur futbolçu, fransız Robert Pireslə görüşdü. Robert Pires 1998-ci ildə dünya çempionu, 2000-ci ildə isə Avropa çempionu olub. «Arsenal» komandasının liderlərindən olan Pires, həmçinin İngiltərə kubokunun qalibi və İngiltərə çempionudur. FİFA-nın 2000-ci il reytinqinə görə o, dünyanın ən yaxşı 100 futbolçusundan biri olub. O həmçinin gələn il Bakıda keçiriləcək Avroliqa finalının səfiridir.*

*Qeyd edək ki, sərgidə ilk dəfə olaraq, alman alimlərinin ixtirası olan ultra-modern texnologiyası əsasında «RoboKeeper» təqdim olunur. Bu, dünyanın ən sürətli qapıçısı hesab edilir. Hətta bir çox məşhur dünya futbol ulduzları da bu qapıçını məğlub edə bilmir. Robert Pires Prezident İlham Əliyevə Avroliqanın rəsmi topunu təqdim etdi.*

*Sərgi çərçivəsində Azərbaycanda poçt rabitəsinin 200 illik yubileyinə həsr olunmuş muzey də fəaliyyət göstərir.*

## TÜRKİYƏ RESPUBLİKASININ NƏQLİYYAT VƏ İNFRASTRUKTUR NAZİRİ MƏHMƏT CAHİT TURHANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur naziri Məhmət Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Məhmət Cahit Turhanın XXIV «BakuTel» Azərbaycan Beynəlxalq telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisində böyük heyətlə iştirakından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən nəqliyyat və infrastruktur sahələrində uğurla inkişaf etdiyini bildirdi. Nəqliyyat sahəsində əməkdaşlığımıza toxunan dövlət başçısı ölkələrimizin birgə həyata keçirdiyi layihələrdən danışaraq, ötən il istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin təkcə regionda deyil, daha geniş məkanda böyük önəm daşıdığını vurğuladı. Dövlət başçısı ölkələrimizin rabitə sahəsində də birgə işbirliyi apar-*

*dığını, Türkiyə şirkətlərinin bu sahədə uzun illər fəaliyyət göstərdiyini və rabitə sahəsində əməkdaşlığımızın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu bildirdi.*

*Nazir Məhmət Cahit Turhan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanla Türkiyə arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu vurğulayan qonaq Azərbaycanda bütün sahələrdə, o cümlədən infrastruktur və şəhərsalmada böyük inkişafın şahidi olduğunu qeyd etdi. Məhmət Cahit Turhan bildirdi ki, ulu öndər Heydər Əliyevin ifadəsi ilə desək, Azərbaycanla Türkiyə «bir millət – iki dövlət»dir və Azərbaycanın əldə etdiyi uğurlar Türkiyədə böyük sevinclə qarşılanır. Türkiyəli nazir Azərbaycanla Türkiyənin bundan sonra da birgə uğurlu layihələr həyata keçirəcəyini məmnunluqla qeyd etdi.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MƏHƏMMƏD CAVAD AZƏRİ CƏHROMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Məhəmməd Cavad Azəri Cəhrominin XXIV «BakuTel» Azərbaycan Beynəlxalq telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisində iştirakından və İranın bu tədbirdə geniş sayda şirkətlərlə təmsil olunmasından məmnunluğunu bildirdi. Sərginin ənənəvi olaraq keçirildiyini qeyd edən Prezident İlham Əliyev burada İran şirkətlərinin daim iştirak etdiyini vurğuladı. Azərbaycanla İranın müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları sahəsində yaxşı əməkdaşlıq həyata keçirdiyini söyləyən dövlət başçısı müntəzəm qarşılıqlı səfərlərin, eləcə də nazirlər səviyyəsində təmasların yaxşı səviyyədə olduğunu diqqətə çatdırdı. Dövlət*

*başçısı İKT sahəsində həm ikitərəfli səviyyədə, həm də regional çərçivədə əməkdaşlıq üçün yaxşı imkanların açıldığını qeyd etdi.*

*Qəbula görə minnətdarlığını bildirən İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi ölkələrimiz arasında İKT sahəsində yaxşı əməkdaşlığın həyata keçirildiyini vurğuladı. O, əməkdaşlığın təkcə ikitərəfli səviyyədə deyil, eləcə də İran, Azərbaycan, Türkiyə, Rusiya səviyyəsində genişləndirilməsi üçün səmərəli müzakirələrin aparıldığını nəzərə çatdırdı. Məhəmməd Cavad Azəri Cəhromi keçən il Azərbaycan Prezidenti ilə görüşündən ötən dövr ərzində əməkdaşlığın genişləndirilməsi və layihələrin icrası ilə bağlı çoxlu işlərin görüldüyünü məmnunluqla qeyd etdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın MÜDAFİƏ NAZİRİ MÜAVİNİNİN MÜŞAVİRİ LAURA KUPERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının Müdafiə naziri müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycanla ABŞ arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev qarşılıqlı səfərlərin, o cümlədən ABŞ Prezidentinin Milli Təhlükəsizlik Məsələləri üzrə müşaviri Con Boltonun və digər rəsmilərin Azərbaycana səfərlərinin münasibətlərimizin inkişafındakı rolunu qeyd etdi. Müdafiə sahəsində əməkdaşlığın məmnunluq doğurduğunu söyləyən dövlət başçısı enerji təhlükəsizliyi məsələlərinin də ikitərəfli münasibətlərimizin inkişafında böyük önəm daşıdığını bildirdi, bu baxımdan ABŞ Hökumətinin və şəxsən ABŞ Prezidentinin «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasına verdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Respublika Günü və enerji sahəsində əməkdaşlıq mövzusunda ABŞ Prezidentinin ünvanladığı məktubların da əhəmiyyətini qeyd etdi.*

*Dövlət başçısı NATO çərçivəsində əlaqələrin inkişafından məmnunluğunu bildirərək, NATO-nun mənzil-qərargahına son uğurlu səfərini bu təşkilatla əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Əfqanıstandakı sülhməramlı əməliyyatlarda ölkəmizin iştirakı və orada «Qətiyyətli dəstək» missiyasinda hərbçilərimizin sayının artırılması Azərbaycanın bu ölkədə ümumi sülhyaratma səylərinə verdiyi töhfəsini nümayiş etdirir. Azərbaycanın etibarlı və sabit tərəfdaş olduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin, həmçinin ikitərəfli əsasda da Əfqanıstanda həyata keçirilən quruculuq işlərinə öz töhfəsini, xüsusilə «ASAN xidmət» təcrübəsinin Əfqanıstanda da tətbiqinə dəstək verdiyini bildirdi.*

*Azərbaycan Prezidenti İlham Əliyev xanım Laura Kuperin səfərinin və ölkələrimiz arasında müdafiə sahəsində məsləhətləşmələrin əməkdaşlığımızın inkişafına əlavə təkan verəcəyinə ümidvar olduğunu vurğuladı. Ölkəmizə səfərinin Azərbaycanla ABŞ arasında müdafiə sahəsində əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrinin genişlənməsinin davam etdirilməsi məqsədini daşıdığını nəzərə çatdıran xanım Laura Kuper qeyd etdi ki, Amerika Birləşmiş Ştatlarının rəhbərliyi Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verir. O, Azərbaycanla ABŞ arasında terrorizm, kütləvi qırğın silahları və narkotik maddələrin yayılmasının qarşısının alınması və ümumilikdə təhlükəsizlik sahəsində əməkdaşlığı, Azərbaycanın Əfqanıstanda həyata keçirilən*

*sülhyaratma missiyasına dəstəyini və tranzit daşımaları üçün yaratdığı imkanları yüksək qiymətləndirdi.*

## XALQ RƏSSAMI TAHİR SALAHOVA 1-ci DƏRƏCƏLİ «ƏMƏK» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*5 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Azərbaycanın və SSRİ Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova 1-ci dərəcəli «Əmək» ordenini təqdim etmişdir.*

*Prezident İlham Əliyev Tahir Salahovun 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunduğunu, onun hələ əvvəlki dövrlərdə Sosialist Əməyi Qəhrəmanının «Qızıl Ulduz»una da layiq görüldüyünü vurğuladı. Dövlət başçısı 1-ci dərəcəli «Əmək» ordeninin müxtəlif sahələrdə görkəmli xidmətlərə görə verildiyini bildirdi. Tahir Salahovun müasir təsviri incəsənətin inkişafındakı rolunun bütün ictimaiyyət, xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini qeyd edən Prezident İlham Əliyev 1998-ci ildə ulu öndər Heydər Əliyevin Tahir Salahovu «İstiqlal» ordeni ilə təltif etdiyini vurğuladı. Dövlət başçısı 2008-ci ildə ona Azərbaycanın ən yüksək ordeni olan «Heydər Əliyev» ordenini və 2015-ci ildə «Heydər Əliyev mükafatı»nı təqdim etdiyini bildirdi. Bu gün isə dünya şöhrətli rəssama «Əmək» ordeninin təqdim olunduğunu*

*söyləyən Prezident İlham Əliyev özünün təşəbbüsü ilə yaradılan və üç dərəcəsi olan bu ordenin nisbətən yeni orden olduğunu və müxtəlif sahələrdə fəaliyyət göstərən görkəmli şəxslərə verildiyini bildirərək, Tahir Salahovun birbaşa 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif olunduğunu vurğuladı. Tahir Salahovun Azərbaycan xalqının görkəmli oğlu olduğunu, həmişə öz sənəti ilə Vətənə sədaqətlə xidmət etdiyini, Azərbaycanı, xalqımızın istedadını, incəsənətimizi təbliğ etdiyini və bütün dünyada bizi təmsil etdiyini deyən Prezident İlham Əliyev Tahir Salahovun ulu öndər Heydər Əliyevlə şəxsi münasibəti və dostluğunun olduğunu bildirdi. Bu səmimi və çox möhkəm dostluğun hələ Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbərlik etməzdən xeyli əvvəl başladığını vurğulayan dövlət başçısı Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən istefa verəndən sonrakı ağır illərdə, səhhətində problemlər yarandığı vaxtlar məhz Tahir Salahovun onun yanında olduğunu deyərək, onların Moskvadakı söhbətlərini, görüşlərini xatırlatdı və bütün bunların Heydər Əliyev üçün böyük mənəvi dəstək olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, həmin zamanlarda vaxtilə Heydər Əliyevin kömək etdiyi, irəliyə çəkdiyi insanlar kənara çəkilmişdilər, ən yaxşı halda susurdular, bəziləri isə onun əksinə çıxış edirdilər. Hər şeyə, dünya şöhrətinə özü nail olan Tahir Salahov isə ulu öndərin yanında idi. Dövlət başçısı bunun çox qiymətli olduğunu və heç vaxt unudulmayacağını vurğuladı. Prezident İlham*

*Əliyev illər keçdikdən sonra ona yenidən yüksək mükafatı təqdim etməkdən şad olduğunu bildirdi.*

*Sonra dövlət başçısı İlham Əliyev 1-ci dərəcəli «Əmək» ordenini Tahir Salahova təqdim edərək, təbriklərini çatdırdı.*

*Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahov yüksək mükafata görə təşəkkürünü bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman öz işini sevən, qeyri-adi, istedadlı bir şəxsiyyət olduğunu deyən Tahir Salahov həyat yolunda onunla dostluq münasibətlərindən böyük xoşbəxtlik duyduğunu söylədi. «Bizi incəsənət birləşdirmişdi» – deyən Tahir Salahov ulu öndər Heydər Əliyevin hər zaman incəsənətə və sənət adamlarına xüsusi qayğı ilə yanaşdığını, onun bu sahə ilə bağlı çıxışlarının bütün incəsənət xadimlərində xoş təəssürat yaratdığını vurğulayaraq qeyd etdi ki, ulu öndərin həssaslığı, mərdliyi onu heyrətləndirirdi. Belə bir şəxsiyyətlə işləmək, görüşmək onun üçün böyük xoşbəxtlik idi. Tahir Salahov Prezident İlham Əliyevin Azərbaycan mədəniyyətinə və incəsənətinə həmişə böyük qayğı və diqqət göstərdiyini vurğuladı və onun sənətinə verdiyi yüksək qiymətə və mükafata görə dövlət başçısına minnətdarlığını bildirdi.*

## AVSTRİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BERND ALEKSANDR BAYERL İLƏ GÖRÜŞ

*5 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Bernd Aleksandr Bayerl Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Bernd Aleksandr Bayerl etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycanla Avstriya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini bildirdi. Münasibətlərin inkişafında qarşılıqlı səfərlərin önəminə toxunan Prezident İlham Əliyev özünün Avstriya Respublikasına, Avstriyanın Federal Prezidenti Hayntz Fişerin isə Azərbaycana səfərlərini məmnunluqla xatırlatdı. Siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edən dövlət başçısı iqtisadi sahədə, o cümlədən ticarət, investisiya*

*sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanda uğurla fəaliyyət göstərən Avstriya şirkətlərinin sayının artdığını vurğuladı. Dövlətimizin başçısı Bernd Aleksandr Bayerlin diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Bernd Aleksandr Bayerl Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurtsun salamlarını və Avstriya hökumətinin ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Bakıda diplomatik fəaliyyətə başlamasından məmnunluq hissi keçirdiyini qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi və xanımı Mehriban Əliyevanın fəal iştirakı ilə Bakıda yüksək zövqlə həyata keçirilən abadlıq və quruculuq işlərinin onda dərin təəssürat bağışladığını bildirdi. Bernd Aleksandr Bayerl səfir fəaliyyəti dövründə əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini söylədi.*

*Dövlətimizin başçısı Avstriyanın Federal Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Avstriyanın Federal Kanslerinə və Avstriya hökumətinə çatdırmağı xahiş etdi.*

## KOREYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ KİM TONQ OP İLƏ GÖRÜŞ

*5 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kim Tonq Opun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Kim Tonq Op Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Kim Tonq Op etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı ölkələrimiz arasında çox yaxşı əlaqələrin mövcud olduğunu və birgə səylərlə iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsinin və ticarət dövriyyəsinin artırılmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev Koreya Respublikasına dövlət səfərini məmnunluqla xatırlatdı və bu səfərin ikitərəfli münasibətlərimizin genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı. Dövlət başçısı Azərbaycanda bir sıra Koreya şirkətlərinin sənaye, nəqliyyatın idarəedilməsi, şəhərsalma, arxitektura və digər sahələrdə uğurlu fəaliyyət göstərdiklərini bildirərək, kənd təsərrüfatı, ekologiya, təhsil, peşə ixtisasartırma*

*kimi sahələrdə də əməkdaşlıq üçün əlverişli imkanların olduğunu nəzərə çatdırdı. Prezident İlham Əliyev şərq–qərb marşrutu üzrə yükdaşımalar istiqamətində Azərbaycanın müasir nəqliyyat infrastrukturunu və tranzit potensialını nəzərə alaraq, Koreya tərəfinin də bu imkanlardan istifadə edə biləcəyini qeyd etdi.*

*Koreya Respublikasının ölkəmizə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kim Tonq Op Koreya Respublikasının Prezidenti Mun Ce-inin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə etdi. Səfir ölkələrimiz arasında dostluq əlaqələrinin və iqtisadi-ticarət sahəsində əməkdaşlığın daha da artırılması üçün səylərini əsirgəməyəcəyini bildirdi.*

*Dövlətimizin başçısı Prezident Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XEYRULLAH SPELENAY İLƏ GÖRÜŞ

*5 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Xeyrullah Spelenay Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xeyrullah Spelenay etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycanla Əfqanıstan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani ilə dəfələrlə görüşdüyünü məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini bildirdi, ölkələrimizin iqtisadi, humanitar və digər sahələrdə də əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycanın Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verdiyini və Əfqanıstanda xidmət edən Azərbaycan hərbi qulluqçularının sayının artırıldığını qeyd etdi. Əf-*

*qanıstanda sülhün və təhlükəsizliyin bütün region üçün vacib olduğunu deyən dövlət başçısı Azərbaycanın «ASAN xidmət» təcrübəsinin bu ölkədə uğurla tətbiq olunmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizdə yaradılmış müasir nəqliyyat infrastrukturunun imkanlarına toxunaraq, Əfqanıstanın da şərq–qərb marşrutu üzrə Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə birləşdirən dəmir yolu layihələrindən faydalana biləcəyini bildirdi.*

*Səfir Xeyrullah Spelenay Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu olduğunu qeyd edən səfir Azərbaycanla Əfqanıstan arasında ənənəvi dostluğun daha da inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırdı. Səfir Azərbaycanın Əfqanıstanda sülhə və təhlükəsizliyə verdiyi töhfəsinə və ikitərəfli əsasda ölkəsinə müxtəlif sahələrdə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın uğurlu inkişaf yolu keçdiyini qeyd edərək, ölkəmizin inkişaf təcrübəsinin Əfqanıstan üçün xüsusilə vacib olduğunu diqqətə çatdırdı. Xeyrullah Spelenay Əfqanıstanın şərq–qərb marşrutu üzrə Azərbaycanın nəqliyyat imkanlarından istifadə edərək, yükdaşımaların həyata keçirilməsində ölkəsinin maraqlı olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Prezident Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ ABŞ-ın 41-ci PREZİDENTİ CORC HERBERT UOKER BUŞUN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*5 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinə gələrək, ABŞ-ın 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı vermişdir.*

*Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki müvəqqəti işlər vəkili Vilyam Gill Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlətimizin başçısı Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdı.*

*President İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill ilə söhbət etdi və ona başsağlığı verdi. Dövlətimizin başçısı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərin yaradılmasında və inkişafında mərhum President Corc Buşun rolunu xüsusi vurğuladı. President İlham Əliyev mərhum President Corc Buşun ulu öndər Heydər Əliyevlə yaxın münasibətlərini, vaxtilə onun*

*Heydər Əliyevi öz evində qəbul etməsini xatırlatdı, bunun çox vacib və unudulmaz bir görüş olduğunu söylədi. Ulu öndərin ona göstərilmiş hörmətdən, səmimi görüşdən çox təsirləndiyini bildirdi. Dövlətimizin başçısı 2004-cü ildə keçirilmiş Afina Yay Olimpiya oyunlarının açılışı mərasimi ilə əlaqədar təşkil olunmuş qəbulda mərhum Corc Buşla görüşdüyünü və onunla söhbət etdiyini yada saldı.*

*Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill Prezident İlham Əliyevin səfirliyə gəlməsindən böyük şərəf duyduğunu bildirdi. O qeyd etdi ki, Corc Buş Azərbaycanın müstəqilliyini tanıyan və ölkəmizlə diplomatik münasibətlər quran Amerika Birləşmiş Ştatlarının Prezidenti kimi, ölkələrimiz arasında güclü münasibətlərin təməlini qoyubdur.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*Sankt-Peterburq*

*6 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiyaya işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Sankt-Peterburq şəhərində Pulkovo-1 Beynəlxalq Aeroportunda şəhərin vitse-qubernatoru Nikolay Bondarenko, Xarici Əlaqələr Komitəsinin nazir statuslu sədri Yevgeni Qriqoryev və digər rəsmi şəxslər qarşıladılar.*

*Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Prezident kitabxanasına gəldi.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycan və Rusiya prezidentləri birgə foto çəkdirdilər.*

*Daha sonra MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirildi.*

*Görüşdən sonra MDB dövlət başçılarının qeyri-rəsmi naharı oldu.*

*Dövlət başçıları Sankt-Peterburq Dövlət Akademik Mariinski Teatrında Pyotr Çaykovskinin «Şelkunçik» baletinə baxdılar.*

*Bununla da Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri başa çatdı.*

**BURKİNA-FASONUN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ROK MARK
KRİSTİAN KABOREYƏ**

Hörmətli cənab Prezident!

Burkina-Fasonun milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 dekabr 2018-ci il*

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UHURU KENYATTAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Keniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 dekabr 2018-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ MEŞƏÇİLİK NAZİRİ BƏKİR PAKDƏMİRLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik naziri Bəkir Pakdəmirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bəkir Pakdəmirlini Kənd Təsərrüfatı və Meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək, onun ilk dəfə nazir kimi Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu söylədi. Kənd təsərrüfatının inkişafına ölkəmizdə böyük önəm verildiyini diqqətə çatdıran dövlət başçısı bunun iqtisadiyyatın şaxələndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Türkiyənin kənd təsərrüfatı sahəsində əldə etdiyi uğurların və təcrübənin Azərbaycan üçün böyük maraq doğurduğunu bildirdi. Dövlətimizin başçısı Bəkir Pakdəmirlinin Bakıda*

*aqrar və yaşıl texnologiyalar üzrə «AgTech and Green Energy» mövzusunda keçirilən beynəlxalq forumda iştirakının əhəmiyyətini vurğuladı və onun Azərbaycana bu səfərinin əməkdaşlığın perspektivlərinin səmərəli müzakirəsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Kənd Təsərrüfatı və Meşəçilik naziri Bəkir Pakdəmirli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Bakıda aqrar və yaşıl texnologiyalar üzrə «AgTech and Green Energy» mövzusunda keçirilən beynəlxalq forumun əhəmiyyətinə toxunaraq, ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini və nümayəndə heyətinin tərkibinə kənd təsərrüfatı və qida sənayesi sahəsində fəaliyyət göstərən iş adamlarının da daxil olduğunu bildirdi.*

*Söhbət zamanı kənd təsərrüfatı sahəsində çalışan Azərbaycan və Türkiyə iş adamlarının dekabrın 11-də Bakıda birgə biznes-forumun keçiriləcəyi və bunun əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətli olacağı vurğulandı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ ARKADİ DVORKOVİÇ İLƏ GÖRÜŞ

*10 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Arkadi Dvorkoviçi qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Arkadi Dvorkoviçi Beynəlxalq Şahmat Federasiyasının prezidenti kimi yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Arkadi Dvorkoviçin bu vəzifəyə seçilməsindən sonra qısa bir zaman ərzində Azərbaycana səfərinin önəmini qeyd edərək, bunu ölkəmizin şahmat ənənələrinə diqqət və hörmət əlaməti kimi dəyərləndirdi. Dövlət başçısı Arkadi Dvorkoviçin səfəri zamanı Azərbaycanla FİDE arasında əməkdaşlığın perspektivləri, ölkəmizin dünya şahmat ailəsində fəal iştirakı və qarşılıqlı fəaliyyəti ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu söylədi.*

*Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu*

*dedi. O, ölkəmizin FİDE-yə verdiyi dəstəyi yüksək qiymətləndirərək, bunun təşkilatın fəaliyyətində daim hiss olunduğunu vurğuladı. Arkadi Dvorkoviç eyni zamanda, Azərbaycan nümayəndəsinin FİDE-nin vitse-prezidenti vəzifəsinə seçilməsinin əhəmiyyətini qeyd etdi.*

*Görüşdə Azərbaycanda idmana, o cümlədən şahmata dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi vurğulandı.*

*Söhbət zamanı Arkadi Dvorkoviç «Skolkovo» Fondunun sədri kimi, rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığa önəm verdiyini, artıq telekommunikasiya sahəsində birgə işlərin aparıldığını və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

## İRAN İSLAM RESPUBLİKASI SƏRHƏD QOŞUNLARININ KOMANDANI QASIM RZAYİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən sərhədlərin mühafizəsi ilə bağlı əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev iki ölkə vətəndaşlarının, iş adamlarının gediş-gəlişinin, yükdaşımaların həyata keçirildiyini vurğulayaraq, İran–Azərbaycan sərhədini dostluq sərhədi kimi dəyərləndirdi. Ölkələrimizin sərhəd xidməti rəhbərlərinin görüşünün önəmini qeyd edən dövlətimizin başçısı İran–Azərbaycan əlaqələrinin inkişafında Sərhəd Qoşunları xidmətlərinin əməkdaşlığının mühüm yer tutduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin ölkəmizə səfərinin əməkdaşlı-*

*ğımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı Qasım Rzayi ölkəmizlə bağlı xoş hisslərini ifadə edərək, Prezident İlham Əliyevə yorulmaz fəaliyyətində uğurlar arzuladı. O, Azərbaycan Respublikasının Prezidenti ilə yenidən görüşməkdən, dövlət başçısının iki ölkə arasında əlaqələrin inkişafı ilə bağlı tövsiyələrini və dərinmənalı fikirlərini eşitməkdən məmnunluq hissi keçirdiyini və Bakıya səfərlərinin onlarda xoş xatirələr doğurduğunu bildirdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## NATO MÜTTƏFİQ QÜVVƏLƏRİNİN AVROPADAKI BAŞ KOMANDANI KÖRTİS SKAPARROTTİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrottinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanın NATO ilə tərəfdaşlığının uzun tarixə və geniş gündəliyə malik olduğunu deyən dövlət başçısı bu ilin iyul ayında NATO-nun mənzil-qərargahına son səfərini və Brüsseldə keçirilmiş Zirvə toplantısında iştirakını xatırlatdı və bunun əlaqələrimizin inkişafına müsbət təsir göstərdiyini qeyd etdi. Dövlət başçısı ümumilikdə NATO-nun mənzil-qərargahına etdiyi bütün səfərlərin müsbət xarakter daşıdığını nəzərə çatdırdı. Prezident İlham Əliyev NATO-nun Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasında ölkəmizin fəal iştirak etdiyini, Azərbaycan hərbçilərinin sayının artırıldığını və əməliyyatlarda iştirak edən dövlətlərə zəruri nəqliyyat və logistik dəstək göstərildiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın ikitərəfli əsasda da Əfqanıstana dəstək göstərdiyini, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat layihələrinin Əfqanıstan üçün yeni imkanlar yaratdığını vurğuladı. Dövlət başçısı NATO-*

*nun yüksək səviyyəli nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli tərəfdaşlığın gündəliyində duran vacib məsələlərin müzakirəsi üçün əlverişli imkan yaratdığını dedi.*

*NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti onu və rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyinə və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə dekabrın 12-də Bakıda keçirilməsi nəzərdə tutulan görüşə ev sahibliyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Bakının NATO–Rusiya formatında görüşünün keçirilməsi üçün tam münasib məkan olduğunu, Azərbaycanın artıq ikinci dəfədir ki, belə bir tədbirə ev sahibliyi etməsinin əhəmiyyətini vurğuladı. Qonaq Azərbaycanın NATO-nun etibarlı və fəal tərəfdaşı olduğunu qeyd etdi, ölkəmizin Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasına verdiyi töhfəsini, Azərbaycan hərbçilərinin Əfqanıstanda, eləcə də peşəkarlıqla NATO qərargahlarında xidmətini və NATO-nun təlimlərində iştirakını yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev qlobal təhlükəsizliyə aid olan vacib məsələlərin müzakirə edilməsi üçün bir çox ölkələr arasından Azərbaycanın seçilməsini ölkəmizə olan hörmət və etimadın təzahürü kimi dəyərləndirdi və bunun eyni zamanda, ölkəmizin regional təhlükəsizlik, inkişaf və sabitliyin təmin edilməsində oynadığı rolun və yürütdüyü siyasətin göstəricisi olduğunu bildirdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2018-ci il*

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri dekabrın 12-də Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmişlər.*

*Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Milli Məclisin üzvləri, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlət başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.*

*Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.*

*İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaqdır.*

*Ulu öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub*

*yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.*

*«Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur» – deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də «Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan» – deyə onu Moskvaya dəvət etdilər. Amma burada o həm də onu gözü götürməyən məkrli «qorbaçovlar»ın xəyanətinə tuş gəldi və Vətəninə qayıtdı. Bu qayıdış isə daha möhtəşəm oldu. Ulu öndər xalqımızı öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Uzaqgörən, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında, xalqının xilaskarına çevrildi.*

*Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin «qızıl» dövrünə çevrildi. Türk dünyasının bu*

*böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri özünə layiq siyasi varisin yetişdirilməsi idi. Heydər Əliyev öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi. Bu şəxsiyyət ulu öndərin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevdir.*

## RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİN BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Rusiya Federasiyası Silahlı Qüvvələrin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Rusiya ilə NATO-nun yüksək hərbi rəhbərliyi arasında görüşün keçirilməsi üçün Bakının seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu bizim ölkəyə hörmətin, etimadın göstəricisidir və bir daha Azərbaycanın dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edən mühüm beynəlxalq tədbirlərin müntəzəm olaraq keçirildiyi məkana çevrildiyini göstərir. Azərbaycan bunu yüksək qiymətləndirir. Dövlətimizin başçısı Rusiya Silahlı Qüvvələrin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin səfərinin eyni zamanda, Azərbaycan–Rusiya əlaqələri ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını qeyd etdi. İkitərəfli münasibətlərimizin bütün sahələrdə, o*

*cümlədən hərbi sahədə çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini nəzərə çatdıran Prezident İlham Əliyev yüksək səviyyədə keçirilən görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını bildirdi. Təkcə bu il Azərbaycan və Rusiya dövlət başçıları arasında çoxsaylı görüşlərin keçirildiyini vurğulayan Prezident İlham Əliyev Sankt-Peterburqda Rusiya Prezidenti ilə görüşünü məmnunluqla xatırlatdı. Dövlət başçısı bu il eyni zamanda, ölkələrimiz arasında xeyli sayda sazişlərin və sənədlərin imzalandığını vurğulayaraq, qarşılıqlı fəaliyyət səviyyəsinin daha da yüksəldilməsi məqsədilə ölkələrimiz tərəfindən əldə olunmuş razılıqların icra edilməsinin önəmini qeyd etdi və buna nail olunduğunu bildirdi. Rusiya ilə Azərbaycanın dostluq münasibətlərinin tarixi sınaqlardan çıxdığını söyləyən Prezident İlham Əliyev bu gün ölkələrimizin etibarlı tərəfdaş olduğunu, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın yüksək səviyyəyə qalxdığını və Valeri Gerasimovun ölkəmizə səfərinin bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Silahlı Qüvvələrin Baş Qərargah rəisi Valeri Gerasimov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günündə dövlət başçısı ilə görüşünü yüksək qiymətləndirdi. O, ulu öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət və xatirələrini ehtiramla yad edəcəklərini vurğuladı. NATO və ABŞ nümayəndələri ilə artıq bir neçə dəfədir ki, Bakıda gö-*

*rüşdüklərini qeyd edən Valeri Gerasimov paytaxtımızın bunun üçün çox münasib bir məkan olduğunu və belə görüşlər üçün hər cür şəraitin yaradıldığını vurğuladı.*

*İkitərəfli münasibətlərə toxunan Rusiya Silahlı Qüvvələrin Baş Qərargah rəisi Valeri Gerasimov əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ankarada baş vermiş dəmir yolu qəzası nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2018-ci il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Qazaxıstan müstəqillik illərində hərtərəfli və sabit inkişaf yolu ilə irəliləyərək, dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin iqtisadi tərəqqisi, xalqın rifahının yaxşılaşdırılması sahəsində mühüm uğurlar qazanıbdır. Ölkəniz beynəlxalq və regional təşkilatlarda fəal rola və nüfuza malikdir.

Əminəm ki, Azərbaycan ilə Qazaxıstan arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı bundan sonra da ortaq tarixi köklərə, milli-mənəvi dəyərlərə malik xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Nursultan Abişeviç, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2018-ci il*

**BƏHREYN KRALI ƏLAHƏZRƏT**
**ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Bəhreyn əlaqələri daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2018-ci il*

## 2018-ci İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK

*Milli Olimpiya Komitəsi*

*13 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev dekabrın 13-də Milli Olimpiya Komitəsində keçirilən 2018-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə iştirak etmişdir.*

*Dövlət başçısı tədbirdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, 2018-ci il sona yaxınlaşır. Hər il idmançılarla görüş zamanı biz ilin idman yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. 2018-ci il ölkəmiz üçün çox uğurlu il olubdur. Bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə edibdir.

Dünyada isə, bildiyiniz kimi, 2018-ci ildə bir çox təhlükəli proseslər gedib və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşibdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr, demək olar ki, 2018-ci ilin mənzərəsini əks etdirir.

Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilib. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir. Əlbəttə, biz dünyada gedən prosesləri izləyirik. Biz bu proseslərə biganə qala bilmərik. Çünki həm Avropada, həm bizim regionumuzda, həm də Yaxın Şərqdə gedən proseslər narahatlıq doğurur.

Bildiyiniz kimi, bu il Ermənistanda çox ciddi dəyişikliklər baş veribdir. 20 il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı da deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edib və bu rejimin acı sonu məntiqə tam uyğundur. Onu da deməliyəm ki, bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynayıbdır. Çünki bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olmuşuq.

Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib. Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni bütün bu və

başqa amillər, əlbəttə, o cümlədən bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salıbdır.

İşğal edilmiş torpaqlarımızın bir hissəsinin 2 il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə oldu. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq, sıradan çıxdı. Yəni bu bizim qonşuluğumuzda baş vermiş hadisələrdir. Əlbəttə, hesab edirəm ki, bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə, bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqemiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq, sözdə deyil. Beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqemizi əks etdirən bir çox qərar və qətnamələri olub. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqemizi əks etdirərək, öz həllini tapıb. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapıbdır. İkitərəfli

imzalanmış sənədlərdə daim bizim mövqemiz öz əksini tapır. Mən deyəndə ki, bizim beynəlxalq nüfuzumuz artır, bunu nəzərdə tuturam. Eyni zamanda, Azərbaycan xalqı yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqemiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur.

Dünən Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin növbəti görüşü oldu. Bu, birinci görüş deyil. Bundan əvvəl Amerika və Rusiya Baş Qərargah rəislərinin Bakıda görüşü olmuşdur. NATO–Rusiya hərbi rəhbərlərinin görüşü də mütəmadi olaraq Azərbaycanda keçirilir. Bu çox əlamətdar hadisədir. Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkə var və bu ölkələr arasında bu görüş məhz Azərbaycanda keçirilir. Avropada 50-yə yaxın ölkə var, ancaq bu görüş Azərbaycanda keçirilir. Nəyə görə? Bunun bir neçə səbəbi vardır. İlk növbədə, bizə olan inam. Azərbaycan çox etibarlı tərəfdaşdır, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, verdiyimiz hər bir sözə əməl edirik və sözümüzün arxasında dayanırıq. Digər tərəfdən, bizə olan hörmət. Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət vardır. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi, özümüzü təsdiq edə bilmişik. Hesab edirəm ki, bu, ikinci səbəbdir. Üçüncü səbəb ondan ibarətdir ki, həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz vardır. Rusiya ilə strateji tərəfdaşlıq əlaqələrimiz gündən-günə güclənir. NATO ilə bir çox proqramlar əsasında işləyirik, Əfqanıstana sülhmə-

ramlı əməliyyatların keçirilməsi üçün böyük dəstək oluruq, yardımlar edirik və digər amillər burada rol oynayır. Amma bir daha Azərbaycan ictimaiyyətinin diqqətini bu məsələyə cəlb etmək istəyirəm ki, dünya üçün çox böyük əhəmiyyət daşıyan bu görüş məhz Azərbaycanda keçirilir.

Azərbaycan iqtisadi sahədə bütün vəzifələri uğurla icra edir. İqtisadiyyatımız artır, sosial məsələlər öz həllini tapır. 2018-ci ildə bir çox önəmli infrastruktur layihəsi uğurla icra olunub, nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlər əldə edilibdir. Bütün bunları biz etmişik, Azərbaycan xalqının böyük dəstəyi ilə buna nail olmuşuq.

Beləliklə, ilə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olub, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilibdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq.

Onu da böyük məmnunluq hissi ilə qeyd etməliyəm ki, bizim idmançılarımızın mütləq əksəriyyəti həyatda da, məişətdə də gözəl nümunə – vətənpərvərlik, ləyaqət nümunəsi göstərir. Əlbəttə, idmançılara cəmiyyətdə olan hörmət çox yüksək səviyyədədir. Uşaqlar, yeniyetmələr bizim çempionlarımıza oxşamaq istəyirlər. Bu da təbiidir. Mən əminəm ki, bundan sonra da idmançılarımız bizi, xalqımızı sevindirəcəklər.

Gözəl gənc nəsil yetişir. Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurları əldə edirik. Rio Olimpiya oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, 5-6 il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak ediblər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bildik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq. Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya oyunlarında ləyaqətlə təmsil edək.

Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il 1 mərkəz tikilib, gələn il isə 3 Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır.

Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib. Əlbəttə ki, biz Avropa, İslam

Həmrəyliyi oyunlarını xatırlada bilərik. Bu il ölkəmizdə dünya, Avropa çempionatları keçirilibdir. «Formula-1» yarışı 3 ildir Azərbaycanda, Bakıda keçirilir. Bu il və keçən il ümumi rəyə və bu məsələ ilə məşğul olan ictimai qurumların fikrinə görə, bizim yarışımız – Bakı yarışı ən gözəl yarış olubdur. Bu da çox gözəl hadisədir və göstərir ki, bizim qəbul edilmiş hər bir qərarımız düzgün qərardır, gözəl nəticə verir.

Bilirsiniz ki, ölkəmizə turistlərin axını davam edir. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 11 ayında 6 faizdən çox artıbdır. Düzdür, əvvəlki illərə nisbətdə artım bir qədər aşağıdır, ancaq biz bilməliyik ki, baza artır. Yəni hər sonrakı ildə bu yüksək artımı əldə etmək daha çətin olacaq. Ancaq bu istiqamətdə də çox ciddi işlər aparılır. Deyə bilərəm ki, şəhərin mərkəzində keçirilmiş «Formula-1» yarışının turistlərin cəlb edilməsində xüsusilə çox böyük rolu, payı vardır.

Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Həm Beynəlxalq Olimpiya Komitəsi, həm də Avropa Olimpiya Komitəsi bizim fəaliyyətimizə çox yüksək qiymət verir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa oyunlarının bir növüdür. Biz bu yarışa da ciddi hazırlaşırıq. Əldə edilmiş təcrübə deməyə əsas verir ki, bu yarış yüksək səviyyədə keçiriləcəkdir.

Gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəkdir. Bu görüşü Bakıda keçirmək o qədər də asan məsələ deyil.

Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, mövcud olan infrastruktur, idman obyektləri, gözəl olimpiya stadionu, gözəl hotellər, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində rol oynayıbdır.

Yəni biz inamla irəliyə gedirik. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi, həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq. Bu il də bu mükafatlar verilir, o cümlədən görkəmli idman nümayəndələrimizə 25 mənzil veriləcəkdir.

Mən bir daha Azərbaycan idmançılarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Əziz idmançılar, sizə yeni qələbələr, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2018-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim edildi.*

*Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə İsmayıl Həşimova, Tanziliya Deminaya, Yaqub Məmmədova,*

*Vahid Məmmədova, Şamil Əlimzanova, İbrahim İbrahimova və Svetlana İşməmmədovaya «Əməkdar bədən tərbiyəsi və idman xadimi» fəxri adının döş nişanlarını və vəsiqələrini təqdim etdi.*

*Dövlət başçısı Azərbaycanda idman səhiyyəsinin inkişafında xidmətlərinə görə Esmiralda Ələkbərovaya «Əməkdar həkim» fəxri adının döş nişanını və vəsiqəsini təqdim etdi.*

*Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elşad Nərimanova, Elxan Əliyevə və Ağasəlim Mircavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olundu.*

*Sonra Prezident İlham Əliyev Elçin Zeynalova «Olimpiya» ordenini təqdim etdi.*

*Tədbirdə, həmçinin Oktay Mehdiyev, Azər Aslanov, Vüqar Qasımov, Mustafa Əhmədov, Azad Əsgərov və Ceyhun Əşrəfov Milli Olimpiya Komitəsi prezidentinin Fəxri fərmanları ilə təltif olundular.*

*Daha sonra Prezident İlham Əliyev 2018-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.*

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professoru Elşad Nərimanov Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində akademiyada uğurlu islahatların aparıldığını bildirərək qeyd etdi ki, həyata keçirilən islahatlar çərçivəsində Azərbaycan Gimnastika Federasiyası Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının idman zalını*

*təmir etdirib və bu zal zəruri gimnastika avadanlığı və alətləri ilə təchiz olunubdur. Akademiyanın bütün beynəlxalq tədbirlərdə iştirakına, icra olunan layihələrə verdiyi dəstəyə görə Birinci vitse-prezident, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevaya minnətdarlıq edən Elşad Nərimanov ona təqdim olunan mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

*Əməkdar bədən tərbiyəsi və idman xadimi Elçin Zeynalov ulu öndər Heydər Əliyevi dərin ehtiramla xatırlatdı, onunla görüşlərini yada saldı. Ümummilli liderin idman ictimaiyyətinə hər zaman qayğı ilə yanaşdığını, bunun Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurla çıxış etmələrinə stimul verdiyini bildirdi.*

*Elçin Zeynalov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya ölkədə idmanın inkişafına və idmançılara göstərdikləri diqqət və qayğıya görə təşəkkürlərini çatdırdı.*

*Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi.*

## PAYTAXTIN SABUNÇU RAYONUNUN BAKIXANOV QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNMUŞ GƏNCLƏR MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*13 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yeni inşa olunmuş Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev görülən işlər barədə dövlət başçısına məlumat verdi.*

*Gənclər Mərkəzi yenidən qurulmuş istirahət parkında yerləşir. Ümumi ərazisi 2,3 hektar olan parkda yenidən qurulma işlərinə 2014-cü ilin sonunda başlanılıb. Bu istirahət mərkəzinin ərazisində idman meydançası və açıq havada müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün səhnə quraşdırılıb. Parkda inşa olunmuş Gənclər Mərkəzinin üçmərtəbəli binasının qarşısında ümummilli lider Heydər Əliyevin abidəsi ucaldılıbdır.*

*Dövlət başçısı ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.*

*Sonra Prezident İlham Əliyev Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, mərkəzin ümumi sahəsi 5800 kvadratmetrdir. Mərkəzin yüksək zövqlə inşa edilmiş binasının interyeri müasirliyi ilə seçilir. Burada 300 yerlik böyük konfrans zalı yaradılıb. Zalda rayonun ictimai-siyasi, mədəni həyatı ilə bağlı əlamətdar tədbirlərin keçirilməsi üçün hər cür şərait mövcuddur.*

*Gənclər Mərkəzində Heydər Əliyev Muzeyi fəaliyyət göstərəcəkdir.*

*Azərbaycan tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə silsilə tədbirlər keçirilir. Gənclər Mərkəzində Heydər Əliyev Muzeyinin yaradılması ulu öndərin zəngin və çoxşaxəli irsinin gənclər arasında təbliğində və öyrənilməsində mühüm rol oynayır. Muzeydə ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar vardır. Burada, həmçinin ulu öndərin çoxşaxəli siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq, inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilmiş mühüm tədbirləri əks etdirən fotolar və sənədlər nümayiş olunur.*

*Gənclər Mərkəzində virtual atıcılıq otağı, foto, rəsm, dizayn və poliqrafiya studiyaları, fortepiano,*

*rəqs və intellektual oyun zalları yaradılıb. Burada, həmçinin kiçik konfrans zalı, gənclik kafesi, kompüter, xarici dil kursları, linqafon kabineti, şahmat otağı, virtual sinif vardır. Mərkəzdə 90 yerlik kinozal və elektron kitabxana da gənclərin ixtiyarına veriləcəkdir. Bundan başqa, burada nikah zalları da yaradılıbdır.*

*Belə müasir Gənclər Mərkəzinin inşası bir daha sübut edir ki, ölkəmizdə gənclər siyasətinin reallaşdırılması istiqamətində görülən çoxşaxəli tədbirlər ardıcıl xarakter daşıyır. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasətinin davam etdirilməsi Prezident İlham Əliyevin fəaliyyətində mühüm yerlərdən birini tutur.*

*Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir.*

*Sabunçu rayonunda Gənclər Mərkəzinin inşa edilməsi bu gün ölkəmizdə Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, onların fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramların ardıcıl xarakter aldığını göstərir.*

## RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*13 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Sergey Viktoroviç, mən Sizi Azərbaycanda görməyə çox şadam. Xoş gəlmisiniz! Sizin səfəriniz bizim ikitərəfli əməkdaşlığın vacib məsələlərini müzakirə etmək üçün yaxşı imkandır. Özü də bu səfər Yeni il ərəfəsindədir.

Səfər bizim birgə işimizin 2019-cu il üçün planlarını müəyyənləşdirmək, həm də bu il hansı işlərin görüldüyünü təhlil etmək üçün yaxşı imkandır. Deməliyəm ki, 2018-ci il münasibətlərimizin inkişafı baxımından çox məhsuldar il olub. Yüksək səviyyədə xeyli görüşlər, o cümlədən mənim Rusiyaya sentyabrın əvvəlində rəsmi səfərim və Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin sentyabrın sonlarında Azərbaycana səfəri olub. Bu səfərlər çərçivəsində biz qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərini müzakirə etmişik, gələcək əməkdaşlıq yollarını müəyyənləşdirmişik. Həm də əminəm ki, uğurla həyata keçiriləcək çoxlu sayda sənəd imzalanıb. Bu bizim münasibətlərimizə əlavə dinamika verəcəkdir.

Biz beynəlxalq strukturlarda fəal qarşılıqlı fəaliyyət göstəririk. Lap bu yaxınlarda – bir həftə əvvəl MDB-nin Sankt-Peterburqda qeyri-formal sammiti keçirildi. Bu, təşkilat üzvlərinin fəaliyyətini gücləndirmək üçün çox əlamətdar hadisə idi. Bu il aktiv fəaliyyətə başlayan hökumətlərarası birgə Komissiyanın yeni tərkibi formalaşdırılıb. Bu yaxınlarda görüşəcəklər. Həmçinin Rusiya–Azərbaycan İşgüzar Şurasının yeni tərkibi formalaşdırılıb. Yəni biz ticari-iqtisadi əlaqələrə, investisiya proqramlarına dinamika vermişik. Düşünürəm ki, nəticələr çox yaxşı olacaqdır.

Əlbəttə, biz bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri də müzakirə edəcəyik. Ümid edirik ki, 2019-cu il nizamlanma prosesinə yeni impuls verəcək. Əlbəttə ki, münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiyanın səylərinə ümid edirik. Biz bir çox sahələrdə qarşılıqlı fəaliyyət göstəririk. Mən həmçinin Şimal–Cənub dəhlizinin yaradılması ilə bağlı bizim fəaliyyətimizin nəticələrini məmnunluqla qeyd etmək istərdim. Biz bu istiqamətdə fəal qarşılıqlı fəaliyyət göstəririk. Müvafiq strukturlar, nəqliyyat qurumları çox məhsuldar işləyirlər. Biz bu il artıq yaxşı nəticələr görürük. Biz digər tərəfdaşlarımızla, qonşularımızla bu layihəni mümkün qədər tez başa çatdırmaq üçün birgə səylərimizi davam etdirəcəyik.

Mətbuat qarşısında qeyd etmək istədiyim son məsələ bizim humanitar əməkdaşlığımız haqqındadır. Bildiyiniz kimi, bu yaxınlarda Rusiya və Azərbaycan

prezidentlərinin himayədarlığı ilə Bakıda növbəti Humanitar Forum keçirilib. Prezident Vladimir Putin forum iştirakçılarına məktub göndərib. Bu forum humanitar məsələləri müzakirə etmək üçün mühüm beynəlxalq meydandır.

Münasibətlərimizin belə təşəkkülündən məmnunluq ifadə edirəm və ümidvaram ki, gələcəkdə də belə yaxşı nəticələr olacaqdır. Bir daha xoş gəlmisiniz!

**Sergey Lavrov**: Hörmətli İlham Heydər oğlu!

Son 6 ayda Azərbaycanın sədrlik etdiyi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının xətti ilə sabah Bakıda keçiriləcək tədbirlərlə bağlı bizi qəbul etdiyinizə görə çox sağ olun. Bu vəzifənin həmkarlarınız tərəfindən çox uğurla yerinə yetirilməsi münasibətilə Sizi təbrik edirəm. Bizim mövqemiz ondan ibarətdir ki, bu təşkilat Qara dəniz regionunda qarşılıqlı fəaliyyət çərçivəsində birgə işimizi səfərbər etməyə davam etməlidir.

Sizə Vladimir Vladimiroviç Putinin ən xoş arzularını və salamlarını çatdırıram. O Sizin strateji tərəfdaşlığımızı irəli aparmağa imkan verən şəxsi münasibətinizi yüksək qiymətləndirir. Artıq hesabladığımız kimi, sizin bu il 6 dəfə keçirilmiş görüşləriniz, son görüşləriniz, o cümlədən qarşılıqlı səfərlər zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir. Hökumətlərarası birgə Komissiyanın sabahkı iclası da yəqin ki, sizin razılaşdırdığınız istiqamətlər – ticarətin asanlaşdırılması, büdcə-vergi sahəsinin rəqəmsallaşdırılması, nəqliyyat sahəsində əməkdaşlıq, birgə müəssisələrin yaradılması, Siz qeyd etdiyiniz kimi,

humanitar əlaqələr, ən müxtəlif sahələr, o cümlədən bizim əməkdaşlığımızın vacib sahəsi olan Rusiya və Azərbaycan regionları arasındakı qarşılıqlı fəaliyyətə təkan verəcəkdir.

Biz Azərbaycanla beynəlxalq arenada, BMT-də, Avropa Şurasında qarşılıqlı fəaliyyəti qiymətləndiririk. İndi Avropa Şurasının strukturlarında bütün üzv ölkələrin bərabər hüquqlarının təmin olunduğu bu təşkilatın Nizamnaməsinin əsas qaydalarına yenidən baxılması cəhdləri vardır. Biz ATƏT-də də birlikdə işləyirik.

Əlbəttə, biz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Bakı ilə İrəvan arasında birbaşa dialoqa kömək göstərməyə davam etmək istəyirik. Bilirəm ki, Sizin Ermənistanın Baş Naziri ilə birbaşa danışıqlarınız olub. Mənim həmkarım və dostum Elmar Məhərrəm oğlu Məmmədyarovun Ermənistanın Xarici İşlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyanla danışıqları olub. Bu gün biz, əlbəttə ki, Sizin irəliyə doğru hansı addımlar atılacağını necə dəyərləndirdiyinizi bilməkdə son dərəcə maraqlıyıq. İstəyirik ki, münaqişə ədalətli, qarşılıqlı məqbul həll olunsun. Rusiya Federasiyası həm öz səyləri ilə, həm də ATƏT-in Rusiya, Fransa və ABŞ-ın daxil olduğu Minsk qrupunun həmsədr üçlüyünün üzvü kimi, belə razılaşmaların əldə edilməsinə nail olmaq üçün əlindən gələni edəcəkdir. Bir daha bu imkana görə çox sağ olun.

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Qətər arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2018-ci il*

**QƏTƏR DÖVLƏTİ ƏMİRİNİN MÜAVİNİ ƏLAHƏZRƏT ŞEYX ABDULLAH BİN HƏMƏD ƏL-TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2018-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*14 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Ankarada dəmir yolu qəzası nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verdi. Prezident İlham Əliyev Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd etdi, 2018-ci ilin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından çox məhsuldar il olduğunu dedi. Özünün Türkiyəyə çoxsaylı səfərlərinə və eləcə də Türkiyə Prezidentinin Azərbaycana səfərlərinə toxunan dövlətimizin başçısı bildirdi ki, birgə iştirak etdiyimiz layihələrin açılışları, Azərbaycanla Türkiyənin təşkil etdiyi hərbi parad və digər önəmli hadisələr birliyimizi bütün dünyaya nümayiş etdirdi. Birgə həyata keçirilən layihələrdən söz açan Prezident İlham Əliyev TANAP, TAP, Bakı–Tbilisi–Qars və eləcə də digər layihələrin dünya üçün böyük əhəmiyyət daşıdığını və ölkələrimizin bütün məsələlərlə bağlı bir-birini dəstəklədiyini nəzərə çatdırdı. Dövlət başçısı Ermənistan–*

*Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Türkiyənin hər zaman birmənalı şəkildə Azərbaycanın yanında olduğunu və Türkiyənin bu məsələ ilə bağlı verdiyi son açıqlamaları məmnunluq hissi ilə qeyd etdi, qardaş ölkənin bu mövqeyinə görə minnətdarlığını bildirdi.*

*Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu qəbula və başsağlığına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlət başçısına çatdırdı.*

*Türkiyəli nazir qeyd etdi ki, qardaş Azərbaycan və Azərbaycanın lideri Prezident İlham Əliyev hər zaman Türkiyənin yanında olub və Türkiyə də eyni şəkildə həmişə Azərbaycanın yanındadır. Mövlud Çavuşoğlu Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 39-cu iclasına toxunaraq, bu tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təbriklərini çatdırdı. O, Azərbaycanın mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini məmnunluqla qeyd etdi. Mövlud Çavuşoğlu bildirdi ki, Azərbaycan və Türkiyə dövlət başçılarının səmimi dostluğu və qardaşlığı, onların verdiyi tapşırıqlar sayəsində iki ölkənin Xarici İşlər nazirlikləri sıx qarşılıqlı fəaliyyət göstərir. O eyni zamanda, ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin önəmini qeyd etdi və qarşıda bir çox görüləsi mühüm işlərin olduğunu vurğuladı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ mü-*

*naqişəsinə toxunan nazir bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü əsasında həlli ilə bağlı Türkiyənin bundan sonra da güclü dəstək verəcəyini qeyd etdi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

# İRAN İSLAM RESPUBLİKASININ İNFORMASİYA VƏ MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRİ SEYİD MAHMUD ƏLƏVİ İLƏ GÖRÜŞ

*14 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də İran İslam Respublikasının İnformasiya və Milli Təhlükəsizlik naziri Seyid Mahmud Ələvini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan–İran əlaqələrinin çox uğurla inkişaf etdiyini və bu gün yüksək səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev həm özünün İrana, həm də İran Prezidentinin Azərbaycana səfərlərini məmnunluqla xatırladaraq, bu səfərlərin münasibətlərimizin möhkəmlənməsində rolunu qeyd etdi. Xalqlarımız arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu söyləyən Prezident İlham Əliyev bu gün bizim dost və qardaş iki ölkə kimi, əlaqələrimizin genişləndiyini və ölkələrimizin ikitərəfli əsasda imzaladığı sənədlərin uğurla icra edildiyini bildirdi. Prezident İlham Əliyev İran İslam Respublikasının İnformasiya və Milli Təhlükəsizlik naziri Seyid Mahmud Ələvinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*İnformasiya və Milli Təhlükəsizlik naziri Seyid Mahmud Ələvi ilk növbədə, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, Prezident Həsən Ruhani Azərbaycan Prezidenti barəsində danışan zaman onu bir qardaş kimi görür və hər zaman Prezident İlham Əliyevin qurucu insan olduğunu qeyd edir.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## XALQ RƏSSAMI TAHİR SALAHOVUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ SƏRGİ İLƏ TANIŞLIQ

*14 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva dekabrın 14-də Bakı Ekspo Mərkəzində Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilmiş sərgi ilə tanış olmuşlar.*

*Sərginin ekspozisiyasında Tahir Salahovun şəxsi kolleksiyasından, Azərbaycan Milli İncəsənət Muzeyinin, Azərbaycan Xalça Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından seçilmiş 80-dək xalça, 40-dək rəngkarlıq və rəsm əsəri, eləcə də 350-dək fotoşəkil nümayiş olunur. 4000 kvadratmetrlik sahəni əhatə edən ekspozisiyada rəssamın yaradıcılığının bütün dövrlərini əks etdirən əsərləri yer alıb. Fotoşəkillər Tahir Salahovun dünyanın məşhur elm, incəsənət və dövlət xadimləri ilə görüşlərini, onun həyatının maraqlı anlarını əks etdirir.*

*Ulu öndər Heydər Əliyevin Tahir Salahovla şəxsi münasibəti və dostluğu olub. Çoxşaxəli yaradıcılığı, məhsuldar ictimai fəaliyyəti xalqımız və dövlətimiz tə-*

*rəfindən yüksək qiymətləndirilən Tahir Salahov müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə – 1998-ci ildə «İstiqlal», 2008-ci ildə «Heydər Əliyev» ordenlərinə, 2015-ci ildə «Heydər Əliyev mükafatı»na, bu il isə 1-ci dərəcəli «Əmək» ordeninə layiq görülüb. Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə rəssamın 80 illik yubileyi dövlət səviyyəsində qeyd olunub, İçərişəhərdə ev-muzeyi fəaliyyətə başlayıbdır. Bunlarla yanaşı, dahi fırça ustasının çoxsaylı beynəlxalq mükafatları da var ki, bu onun sənətinə göstərilən ehtiramın parlaq təzahürüdür.*

*Dövrümüzün böyük sənətkarı və tanınmış ictimai xadimi Tahir Salahov müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi kimi, uzunmüddətli, səmərəli və bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazıb. Eyni zamanda, milli sənət xəzinəmizin «qızıl» fondunda özünə həmişəlik layiqli yer tutan əsərləri ilə Azərbaycan təsviri sənətinə dünyada geniş şöhrət qazandırıb. Böyük sənətkar «sərt üslub»un banilərindən biridir. Onun bu üslubda yaratdığı sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışı və fəlsəfi düşüncələri rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapıb. Tahir Salahov həm də Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirib. Onun mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləri ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirləri təlqin edir.*

*Tahir Salahov haqlı olaraq, təsviri incəsənətin canlı klassiki və bütöv bir üslubun banilərindən biri hesab olunur. Onun əsərləri dünya mədəniyyəti xəzinəsinə, XX və XXI əsrlərin təsviri incəsənətinin «qızıl» fonduna daxildir. Böyük sənətkarın heyrətamiz portret yaradıcılığı isə sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanıb. O, Vətənə məhəbbət dolu silsilə lövhələr, peyzajlar və natürmortlarında insanın təbiətlə dərin məna kəsb edən ahəngdar mənəvi vəhdətini əks etdirməyə müvəffəq olub. Tahir Salahovun Azərbaycan rəngkarlığının inkişafında bütöv bir dövrü təşkil edən əsərləri bu gün dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyir və şəxsi kolleksiyalarda saxlanılır. Onun mühüm mədəni hadisəyə çevrilən fərdi sərgiləri isə Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliğində böyük rol oynayır. O həmçinin böyük ustad, gözəl pedaqoq kimi də tanınır. Böyük sənətkarın milli rəssamlığın gələcək inkişafı naminə gördüyü işlər çoxdur. Bu mənada onun gənc fırça ustalarının yetişdirilməsi sahəsində xidmətləri təqdirəlayiqdir.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva dünya şöhrətli rəssam Tahir Salahovu 90 illik yubileyi münasibətilə bir daha təbrik etdilər, ona yeni-yeni uğurlar arzuladılar.*

## SABUNÇU RAYONUNDA HƏRBÇİLƏRƏ YENİ MƏNZİLLƏRİN VERİLMƏSİ MƏRASİMİ

*17 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dekabrın 17-də Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak etmişdir.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini – Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident İlham Əliyevə raport verdilər.*

*Burada ümumilikdə 8 bina tikilib. Binaların həyətində uşaq əyləncə meydançası, sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət guşələri yaradılıbdır.*

*Dövlət başçısı mənzillərdə yaradılmış şəraitlə tanış oldu.*

*Müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə mənzillərdə yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, Prezident İlham Əliyevin «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə» 2011-ci ildə imzaladığı fərmana əsasən, bu*

*binalardan ümumi sahəsi 37 min kvadratmetrdən çox olan 394 mənzil hərbi qulluqçular üçün ayrılıb. Onların 3-ü birotaqlı, 192-si ikiotaqlı, 185-i üçotaqlı, 14-ü isə dördotaqlıdır. Daimi su, qaz, elektrik enerjisi ilə təmin olunan mənzillərə telefon və internet xətti də çəkilib. İstilik və isti su təchizatını təmin etmək məqsədilə hər bir mənzil kombi sistemi ilə təchiz olunubdur.*

*Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsi baxımından tarixi əhəmiyyətli işlər görülüb. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbay-*

*can Prezidentinin fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilibdir.*

*Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər və onların ailə üzvləri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Əziz hərbçilər, əziz dostlar!

Bu gün hərbçilərin həyatında çox əlamətdar bir gündür. Bu gözəl binada 394 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilir. Mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, bu gözəl binada rahat yaşayasınız.

Bilirsiniz ki, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq fərman imzalanıbdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə mənzil verilib. Mənzillərin hamısı çox gözəldir. Mən bu binaların açılışında şəxsən iştirak etmişəm və bu gün də tanış olduğum mənzillər çox rahat, geniş və təmirlidir. Azərbaycan nadir ölkələrdəndir ki, burada belə bir proqram icra edilir. Bu bir daha dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür, bunun nümunəsidir.

Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılıb, bir çox şəhərciklər yenidən tikilibdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də xeyli yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75–80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır.

Onu da bildirməliyəm ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilibdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomobil verilibdir.

Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Siz onu da bilirsiniz ki, builki Prezident seçkilərindən dərhal sonra imzaladığım birinci fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olubdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesinə başlanılıb.

Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaqdır. Bu, şəhidlərin qəhrəmanlığına görə dövlətin onların ailələrinə göstərdiyi diqqət və qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Azərbaycan dünyada güclü orduya malik olan ölkələr sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərdi. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan–Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçib. Biz strateji yüksəklikləri əldə etmişik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti

yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər.

Əlbəttə, bir daha demək istəyirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanıb. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir.

Ordu quruculuğu prosesində, əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Bax, bu gözəl binada 400-ə yaxın hərbçi ailəsinin yaşaması dediyim sözlərin bariz nümunəsidir, təsdiqidir. Mən bu gözəl binada yaşayacaq bütün hərbçiləri bu hadisə münasibətilə bir daha təbrik edirəm. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

*Prezident İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim etdi.*

*Ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Rafiq Quliyev öz adından və hərbçi yoldaşları adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlığını bildirdi.*

**Rafiq Quliyev:** Cənab Prezident, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində biz hərbçilərə bəxş etdiyiniz bu sevincə görə bütün hərbçilər və onların ailə üzvləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Əmin ola bilərsiniz ki, bundan sonra da hərbi anda sadiqik və Sizin bütün əmrlərinizi yerinə yetirməyə hazırıq.

**İlham Əliyev:** Çox sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASININ V QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının öz işinə başlaması münasibətilə səmimi salamlayıram.

Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-dək iqtisadi, sosial yönümlü assosiasiya və ittifaqı birləşdirmiş Azərbaycan Sahibkarlar Konfederasiyası ölkəmizdə iş adamlarının maraqlarını müdafiə edən və sahibkarlığın inkişafına dəstək verən əsas ictimai təşkilatlardandır. Ölkəmizin iqtisadi inkişafında onun özünəməxsus mövqeyi vardır.

Hazırkı mərhələdə başlıca məqsədlərimizdən biri milli iqtisadiyyatın rəqabətqabliyyətliliyinin yüksəldilməsi və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivdə ölkəmizin dinamik sosial-iqtisadi inkişafının davamlılığını təmin etməkdir. Bu istiqamətdə post-neft dövrü iqtisadiyyatının müxtəlif sahələr üzrə inkişafı və biznes mühitinin yaxşılaşdırılması üçün respublikamızda mühüm addımlar atılır.

İslahatların müvəffəqiyyətlə aparılması və müxtəlif sahələri əhatə edən dövlət proqramlarının, genişmiqyaslı infrastruktur layihələrinin uğurlu icrası ölkəmizi nüfuzlu və etibarlı tərəfdaş kimi tanıdıbdır. Aparılan islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilibdir. 2018-ci ilin oktyabrında Dünya Bankının yaydığı «Doing Business–2019» hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək, dünyanın ən çox islahat aparan ölkəsi elan olunubdur. Yeni hesabatda 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerdə qərarlaşan Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlibdir. Belə yüksək nəticə məhz son illər gerçəkləşdirdiyimiz islahatlar sayəsində mümkün olubdur.

İqtisadiyyatın neftdən asılılığının azaldılması və rəqabətqabliyyətli milli iqtisadiyyatın formalaşdırılmasını, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasını qarşıdakı illərdə strateji hədəflərimizdən biri olaraq müəyyən etmişik. Hazırda qeyri-neft sənayesi və kənd təsərrüfatı sahələrində qazanılan nailiyyətlər sahibkarlara biznes fəaliyyətini genişləndirmələri üçün əlavə stimul yaradır. Milli iqtisadiyyatın dayanıqlı inkişafında sahibkarlığın əhəmiyyətli rol oynayacağına əminliyimi ifadə edirəm.

Ümidvaram ki, qurultay zamanın çağırışlarına və milli inkişaf prioritetlərinə uyğun qərarları ilə qurumunuzun öz gələcək fəaliyyətinin daha səmərəli

təşkili və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi işinə töhfəsini verəcəkdir. Bu yolda hər birinizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 dekabr 2018-ci il*

## ELMİ-TƏDQİQAT TİBBİ BƏRPA İNSTİTUTUNDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*18 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 18-də Səhiyyə Nazirliyinin Bakıda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olmuşlar.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlət başçısına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, bu binada 1934-cü ildə Bakı Şəhər Səhiyyə Şöbəsinin nəzdində Balneofizioterapiya İnstitutu yerləşib. 2 il sonra isə bu institutun bazasında Azərbaycan Dövlət Kurortologiya və Fizioterapiya İnstitutu yaradılıb. 1988-ci ildə bu institut Naftalan şəhərində problem laboratoriyası ilə birləşdirilərək, Elmi-Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutu adlandırılıb. 1999-cu ildə isə bu tibb müəssisəsinin adı profili və fəaliyyətinə uyğunlaşdırılaraq, Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutuna dəyişdirilibdir.*

*Azərbaycanda bütün sanatoriya və kurort müəssisələrinin elmi cəhətdən əsaslandırılması, orada aparılan müalicə bu institut tərəfindən hazırlanmış elmi-metodiki tövsiyələr əsasında aparılır. İnstitutda kon-*

*sultativ poliklinika, stasionar, diaqnostik tədqiqatlar və fiziki üsullarla müalicə şöbələri fəaliyyət göstərir. Tibb ocağının stasionar hissəsində terapiya, artrologiya və nevrologiya bölmələri olacaq. Diaqnostik tədqiqatlar bölməsində 3 laboratoriya yaradılıb. Kliniki-immunologiya, biokimyəvi və kliniki neyrofiziologiya laboratoriyalarında ən müasir avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar laborator müayinələri qısa müddətə, həm də keyfiyyətlə aparmağa hərtərəfli imkan verir. Müalicəvi şöbələrə isə Naftalan nefti ilə müalicə, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin müalicəvi bədən tərbiyəsi kabineti aiddir. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutundakı oftalmoloq, stomatoloq, terapevt, USM, EKQ, balneoloji vanna və digər otaqlar da müasir tibbi avadanlıqlarla təchiz olunubdur.*

*İnstitutun elm bölməsində 43 elmi işçi, klinika bölməsində 43 həkim, 76 tibb bacısı və 118 nəfər digər işçi olmaqla, burada ümumilikdə 280 nəfər çalışır. İşçilərin 20 nəfəri fəlsəfə doktoru, 3 nəfəri tibb elmləri doktoru, 2 nəfəri professor, 1 nəfəri isə professor, Əməkdar elm xadimi olmaqla, AMEA-nın müxbir üzvüdür.*

*Son illərdə müasir tibb müəssisələrinin yaradılması, mövcud sağlamlıq ocaqlarının yüksək səviyyədə yenidən qurulması Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində icra edilən layihələrin mühüm tərkib hissəsidir. Səhiyyə sistemində aparılan ardıcıl islahatlar nəticə-*

*sində bu gün bu sahə yeni, müasir mərhələyə qədəm qoyub. Belə müasir səhiyyə ocaqlarının yaradılması ilk növbədə, vətəndaşların sağlamlığının qorunması və bərpası, onların müayinə-müalicə işini yüksək səviyyədə qurmaq üçün atılan addımlardandır.*

*Sonra dövlət başçısı müəssisənin kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün biz Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı təmirdən sonra açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə institutun kollektivini, bütün xalqımızı ürəkdən təbrik edirəm. Çünki bu institutun Azərbaycanda xüsusi yeri vardır. Təxminən bir əsrə bərabər ömrü olan bu bərpa mərkəzinin yenidən qurulduqdan sonra ikinci həyatı başlayır. Mən indi buradakı stendlərdə binanın əvvəlki vəziyyəti, tikinti zamanı çəkilmiş şəkilləri ilə tanış oldum. Onlar çox böyük maraq doğurur. Hələ 1925-ci ildə institutun tikintisi ilə bağlı müvafiq göstəriş verilmişdir. Bu institut 100 ilə yaxın müddət ərzində Azərbaycan sakinlərinə xidmət göstəribdir. Siz – burada işləyənlər yaxşı bilirsiniz ki, bu institutun ölkəmizin səhiyyə sistemində xüsusi yeri vardır. Bilirəm, təmir zamanı vətəndaşlar gözləyirdilər ki, bu institut tezliklə açılsın və onun imkanlarından istifadə olunsun. Əlbəttə ki, bu gün burada yaradılmış müasir şərait ən yüksək standartlara cavab verir. Həm təmir-tikinti işləri çox böyük peşəkarlıqla, zövqlə aparılıb, həm də burada quraşdırılmış müasir avadanlıqlar, əlbəttə, xəstələrə ən yüksək səviyyəli xidmət göstərə-

cəkdir. Sağlamlığını bərpa etmək istəyənlər mütləq buraya gəlib şəfa tapacaqlar.

Bu institutun binası həm də çox gözəl memarlıq abidəsidir. Binanın həm xarici görünüşü, həm daxili dizaynı göz oxşayır. İnstitutun sahəsi də çox böyükdür – 14600 kvadratmetr sahədə yerləşir. Yenə də demək istəyirəm ki, burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Bu bir daha ölkəmizin səhiyyə sahəsinə göstərdiyi diqqətin təzahürüdür. Bu bir daha onu göstərir ki, insanların sağlamlığı bizim üçün ən əsas vəzifədir. Təsadüfi deyil ki, son 15 il ərzində təqribən 650-yə yaxın tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilibdir. Bu gün ölkəmizin istənilən yerində yüksəkkeyfiyyətli tibbi xidmət almaq mümkündür. Demək olar ki, mərkəzi şəhər və rayon xəstəxanalarının tikintisi və əsaslı təmiri prosesi başa çatır, bir neçə xəstəxana öz açılışını gözləyir. Əminəm ki, yaxın 1-2 ildə bu məsələ də öz həllini tapacaq. Bu, ölkəmizin səhiyyə sisteminə verilən çox böyük töhfədir. Çünki bu gün hər bir şəhərdə, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən tibb müəssisələri fəaliyyət göstərir və vətəndaşlara xidmət edir. Əgər buna nail olmasaydıq, əgər səhiyyə sahəsinin maddi-texniki bazasını yaratmasaydıq, biz bu gün apardığımız siyasəti apara bilməzdik. Çünki bu gün sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsindəki islahatlar, qoyulan investisiyalar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, Azərbaycanda yüksək səviyyəli tibbi xidmət ala bilsinlər. Bildiyiniz kimi, son illərdə bütün ölkə üzrə 5 milyondan çox Azərbaycan

vətəndaşı hər il pulsuz tibbi müayinədən keçir və aşkar edilən xəstəliklər müalicə olunur. Azərbaycan nadir ölkələrdəndir ki, belə genişmiqyaslı sosial layihə icra edilir. Mən dəfələrlə bildirmişəm ki, Azərbaycan vətəndaşları ildə ən azı bir dəfə tibbi müayinədən keçsinlər. Şadam ki, bu çağırışlar həyatda öz əksini tapır. Xüsusilə nəzərə alsaq ki, hər bir yerdə müayinədən keçmək üçün şərait var və 5 milyondan çox insanın bu imkanlardan istifadə etməsi bizim siyasətimizin qələbəsidir.

Ölkəmizdə bu sahədə aparılan işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. BMT-nin Minilliyin İnkişaf Məqsədləri Proqramı çərçivəsində, o cümlədən səhiyyə sahəsində aparılan işlər yüksək qiymətə layiqdir. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatı bizim işimizi yüksək qiymətləndirir. Bir sözlə, bu sahədə aparılan islahatlar və dövlət tərəfindən qoyulan vəsait öz nəticəsini verir. Nəticə də ondan ibarətdir ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, gənc nəsil sağlam həyat tərzi sürsün, pis vərdişlərdən uzaq olsun. Sağlamlığı təmin və bərpa etmək üçün Azərbaycanda bütün şərait vardır. Bir daha demək istəyirəm ki, institutun yenidən fəaliyyətə başlaması bu sahədə atılan çox önəmli addımdır.

Mən sizi bu gözəl hadisə – qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

**O q t a y  Ş i r ə l i y e v** (*Səhiyyə naziri*): Möhtərəm cənab Prezident, çox hörmətli Mehriban xanım!

Siz hər Yeni il ərəfəsində bir tibb müəssisəsi açırsınız. Çox sağ olun, bu gün də bu açılışda iştirak edirsiniz. Səhiyyə ilə bağlı xoş sözlərinizə görə Sizə dərin hörmət və ehtiramımızı bildirmək istəyirik.

Cənab Prezident, Siz səhiyyənin bütün problemlərinə, ümumiyyətlə, səhiyyəyə həmişə diqqət və qayğı ilə yanaşmısınız. Bu da o deməkdir ki, insanların sağlamlığı, gənc nəslin sağlam böyüməsi Sizin üçün ən vacib meyarlardan biridir. Bu bizim dövlətin siyasətidir, bu Sizin siyasətinizdir. O siyasətin göstəriciləri yüzlərlə yeni xəstəxana, tibb mərkəzi, ən müasir avadanlıqlar, təhsil üçün ən qabaqcıl xarici klinikalara göndərilən tələbələr, tibb işçiləri, mütəxəssislərdir. Bütün bunlara görə biz Sizə olduqca minnətdarıq.

Cənab Prezident, Siz də, Mehriban xanım da tibb ictimaiyyətinin nümayəndələri ilə görüşəndə həmişə xüsusi vurğulayırsınız ki, həkimlik xüsusi sənətdir, həkim gərək bilikdən, bacarıqdan başqa, həm də şəfqət və mərhəmət sahibi olsun. Siz həmişə həkimlərə, tibb işçilərinə çox yüksək qiymət vermisiniz. Çalışacağıq ki, biz bu yüksək qiymətə layiq olaq. Çox sağ olun, cənab Prezident.

## MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN ÜÇÜNCÜ KORPUSUNUN ƏSASLI BƏRPA VƏ TƏMİRDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*18 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunda əsaslı təmir və bərpadan sonra yaradılmış şəraitlə tanış olmuşlar.*

*Mədəniyyət naziri Əbülfəs Qarayev dövlət başçısına və xanımına görülən işlərlə bağlı məlumat verdi.*

*Qeyd edildi ki, Azərbaycan Milli İncəsənət Muzeyi XIX əsrdə inşa edilmiş iki yanaşı tarixi binada yerləşir. XIX əsrin 91–93-cü illərində Bakının baş memarı Nikolay fon der Nonne tərəfindən inşa edilmiş binada ayrı-ayrı vaxtlarda müxtəlif idarə və təşkilatlar yerləşib. 1936-cı ildə əsası qoyulmuş İncəsənət Muzeyi 1951-ci ildən bu binada fəaliyyətini davam etdirib. Burada çox sayda qiymətli sənət əsərinin yerləşdirilməsi və ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı daha da artırıb. Zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin toplandığı bu binanın təmiri zərurətini yaradıb. Əvvəllər burada belə genişmiqyaslı təmir işləri aparılmayıb. Prezident İlham Əliyevin sərəncamı ilə muzeydə*

*əsaslı təmir və yenidən qurulma işləri görülüb. «Mariinski Qadın Gimnaziyası» adlanan birinci korpus 2009-cu ilin sentyabrında istifadəyə verilibdir.*

*2014–2018-ci illərdə isə muzeyin «De Burun malikanəsi» adlanan korpusunda İtaliya və Azərbaycan mütəxəssislərinin birgə səyləri ilə əsaslı təmir işləri həyata keçirilib. Bərpa-təmir işlərinə başlamazdan əvvəl muzey binasında xüsusi tədqiqat aparılıb. Binanın fiziki və texniki vəziyyəti öyrənilib. Ölkə əhəmiyyətli bu memarlıq abidəsinin tavan və divarlarında mövcud yapma rəsm bəzək və digər işlər ilkin vəziyyətə gətirilib. Memarlıq və bəzək elementləri təmizlənib, bərkitmə işləri yerinə yetirilib. Uzun illər ərzində cari təmir işləri aparmaqla, tavan və divarlarda 7 qat üst-üstə vurulan boya xüsusi texnologiya ilə təmizlənərək, birinci rəng qatı müəyyən edilib. Əsas giriş qapıları və bir çox daxili qapılar təmizlənərək, bərpa olunub. Milli İncəsənət Muzeyində yeni yaradılmış şərait sərgi zallarında yerləşdirilən əsərlərin bütün təsiredici amillərdən – nəmişlik, temperatur, ultra şüalar və digər amillərdən qorunmasını və təhlükəsizliyini təmin edir, bununla bərabər, muzeyə gələn insanların rahatlığına, eyni zamanda, baxdıqları əsərlərdən zövq almalarına şərait yaradır.*

*Binanın memarlığı və qədimliyi saxlanılmaqla, həm texniki, həm də texnoloji baxımdan lazım olan innovativ və yeni funksionallığı təmin edilib. Yenidən qurulma və əsaslı təmir işləri ilə yanaşı, binada ekspozisiya zalları genişləndirilib, binanın seysmik davamlılığı artırılıb. 18 mindən çox eksponatın saxlanıldığı Milli İncəsənət Muzeyində rəngkarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi*

*sənət nümunələri nümayiş olunur. Üçüncü korpusda isə 2000-dən çox eksponat saxlanılır.*

*Bildirildi ki, Azərbaycan Milli İncəsənət Muzeyinin mövcud binaları arasında mərkəzləşdirilmiş giriş yaratmaq üçün 2013-cü ildə açılışı olan keçid korpusu da vardır. Bina memarlığın həm ampir, həm də barokko üslublarının istifadə edildiyi tarixi memarlıq abidəsidir. Xüsusi sifariş edilmiş güzgülər, çıraqlar və sobalar bu məkana gözəllik verir.*

*Muzeydə dünya incəsənəti nümunələri də nümayiş etdirilir. Ekspozisiya planına əsasən kolleksiyanı Qərbi Avropa – İtaliya, Hollandiya, Almaniya, Fransa, həmçinin Rusiya və Çin, Türkiyə, İran, Hindistan da daxil olmaqla, Şərq incəsənəti təşkil edir. İlk dəfə olaraq, yeni ekspozisiyada qədim dünya incəsənəti də təqdim olunur: buraya qədim Misir, qədim Yunanıstan, qədim Roma və qədim İran incəsənətləri daxildir. Bununla yanaşı, ilk dəfə olaraq, Fransa zallarında fransız impressionistlərin əsərlərini görmək mümkündür. Bundan başqa, muzeyin ekspozisiyasında Rusiya avanqardı ilə yanaşı, avanqard çini məmulat və əsərləri də seyr etmək imkanı olacaqdır. Dünyanın istənilən muzeyi burada təqdim olunan əsərlərlə fəxr edə bilər.*

*Binada aparılmış yenidən qurulma və əsaslı təmir işləri, nümayiş etdirilən zəngin kolleksiya ilə yaxından tanış olan Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mədəniyyət ocağının fəaliyyətinə uğurlar arzuladılar.*

## RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Sergey Morozovun bu vəzifəyə təyin olunmasından keçən qısa müddət ərzində Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi və bunu uğurlu əməkdaşlığımızın təzahürü kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanla Həştərxan arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək, bu gün əməkdaşlığın genişləndiyini, birgə layihələrin həyata keçirildiyini və bütün bunların Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirdi. Həştərxanda Azərbaycan İşgüzar Mərkəzinin fəaliyyət göstərdiyini, Bakıda da Həştərxan İşgüzar Mərkəzinin inşasına başlanıldığını qeyd edən dövlət başçısı təhsil, mədəniyyət sahələrində əməkdaşlığın yaxşı səviyyəsindən məmnun olduğunu və turizm sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin mövcudluğunu vurğuladı. Prezident İlham Əliyev bir daha Azərbay-*

*can Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında əməkdaşlığın uğurla və davamlı şəkildə inkişaf edən Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini bildirərək, ikitərəfli əlaqələrimizin genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif beynəlxalq səviyyədə təmaslarının rolunu xüsusi olaraq qeyd etdi.*

*Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Rusiya Prezidenti Vladimir Putinin Xəzəryanı ölkələrlə əməkdaşlığın genişləndirilməsi barədə tapşırıqlar verdiyini qeyd edərək, ilk səfərini Azərbaycana həyata keçirdiyini məmnunluqla vurğuladı. O, nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Bakıdakı inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini nəzərə çatdıran Sergey Morozov bunun Rusiya–Azərbaycan ikitərəfli münasibətlərinin inkişafı işinə xidmət etdiyini bildirdi.*

*Sonra Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın inkişafına və dostluq münasibətlərinin möhkəmlənməsinə verdiyi böyük töhfəyə görə Prezident İlham Əliyevə «Həştərxan vilayəti qarşısında xidmətlərinə görə» ordenini təqdim etdi.*

**YAPONİYA İMPERATORU**
**ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Yaponiya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2018-ci il*

## HEYDƏR ƏLİYEV ADINA NEFT EMALI ZAVODUNDA BİTUM QURĞUSUNUN VƏ MAYE QAZDOLDURMA MƏNTƏQƏSİNİN AÇILIŞI MƏRASİMİ

*21 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Heydər Əliyev adına Neft Emalı zavodunda aparılan yenidən qurulma və modernləşdirmə layihəsinin birinci mərhələsi çərçivəsində inşa edilmiş yeni bitum qurğusunun və maye qazdoldurma məntəqəsinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət Neft Şirkətinin – SOCAR-ın prezidenti Rövnəq Abdullayev görülən işlərlə bağlı dövlət başçısı İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, bitum qurğusu istismara verildikdən sonra burada illik istehsal 250 min tondan 400 min tona çatdırılacaq. Bu həcm ölkədaxili tələbatın təminatı üçün nəzərdə tutulur. Bu qurğuda «PEN 40/60» markalı yüksəkkeyfiyyətli bitum istehsal ediləcək. Növbəti mərhələlərdə AVRO-5 standartına cavab verən dizel və benzin yanacağının istehsalı nəzərdə tutulur və artıq bu istiqamətlərdə də işlər sürətlə davam etdirilir.*

*Heydər Əliyev adına Neft Emalı zavodunda yenidən qurulma işlərinin aparılması, həmçinin keçmiş*

*«Azərneftyağ» Neft Emalı zavodunun ərazisinin mərhələli şəkildə boşaldılaraq, «Ağ şəhər» layihəsinə təhvil verilməsi nəzərdə tutulduğundan, yeni bitum istehsalı qurğusunun tikintisi zəruri idi. Bitum qurğusu 7,7 hektar ərazini əhatə edir. Qurğunun tikintisi zamanı 150 min kubmetrə yaxın torpaq işləri görülüb, 650 tondan çox metal konstruksiyadan, 530 tondan çox borudan istifadə olunubdur. 2016-cı ildə Avstriyanın «Poerner» şirkəti ilə yeni bitum qurğusunun inşası üzrə detallı layihələndirmə, satınalma və tikintinin idarə edilməsi müqaviləsi imzalanıbdır. 2017-ci ilin aprel ayından tikintinin podratçısı «Azfen» şirkəti tərəfindən qurğunun inşasına başlanılıb. Tikinti prosesinə 400 yerli işçi və mütəxəssis cəlb olunub. Layihə qrafikə uyğun başa çatdırılıbdır.*

*Maye qazdoldurma stansiyası 7 avtoçənə və 5 çən vaqona yükləmə qolundan ibarətdir. Bu məntəqədən il ərzində 180 min ton propan-propilen, 100 min ton mayeləşmiş qazın avtoçən və dəmir yolu, 178 min ton butan-butilen fraksiyasının isə boru xətti, lazım olduğu təqdirdə avtoçən və ya dəmir yolu ilə nəqli nəzərdə tutulub. Propan-propilen və butan-butilen fraksiyaları «Azərikimya» İstehsalat Birliyinin müəssisələrində xammal kimi işlənəcək, əmtəə məhsulu kimi isə məişətdə və nəqliyyat vasitələrində istifadəsi üçün satışa çıxarılacaqdır.*

*Prezident İlham Əliyevə Heydər Əliyev adına Neft Emalı zavodunda aparılan yenidən qurulma və modernləşdirmə layihəsi barədə məlumat verildi. Ulu öndərin adını daşıyan Neft Emalı zavodunun modern-*

*ləşdirmə layihəsi tarixi əhəmiyyətə malikdir. Layihə tamamlandıqdan sonra bu zavod ölkəmizi yüksəkkeyfiyyətli yanacaqla təmin edəcək, Azərbaycanın ixrac potensialını artıracaq və ölkəmizin regiondakı mövqeyinin daha da möhkəmlənməsinə xidmət göstərəcəkdir. Artıq bu mühüm və tarixi layihənin ilkin mərhələsi tamamlanıb. Modernləşdirmə layihəsinin yekunlaşan birinci mərhələsi 3 əsas hissədən ibarətdir. Bu hissələrə yeni bitum qurğusu ilə yanaşı, maye qazdoldurma stansiyası və sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan qurğuların yerləşəcəyi ərazilərdə söküntü və təmizləmə işlərinin aparılaraq, inşaat üçün hazırlanması daxildir.*

*Sonrakı mərhələlərdə tikilməsi nəzərdə tutulan 8 əsas qurğunun yerinin köhnə qurğulardan təmizlənməsi, modernləşdirmənin ümumi gedişatı üçün mühüm məsələ olan torpaq tədqiqat işlərinin görülməsi və ərazinin tikinti-quraşdırma üçün hazırlanması da artıq öz həllini tapıbdır.*

*Heydər Əliyev adına Neft Emalı zavodunda yenidən qurulma işləri 3 mərhələdə icra olunur. Layihənin 2020-ci ilin sonunadək planlaşdırılan ikinci mərhələsində AVRO-5 keyfiyyət standartına cavab verən dizel yanacağının alınması, 2021-ci ilin birinci yarısına nəzərdə tutulan üçüncü mərhələdə isə eyni keyfiyyət standartına cavab verən A-92, 95 və 98 benzin məhsullarının istehsalı üçün müvafiq yeni qurğuların inşası həyata keçiriləcək. Aparılacaq işlər zavodun illik emal gücünü 7,5 milyon tona çatdırmaqla, «Azərikimya» İstehsalat Birliyinin xammalla təchizatının sabit şəkildə*

*təmin edilməsinə imkan verəcəkdir. Zavodda aparılan yenidən qurulma işləri daxili bazarın yüksəkkeyfiyyətli yanacağa olan tələbatını tam ödəyəcək, bununla yanaşı, Bakıda karbon emissiyasının miqdarının azalmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına mühüm töhfə verəcəkdir.*

*Prezident İlham Əliyev yeni bitum qurğusunu işə saldı.*

*Yeni qurğu enerjiyə daha çox qənaət etməklə, ekoloji durumun yaxşılaşdırılmasına, zavodun istismar xərclərinin optimallaşdırılmasına mühüm töhfə verəcəkdir. Bu qurğunun istismara verilməsi nəticəsində əsasən yol inşaatında istifadə olunan asfalt-bitum maddəsinin keyfiyyəti yüksələcək. Asfalt örtüyünün mühüm tərkib hissəsi olan bitum dünyada həm də boya və mürəkkəb istehsalında, kabel, boru, dam və digər səthlərin izolyasiyasının təmin edilməsində, müxtəlif inşaat işlərində istifadə olunur.*

## BİNƏQƏDİ RAYON MƏHKƏMƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*21 dekabr2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Binəqədi Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Ədliyyə naziri Fikrət Məmmədov dövlət başçısına Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi «Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu» layihəsi çərçivəsində istifadəyə verilən və tikintisi aparılan müasir məhkəmə bina və kompleksləri barədə məlumat verdi.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Son illərdə ölkəmizdə 16 yeni müasir məhkəmə binası tikilib, beşinin inşası isə davam etdirilir. İndiyədək Prezident İlham Əliyev paytaxtın Sabunçu, Yasamal, Nərimanov, habelə Şəki, Oğuz Rayon məhkəmələri binalarının açılışında iştirak edib, İmişli Rayon Məhkəməsində yaradılmış şəraitlə tanış olubdur.*

*Dövlət büdcəsinin vəsaiti hesabına tikilmiş Binəqədi Rayon Məhkəməsinin yeni binasının inşası da müasir standartlara uyğun və yüksək keyfiyyətlə aparılıb. BMT-nin Əlillərin Hüquqları Haqqında Kon-*

*vensiyasına uyğun olaraq, binada əlillərin sərbəst hərəkəti üçün də bütün şərait vardır. Binəqədi Rayon Məhkəməsi təxminən 265 minə yaxın əhaliyə xidmət edir. Burada 80 nəfərdən çox, o cümlədən 19 hakim, 60 nəfər məhkəmə aparatı işçisi çalışacaqdır. Binada ümumilikdə 12 məhkəmə iclas zalı fəaliyyət göstərir. Azərbaycan Prezidentinin «Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında sərəncamının icrası çərçivəsində burada «Elektron məhkəmə» və «Elektron icra» informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunubdur. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan «Femida» sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıbdır. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılmış şüşə otaqda saxlanılır. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğular vardır.*

*Binəqədi Rayon Məhkəməsi də inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçündür. İctimai zonada vəkillər, dövlət ittihamçıları, icra məmurları və Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları üçün otaqlar vardır. Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin*

*edilməsində mühüm amildir. Binada vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və onların məlumatlılığının təmin edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları, o cümlədən köşklər, lövhələr quraşdırılıb ki, bu da vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradır. Bununla yanaşı, binada arxiv, maddi sübutların saxlanılması, vətəndaşların qəbulu, təqsirləndirilən şəxslərin vəkillə görüşü, dövlət ittihamçıları üçün otaqlar və tibb məntəqəsi mövcuddur. Konfrans zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Həmçinin hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, eləcə də Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Zalda tədris kurslarının keçirilməsi üçün də zəruri infrastruktur vardır. Buradakı kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan həqiqətlərini əks etdirən kitablarla zəngindir.*

*Ədliyyə və məhkəmə sahəsində tətbiq olunan innovasiyalarla tanış olan Prezident İlham Əliyevə notariat hərəkətlərinin rəsmiləşdirilməsində tətbiq olunan rəqəmsal texnologiyalar, o cümlədən notariat ofislərini vahid şəbəkədə birləşdirən «Elektron notariat» informasiya sistemi barədə məlumat verildi. Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində qüvvəyə minən «Notariat haqqında» Qanuna*

*edilən əsaslı dəyişikliklərin daha müasir texnologiyaların və innovasiyaların tətbiqinə geniş imkan yaratdığı qeyd olundu.*

*Sonra səyyar notariat çantası, «Elektron ədliyyə köşkü» və mobil notariat qovluğu nümayiş etdirildi.*

*Bildirildi ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar və əhalinin məmnunluğunun təmin edilməsi üçün müasir avadanlıqla təchiz olunmuş «Elektron notariat» informasiya sisteminə birbaşa çıxışı olan xüsusi çanta hazırlanıb. Notariuslar həmin çantalarla hər hansı məkana bağlı olmadan fiziki və hüquqi şəxslərə bütün növ notariat hərəkətləri üzrə səyyar xidmət göstərə bilərlər. Eyni zamanda, yeni qanuna əsasən, məsafədən xidmətlərin göstərilməsini mümkün edən «Elektron ədliyyə köşkü» də yaradılıb. Belə ki, təxirə salınmadan ədliyyə xidmətlərinə ehtiyac yarandığı yerlərdə, o cümlədən sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılacaq həmin köşklər notariuslarla videoəlaqə vasitəsilə notariat hərəkətinin rəsmiləşdirilməsinə və sənədlərin bilavasitə yerində əldə edilməsinə şərait yaradacaqdır. Həftənin bütün günləri 24 saat fəaliyyət göstərən bu innovativ qurğudan istifadə edərək, borca görə ölkədən çıxışına məhdudiyyət qoyulmuş şəxslər ödənişləri həyata keçirə və məhdudiyyəti avtomatlaşdırılmış qaydada aradan qaldıra bilərlər. Dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan mobil notariat qovluğunun tətbiqi nəticəsində istənilən şəxs ətrafında olan bütün notariat ofisləri və notariuslar, həmçinin notariat hərəkətlərin rəsmiləşdirilməsi üçün ödənilməli*

*rüsum və haqqın məbləğləri, tələb olunan sənədlər və notariat hərəkətinin aparılmasında iştirak etməli şəxslər barədə məlumat alacaq.*

*Funksiyanın əsas özəlliyi isə şəxsin iştirakçısı olduğu bütün notariat hərəkətləri ilə bağlı sənədlərin vahid mənbədə – mobil telefonda saxlanılması, istənilən vaxt elektron versiyadan istifadə etməsi, eləcə də sənədin qüvvədən düşməsi barədə məlumatı dərhal almasıdır.*

*Dövlət başçısına cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il fevralın 10-da imzalanmış sərəncamın icrası üzrə görülən işlər barədə də məlumat verildi, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında tətbiq olunan elektron nəzarət qurğuları, o cümlədən elektron qolbaqlar nümayiş etdirildi. Hazırda bütün ölkə üzrə 460-dan çox məhkuma elektron nəzarət olunur. Sərəncama əsasən, ictimai işlərin formal icrasının qarşısının alınması, bu sahədə fəaliyyətin səmərəli təşkili ilə bağlı tədbirlər həyata keçirilir.*

*Son illərdə Azərbaycanda məhkəmə sistemində tətbiq edilən yeniliklər beynəlxalq aləmdə təqdir olunur.*

*Bununla əlaqədar ötən il Azərbaycan Avropa Şurasının «Ədliyyənin Kristal Tərəzisi» mükafatına layiq görülüb. Bu il isə Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti vəzifəsinə seçkilər keçirilib. Seçkilər quruma üzv 47 dövlətin nümayəndəsi tərəfindən gizli səsvermə yolu ilə aparılıb və Avropa Şurası tarixində ilk dəfə olaraq bu vəzifəyə Azərbaycan təmsilçisi seçilibdir.*

*Qurumun yeni rəhbəri, hakim Ramin Qurbanov Prezident İlham Əliyev ilə görüşdü.*

*Qeyd edək ki, Avropa Şurasında belə yüksək vəzifəyə seçkilərdə nailiyyətin əldə edilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti və ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları əhəmiyyətli rol oynayıbdır.*

## ABŞERON RAYONU ƏRAZİSİNDƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN SALINMIŞ YAŞAYIŞ KOMPLEKSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*24 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Abşeron rayonu ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişlər.*

*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı sərəncama əsasən, Sumqayıt şəhəri ərazisindəki yataqxanalarda müvəqqəti məskunlaşmış 2900 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi qərara alınıb. Məhəllənin salınmasına 50 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1000 ailənin yerləşdirilməsi üçün 17,5 hektar torpaq sahəsi istifadə edilib. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən həyata keçirilib. Kompleksin inşasına bu ilin martında başlanılıb və*

*tikinti işləri yüksək səviyyədə həyata keçirilibdir. Layihə üzrə 23-ü 42, 1-i isə 35 mənzilli olan 7 mərtəbəli yaşayış binası inşa olunub. Məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri – klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb, geniş abadlıq və yaşıllaşdırma işləri görülübdür. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sistemi, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilibdir.*

*Dövlət başçısına məlumat verildi ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınmış sayca 101-ci şəhərcikdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni kompleksdə mənzillərdə yaradılmış şəraitlə tanış oldular. Qeyd edildi ki, mənzillərdən 77-si birotaqlı, 420-si ikiotaqlı, 406-sı üçotaqlı, 96-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 76 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunubdur. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillərlə təmin olunacaqdır. Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın*

*və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilmiş qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. İndiyə qədər bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülübdür. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilmiş müşavirənin keçirilməsi oldu. Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşmış məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilmiş yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbəsində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı.*

*Sonra dövlət başçısı və xanımı uşaq bağçasında yaradılmış şəraitlə tanış oldular. Qeyd edildi ki, burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar vardır. 140 yerlik bağça uşaqların zövqünə uyğun qu-*

*rulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcəkdir. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Binada videomüşahidə, yanğınxəbərverici sistemlər quraşdırılıb, uşaq bağçası zəruri mebel-inventar və avadanlıqlarla təchiz edilibdir. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib, abadlıq və quruculuq işləri görülübdür.*

*Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İlin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq. Bu da 53500 ailə və ya 300 min qaçqın və məcburi köçkün deməkdir. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə 2074 məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib. Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı – əkinçilik, heyvandarlıq, bitkiçilik, arıçılıq ilə bağlı layihələrə yönəldilib. Ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib. Bununla da məcburi köçkünlər arasında yox-*

*sulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıbdır.*

*Daha sonra yaşayış kompleksində tikilmiş Qubadlı rayonu Mirağa Əliyev adına Hal kənd tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, bu təhsil ocağı 792 şagird-yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər. İdman zalı da zəruri avadanlıqlarla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan vardır. Akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz əhəmiyyəti ilə seçilir.*

*Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün məcburi köçkünlərin problemlərinin həlli işində növbəti önəmli addım atılır. Biz 1000 mənzildən ibarət yeni şəhərciyin istifadəyə verilməsini birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Çox gözəl şəhərcikdir, böyük ərazidə yerləşir. Burada 20-dən artıq çoxmərtəbəli yaşayış binası inşa edilib. Uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzi, təxminən 800 şagirdlik gözəl məktəb – yəni burada normal yaşamaq üçün bütün imkanlar, bütün şərait vardır. Bu şəhərciyin istifadəyə verilməsi bir daha göstərir ki, köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bizim üçün bu, prioritet məsələdir.

Son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atılıb. 300 minə yaxın köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib. Bu məqsədlər üçün dövlət çox böyük vəsait xərcləyib və bu da təbiidir. Çünki mən həmişə demişəm ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır.

Bu il bu istiqamətdə çox böyük işlər görülüb – 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və istifadəyə verilibdir. Artıq köçkünlərin bu evlərə, mənzillərə yerləşməsi prosesinə start verilibdir. Bu, rekord göstəricidir. Biz hər il minlərlə köçkün ailəsini yeni evlərlə, mənzillərlə təmin edirik. Bir daha demək istəyirəm ki, bu il bu, ən yüksək səviyyədə öz həllini tapıb. Bizim vəzifəmiz ondan ibarətdir ki, bütün köçkün

ailələri normal şəraitlə təmin olunsunlar. Bu istiqamətdə böyük işlər görülür – həm Bakıda, həm Sumqayıtda, həm də digər şəhər və rayonlarımızda. Son illərdə 100-dən çox köçkün şəhərciyi tikilib istifadəyə verilibdir. Ancaq o da həqiqətdir ki, hələ də çətin vəziyyətdə yaşayan köçkünlərimiz vardır. Onların problemləri də öz həllini tapacaq. Hazırda Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi bu istiqamətdə öz işini davam etdirir, siyahılar dəqiqləşdirilir və növbəti ildə görüləcək işlərlə bağlı indi hazırlıq tədbirləri aparılır. Gələn ilin dövlət xərclərimizdə köçkünlərin problemlərinin həlli üçün kifayət qədər böyük vəsait nəzərdə tutulubdur.

Onu da bildirməliyəm ki, bu il eyni zamanda, köçkünlərin məişət problemlərinin həlli işində bir yenilik də olub. O da bundan ibarətdir ki, özəl sektor köçkünlər üçün mənzillərin tikintisinə başlayıbdır. Bu il «Qobu Park» köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi idi. Orada da 1000-dən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıbdır. O layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilibdir.

Bu onu deməyə əsas verir ki, biznesin sosial məsuliyyəti də artır. Ümid edirəm ki, növbəti illərdə bizim böyük biznes strukturlarımız bu işlərdə köçkünlərə kömək göstərəcəkdir. Əlbəttə, əsas işi dövlət öz üzərinə götürüb. Köçkünlərin problemlərinin həlli, onların məşğulluğunun artırılması üçün son illərdə milyardlarla manat vəsait xərclənibdir. Ancaq imkanı olan şirkətlər, əlbəttə ki, bu sahədə öz sözünü deməlidir və biz bunu

görürük. Ümid edirəm ki, gələn il də biznes strukturları bu istiqamətdə öz sözünü deyəcək.

Bu il bir neçə yerdə köçkünlər üçün yeni şəhərciklər salınıb. Onların arasında iki layihəni xüsusilə qeyd etmək istərdim. Cocuq Mərcanlı qəsəbəsində işlərin ikinci mərhələsi başa çatıbdır. Bildiyiniz kimi, keçən il mənim iştirakımla Cocuq Mərcanlıda köçkün qəsəbəsinin açılışı olmuşdur. O vaxt biz 50 evin açılışını qeyd etdik. Qarşıya vəzifə qoyulmuşdu ki, evlərin sayı daha da artırılmalıdır. Əlavə 100 evin tikilməsi də bu il təmin edildi. Bu, əlbəttə ki, tarixi hadisədir. Çünki uzun fasilədən sonra Cocuq Mərcanlıda həyat yenidən qurulur, vətəndaşlar öz doğma torpaqlarında yaşayır, qurur, yaradırlar. Bilirsiniz ki, orada bütün infrastruktur yaradılıb, yollar, elektrik xətləri, məktəb, ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilibdir. Biznes üçün də çox gözəl şərait yaradılıb. Hazırda 150 evdən ibarət qəsəbə bizim iradəmizin rəmzinə çevrilibdir. Bu qəsəbənin yaşaması, yenidən qurulması onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Hər bir köçkün bir arzu ilə, bir amalla yaşayır ki, tezliklə öz doğma torpağına qayıtsın. Biz bunu Cocuq Mərcanlı qəsəbəsinin timsalında görürük. Çünki uzun illər başqa yerlərdə yaşamış Cocuq Mərcanlı sakinləri imkan olan kimi, əlbəttə, öz doğma kəndlərinə üz tutdular. Hətta Cocuq Mərcanlını görməyən uşaqlar, yeniyetmələr belə, böyük həvəslə o kəndə üz tutub, orada həyatlarını qururlar.

Digər layihə Tərtər rayonunun Şıxarx qəsəbəsində tikilmiş şəhərcikdir. O şəhərcikdə tikilmiş hündürmər-

təbəli binalar təxminən 1200 mənzildən ibarətdir. O layihənin də əhəmiyyəti ondadır ki, vaxtilə işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda belə böyük, gözəl şəhərcik salınıb. Əlbəttə, hər bir köçkün şəhərciyinin istifadəyə verilməsi önəmli hadisədir və bu bizi, köçkünləri sevindirir. Ancaq mən bu iki layihəni xüsusilə qeyd etmək istəyirəm. Çünki məhz işğalçılardan azad edilmiş torpaqlarda biz bu gözəl şəhərcikləri qurmuşuq. Bu bir daha onu göstərir ki, torpaqlarımız işğaldan azad olunandan sonra biz ermənilər tərəfindən dağıdılmış bütün şəhər və rayonlarımızı, kəndlərimizi bərpa edəcəyik. Buna bizim gücümüz də çatacaq, iradəmiz də vardır. Bizim siyasətimiz, bir daha demək istəyirəm ki, məcburi köçkünlərin problemlərinin həlli işinə dəstək verməkdən ibarətdir. Mən əminəm ki, bu gün hələ də işğal altında olan bütün torpaqlar azad ediləndən sonra o torpaqlarda gözəl şəhərlər, kəndlər yenidən qurulacaq, Azərbaycan xalqı işğalla barışmayacaqdır.

Ermənistanın işğalçılıq siyasəti onları ağır vəziyyətdə qoyub. Bu gün bunu həm dünya görür, həm də regionda baş verən hadisələr göstərir. Ermənistanda uzun illər ərzində – 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal rejim çökdü. Bunun başlıca səbəbi onların işğalçılıq siyasətidir. Çünki biz qarşıya vəzifə qoymuşduq ki, bu kriminal rejim çökməlidir və buna nail olduq. Bütün vasitələrdən istifadə edərək, buna nail olduq. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Ermənistanda kriminal, rüşvətxor xunta rejiminin çökməsində bizim də payımız vardır. Nə

qədər ki, torpaqlarımız işğal altındadır, biz onları təcrid vəziyyətində saxlayırıq və saxlayacağıq da. Digər tərəfdən, Ermənistan iqtisadiyyatı üçün heç bir əsas yoxdur. Biz onları bütün regional layihələrdən təcrid etmişik və bu proses davam etdirilir. Ermənistanda iqtisadi vəziyyət çox ağırdır və bu il orada baş vermiş hadisələrin əsas səbəbi də səfalət, yoxsulluq, ədalətsizlik və özbaşınalıqdır. Demoqrafik baxımdan Ermənistan çox ağır vəziyyətdədir. Bizdə olan məlumata görə, yenə də işğalçılıq siyasəti nəticəsində ölkədən ən azı 1 milyondan artıq vətəndaş həmişəlik ölkəni tərk edibdir.

Ümid edirəm, Ermənistan cəmiyyəti və Ermənistanın yeni rəhbərliyi başa düşəcək ki, ancaq Azərbaycan ilə münasibətləri normallaşdırandan sonra Ermənistanda hər hansı bir iqtisadi inkişaf ola bilər. Normallaşma torpaqlarımızın azad edilməsindən asılıdır və əsas şərtdir.

Biz isə öz gücümüzü, qüdrətimizi artırırıq. Onu da bildirməliyəm ki, Ermənistanın kriminal rejiminin süquta uğramasında bizim hərbi qələbələrimiz də önəmli rol oynayıb. Xüsusilə aprel döyüşləri və ondan sonra bizim digər uğurlu əməliyyatlarımız nəticəsində Ermənistanın əvvəlki rəhbərliyi tərəfindən öz ordusu haqqında yaradılmış mif tamamilə darmadağın edildi. Azərbaycan Ordusu, Azərbaycan əsgəri göstərdi ki, biz döyüş meydanında da qalib gəlirik. Bizim hərbi qələbələrimiz Ermənistanın kriminal rejiminin çökməsində xüsusi rol oynamışdır.

Biz 2019-cu ilə qədəm qoyuruq və ümid edirik ki, bu il Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün önəmli il ola bilər. Amma baxacağıq ki, vəziyyət necə inkişaf edir. Bizim prinsipial mövqemiz dəyişməz olaraq qalır. Ölkəmizin ərazi bütövlüyü qeyd-şərtsiz təmin olunmalıdır, bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. Bunu ədalət, tarix və beynəlxalq hüquq tələb edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz dediyim sözlər öz əksini tapıb ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Biz, əlbəttə ki, xarici müstəvidə öz səylərimizi bu istiqamətdə artıracağıq. Bu il ikitərəfli təmaslar əsasında bir çox ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlarda və imzalanmış sənədlərdə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət göstərilir və münaqişənin bu prinsiplər əsasında həll olunması tələb edilir. Eyni zamanda, Avropa İttifaqı ilə imzalanmış sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox ciddi bəyanatlar vardır. Yəni həm tarixi, həm hüquqi əsaslar bizim mövqemizi dəstəkləyir. Əlbəttə ki, bu gün Ermənistan və Azərbaycan iqtisadi və hərbi cəhətdən fərqli kateqoriyalarda olan ölkələrdir. Eyni zamanda, bölgədə gedən proseslər, bizim qonşu ölkələrlə münasibətlərimizin möhkəmləndirilməsi regionda vəziyyəti bizim xeyrimizə dəyişdirir. Yəni bütün bu amillər deməyə əsas verir ki, 2019-cu ildə münaqişə ilə bağlı müəyyən addımlar atılacaq. Hələ ki, nəsə demək tezdir, ancaq

bir şey tam aydındır: biz prinsipial mövqemizdən çəkilməyəcəyik, öz ərazi bütövlüyümüzün istənilən yolla bərpası bizim suveren hüququmuzdur. Dağlıq Qarabağ və onun ətrafında yerləşən digər işğal edilmiş torpaqlar bizim əzəli, tarixi torpaqlarımızdır və bu, bu gün belədir, sabah da belə olacaqdır. Sadəcə olaraq, keçən əsrin 90-cı illərinin əvvəllərində o vaxt Azərbaycanda hakimiyyəti zəbt etmiş AXC–Müsavat cütlüyünun yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Biz bütün imkanlardan istifadə edirik ki, bu məsələ öz həllini tapsın. Ölkəmizin artan qüdrəti belə gözəl şəhərciklərin bu gün işğal altında olan torpaqlarda tikilməsini yaxınlaşdırır.

Sizin üçün bu, müvəqqəti yaşayış yeridir. Əlbəttə ki, burada gözəl şəraitin yaradılması bizim borcumuzdur. Mən bilirəm ki, siz çox ağır şəraitdə yaşamısınız. İndi burada gözəl şərait yaradılır. Ancaq yenə də bu, müvəqqəti yaşayış yeridir, gün gələcək belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda salınacaqdır.

Mən sizi bu gözəl hadisə münasibətilə, qarşıdan gələn Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

**Nəriman Həmidov** (*məcburi köçkün, Milli Qəhrəman atası*): Cənab Prezident, bu gün bizim se-

vincimizin həddi-hüdudu yoxdur, Siz bizimləsiniz. Sizin məcburi köçkünlərə göstərdiyiniz qayğı bizim nəzərimizdən heç vaxt qaçmaz. Sizin göstərdiyiniz diqqət və qayğı həmişə bizim yadımızdadır. Biz görürük ki, məcburi köçkünlər məsələsi həm dövlətimizin, həm də Prezidentimizin diqqətindədir. Çox şadıq ki, bu gün Sizin ad gününüzdür. Bu münasibətlə Sizi təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram.

Möhtərəm Prezident, ölkəmiz tərəqqidədir. Bu hamımızın gözü qarşısındadır. Ölkəmiz çiçəklənir, inkişaf edir. Bunlar hamısı Sizin daxili və xarici siyasətinizin bariz nümunəsidir. Bütün bunlar dünya miqyaslı siyasi xadim, türk aləminin lideri, ulu öndərimiz Heydər Əliyevin dövlətçilik siyasətini uğurla həyata keçirməyinizin bariz nümunəsidir. Bu siyasət nəticəsində ölkəmiz gündən-günə inkişaf edir, xalqımızın güzəranı, maddi rifah halı yaxşılaşır. Onu da qeyd edim ki, bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Sizi çox istəyir. Siz ulu öndərin siyasi xəttini cəsarətlə davam etdirirsiniz.

Cənab Prezident, Siz çox qayğıkeş, hər bir sahənin inkişafına diqqət yetirən rəhbərsiniz. Ölkəmizdə çoxlu alimlər, yazıçılar, şairlər, mədəniyyət işçiləri, idmançılar vardır. Siz onların hamısının əməyini yüksək qiymətləndirirsiniz, hamısının öz payını, qismətini özünə çatdırırsınız. Bu qismətdən mənə də pay düşübdür. Erməni həmlələrinin qarşısını almaq üçün bizim ordumuz Sizin rəhbərliyiniz altında ayağa qalxdı. O vaxt mənim oğlum da cəbhədə idi. Lələtəpənin alınmasında göstərdiyi şücaətə görə Siz ona

Azərbaycanın Milli Qəhrəmanı adı verdiniz. Çox şadam, bu gün Allah-Taala mənə bu fürsəti verib ki, mən Sizə öz minnətdarlığımı üzbəüz bildirim. Sizə öz adımdan, bütün ailəmiz adından minnətdarlıq edirəm. Çox sağ olun, polkovnik Şükür Həmidov Sizin sərəncamınızla Milli Qəhrəman adına layiq görülüb. Minnətdarlığımı bildirirəm.

Cənab Prezident, bu, tək mənim valideynlik qürurum, sevincim deyil. Bu bizim ordumuzun Sizin rəhbərliyinizlə qələbəsinin nəticəsidir. Eyni zamanda, Siz özünüz də qeyd etdiyiniz kimi, Cocuq Mərcanlıda görülən işlər qayıdışımızın ilk addımıdır. Biz Sizin rəhbərliyinizlə o addımı davam etdirəcəyik.

Belə bir adət var: ad günü olana hədiyyə verərlər. Amma Siz bunun əksinə hərəkət etdiniz, bu şad gündə, Sizin ad gününüzdə bu gözəl, hər şəraiti olan qəsəbəni bizə hədiyyə etdiniz. Çox sağ olun, çox var olun. Sizə uzun ömür, işinizdə müvəffəqiyyət arzulayıram.

Hörmətli Mehriban xanım, mənim yaxşı yadımdadır, Siz Birinci vitse-prezident olanda, ilk yığıncağınızı qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə əlaqədar keçirdiniz. Mən o yığıncaqdakı çıxışınızı dəfələrlə dinləmişəm. Siz Azərbaycan xalqının sevimli qızısınız. Bütün Azərbaycan xalqı Sizi sevir, Sizi alqışlayır. Ölkəmizin daxilində və xaricdə gördüyünüz işlərin hamısı bizə yaxşı məlumdur. Çox sağ olun, bunlar heç vaxt bizim yadımızdan çıxmaz.

Mən bütün qubadlılılar, bütün məcburi köçkünlər adından, möhtərəm Prezidentimiz, Sizi ad gününüz münasibətilə təbrik edirəm, Sizə cansağlığı arzu-

layıram. Arzu edirəm ki, Sizin rəhbərliyinizlə torpaqlarımız yaxın vaxtlarda işğaldan azad olunsun, biz gedək öz ata-baba torpaqlarımızı ziyarət edək, beş gün də yaşamalı olsaq, o torpaqda yaşayaq. Çox sağ olun, çox var olun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**A q i l Q u l i y e v** (*Qubadlı rayonundan məcburi köçkün*): Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə bütün gənclər adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, dövlətimizin daha da güclənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Cənab Prezident, bu əziz gündə Sizin qarşınızda çıxış etmək hər bir Azərbaycan gənci kimi, mənim üçün də böyük şərəfdir və həyatımda tarixi, əlamətdar gündür.

Möhtərəm cənab Prezident, Azərbaycan gəncliyi Sizinlə fəxr edir. Ona görə ki, ümummilli liderimiz, Azərbaycanın, dünyanın dahi siyasi xadimi Heydər Əliyevin keçən əsrin 90-cı illərinin əvvəllərində təlatümlərdən, məhv olmaq təhlükəsindən xilas etdiyi, inkişafının əsasını qoyduğu Azərbaycanı bu gün Siz dünyada, beynəlxalq aləmdə və regionda olan çətin vəziyyətdə, dünyada ikili standartların hökm sürdüyü bir zamanda daha da inkişaf etdirib, uğurdan-uğura aparırsınız.

Möhtərəm cənab Prezident, Siz bu gün Azərbaycanı idman ölkəsinə, mühüm beynəlxalq yarışların, humanitar forumların keçirildiyi multikultural məkana, dünyaya multikulturalizm nümunəsi göstərən bir

ölkəyə çevirmisiniz. Bu gün dünya Azərbaycan multikulturalizmindən bəhs edir və ondan öyrənir.

Möhtərəm cənab Prezident, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu böyük strateji layihələrin – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars kimi layihələrin Sizin rəhbərliyinizlə reallaşdırılması, Sizin müəllifi olduğunuz TANAP, TAP kimi mühüm layihələrin həyata keçirilməsi Azərbaycanı regionun lider dövlətinə, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çeviribdir. Bütün bunlar məhz Sizin böyük siyasi fəaliyyətinizin nəticəsidir. Bu gün biz ona görə fəxr edirik ki, yaşadığımız müstəqil Azərbaycanı dünyanın azsaylı ölkələrindən olan kosmik ölkəyə çevirmisiniz. Bütün bunlar, həmçinin ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin davam etdirilməsi gənclərimizi hər zaman Sizin siyasətinizi qətiyyətlə müdafiə edən cəmiyyətimizin fəal bir zümrəsinə çevirib. Gənclərimiz hər zaman həyatda öz yerlərini tutmaqda Sizə güvənmiş, Sizdən ilham almışlar.

Hörmətli Mehriban xanıma dünyanın diqqətini Azərbaycana yönəltmiş birinci Avropa oyunlarının, IV İslam Həmrəyliyi oyunlarının böyük müvəffəqiyyətlə keçməsi üçün göstərdiyi səylərə görə bütün gənclər adından, məcburi köçkünlər adından dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycanımız gündən-günə inkişaf edir. Biz Sizin bütün istiqamətlərdə, o cümlədən Ali Baş Komandan kimi, ordu quruculuğu sahəsində apardığınız məqsədyönlü siyasət

nəticəsində doğma torpaqlarımızın tezliklə azad olunacağına inanırıq. Biz gənclər, Ali Baş Komandanımızın əmrini səbirsizliklə gözləyən müsəlləh əsgərlərik.

Möhtərəm cənab Prezident, icazə verin, bu gün bu sevinci bizə bəxş etdiyinizə, ad gününüzü bizimlə qeyd etdiyinizə, hər cür şəraitlə təmin olunmuş şəhərciyi köçkünlərə hədiyyə etdiyinizə görə Sizə gənclərin sonsuz minnətdarlığını çatdırım.

Möhtərəm cənab Prezident, bir daha Sizi ad gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə dövlətimizin daha da inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ RASİM LYAYİÇ İLƏ GÖRÜŞ

*24 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Serbiya Respublikası Baş Nazirinin müavini, Ticarət, Turizm və Telekommunikasiya naziri Rasim Lyayiçi qəbul etmişdir.*

*Serbiya Baş Nazirinin müavini, Ticarət, Turizm və Telekommunikasiya naziri Rasim Lyayiç ilk növbədə, Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik etdi, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı. Rasim Lyayiç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdıraraq, Serbiya tərəfinin Prezident İlham Əliyevin Belqrada səfərini səbirsizliklə gözlədiyini bildirdi. O, Belqradda Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyanın beşinci iclasının uğurla keçirildiyini vurğulayaraq, orada əməkdaşlığımızın genişlənməsi ilə bağlı istiqamətlərin müəyyən edildiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Serbiya Baş Nazirinin müavini, Ticarət, Turizm və Telekommunikasiya naziri Rasim Lyayiçin səfərinin əlaqələrimizin perspektivləri ilə*

*bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. Serbiya Prezidenti ilə bu il beynəlxalq tədbirlər çərçivəsində təmaslarını məmnunluqla xatırladan Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətli olduğunu qeyd etdi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyi və iqtisadi sahədə əməkdaşlığın siyasi sahədə əlaqələrin səviyyəsinə yüksəlməsi istiqamətində səmərəli işlərin həyata keçirildiyi bildirildi, əməkdaşlığımızın bütün sahələrdə, o cümlədən infrastruktur, kənd təsərrüfatı, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində dinamik şəkildə inkişaf etdiyi qeyd olundu.*

*Dövlətimizin başçısı Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## BAKI «AĞ ŞƏHƏR»DƏ GÖRÜLMÜŞ İŞLƏR VƏ LAYİHƏLƏRLƏ TANIŞLIQ

*24 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Bakı «Ağ şəhər»də 110 kilovoltluq «Ağ şəhər-2» və «Bakıxanov» yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, eləcə də «Ağ şəhər» piyada körpüsünün və Zaman meydanının təməlqoyma mərasimində iştirak etmiş, tikintisi yekunlaşan Fəvvarələr Meydanı parkı ilə tanış olmuşlar.*

*Əvvəlcə dövlət başçısı «Ağ şəhər-2» yarımstansiyasının açılışını etdi.*

*«Azərişıq» ASC-nin sədri vəzifəsini icra edən Vüqar Əhmədov dövlət başçısına məlumat verdi ki, «Ağ şəhər» layihəsinin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təchiz olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir. «Ağ şəhər» layihəsinin elektrik təchizatı üzrə qoyuluş gücü 250 meqavat təşkil edir və layihə çərçivəsində 110 kilovoltluq 4 və 35 kilovoltluq 46 yarımstansiyanın tikintisi nəzərdə tutulur. Artıq 110/35/10 kilovoltluq 100 meqavoltamper gücündə «Ağ şəhər-2» yarımstansiyasının inşası yekunlaşıbdır.*

*Qeyd edək ki, «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin bütün yeni inşa olunan qapalı tipli yarımstansiyaları kimi, «Ağ şəhər-2» yarımstansiyasının da memarlıq görünüşü, texniki və texnoloji sahələri xüsusi layihə əsasında yaradılıb. Yarımstansiyada ehtiyat nəzərə alınmaqla, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular, hər biri 50 meqavoltamper gücündə 2 transformator vardır. Azərbaycanda ilk dəfə məhz «Ağ şəhər-2» yarımstansiyasında yanğından mühafizə məqsədilə yağın transformatorlardan təcrid edilməsi və yanğının anındaca qarşısının alınması üçün avtomatik rejimdə işləyən qurğular quraşdırılıb. Mərtəbələrarası xüsusi kabel keçidləri, həmçinin ehtiyat giriş-çıxışları olan kabel zirzəmisi inşa olunub. Xüsusi dispetçer idarəetmə mərkəzi yaradılıb. Yarımstansiya elektron tipli «rele» mühafizəsi və avtomatika sistemi ilə təchiz edilib, optik kabel çəkilib və məsafədən idarəolunan SCADA dispetçer idarəetmə sisteminə qoşulubdur. «Ağ şəhər-2» yarımstansiyasının qidalandırılması üçün «Ağ şəhər-1» yarımstansiyasından 110 kilovoltluq iki dövrəli kabel xətti çəkilib. Bu energetika qurğusunu digər 110 kilovoltluq yarımstansiyalardan fərqləndirən əsas texnoloji fərq odur ki, 110 kilovoltluq bölmə ABB şirkətinin istehsalı olan eleqaz izolyasiyalı qapalıtipli yuvalardan və ayırıcılardan ibarətdir. Bu tip qapalı paylayıcı qurğuların istismar müddəti açıqtipli qurğulardan 3 dəfə çox olmaqla, istismarı təhlükəsizdir və mükəmməl şəbəkəyə inteqrasiya oluna bilir.*

*«Ağ şəhər-2» yarımstansiyası vasitəsilə 75 min abonentin elektrik təchizatı həyata keçiriləcəkdir. Həmçinin ərazidə yeni inşa olunan sosial obyektlər, hotellər, əyləncə kompleksləri, «Ağ şəhər» bulvarı, yeni layihələndirilən tikinti obyektləri, yaşayış kompleksləri «Ağ şəhər-2» yarımstansiyası vasitəsilə enerji ilə təchiz olunacaq. «Ağ şəhər-2» yarımstansiyası ilə yanaşı, layihə çərçivəsində Bakı «Ağ şəhər»də 35/0,4 kilovoltluq 7 yarımstansiya da inşa edilibdir.*

*Sonra Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə «Ağ şəhər-2» yarımstansiyasını və 110/35/10 kilovoltluq «Bakıxanov» yarımstansiyasını işə saldı.*

*Dövlət başçısına məlumat verildi ki, ötən əsrin 70-ci illərinin ortalarında o dövrün elektrik enerjisi tələbatına uyğun tikilərək, istifadəyə verilmiş 110/35/10 kilovoltluq «Bakıxanov» yarımstansiyasının köhnə avadanlıqları müasir tələblərə cavab vermədiyindən və istismar müddətini bitirdiyindən tamamilə yenidən qurulubdur.*

*Qeyd edək ki, Bakıxanov qəsəbəsinin istehlakçıları və onların tələbatı 30 il müddətində 10 dəfələrlə artıb. Bakıxanov qəsəbəsi ilə yanaşı, Bülbülə və Qaraçuxur qəsəbələrinin bir hissəsinin bu yarımstansiyadan qidalanması onun yenidən qurulmasını günün tələbinə çevirmişdir. Odur ki, yarımstansiya yenidən qurulmaqla yanaşı, onun mövcud 35 kilovoltluq elektrik şəbəkələri ilə əlaqələnmə sxemi daha dayanıqlı və etibarlı vəziyyətə gətirilib. Beləliklə, yeni «Bakıxanov» yarımstansiyası hazırda elektrik enerjisi ilə təchiz edilən bütün növ mövcud istehlakçılarla yanaşı, perspektivdə*

*yaranacaq əhali və qeyri-əhali abonentlərin elektrik enerjisi təminatını daha keyfiyyətli və dayanıqlı formada həyata keçirmək üçün də bütün imkanlara malikdir.*

* * *

*Sonra Birinci Fəvvarələr küçəsinin açılışı oldu.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verdi ki, yeni yollar salınarkən ərazidə mazutlu və texnogen mənşəli yararsız qrunt 2 metrə qədər dərinlikdə qazılaraq çıxarılıb və ərazidən uzaqlaşdırılıbdır. Əvəzində isə yararlı karxana materiallarından yol geyiminin əsası inşa olunub. Ümumilikdə 2018-ci ildə 550 min kubmetr yararsız material qazılaraq, ərazidən uzaqlaşdırılıb və əvəzində 400 min kubmetr yararlı karxana materiallarından istifadə edilibdir. Bakı «Ağ şəhər»in ərazisində layihəyə uyğun olaraq, 22,4 kilometr uzunluğunda 16–47 metr enində 2, 4 və 6 hərəkət zolağından ibarət olan 63 avtomobil yolunda işlər davam etdirilib. Ümumi uzunluğu 1420 metr olan Birinci Fəvvarələr, Birinci Yaşıl Ada, İkinci Yaşıl Ada, Altıncı Park və Mərkəzi Şərq küçələrində 550 min kubmetr torpaq işi görülüb, 36 min kvadratmetr sahəyə asfalt-beton döşənib, inşaat işlərində 400 min kubmetr karxana materiallarından istifadə edilib, 22 min kvadratmetr səki salınıb, 150 işıq dirəyi quraşdırılıb, yollar boyunca müxtəlif növ 240 ağac əkilibdir.*

*Sonra Prezident İlham Əliyev Birinci Fəvvarələr küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Ağ şəhər» yollarının təmir işləri çərçivəsində cari ildə Birinci Fəvvarələr küçəsinin Nobel prospektinə çıxışı təmin olunub. Uzunluğu 560, eni isə 32 metr olan bu küçə Yaşıl Ada və Fəvvarələr Meydanı kvartallarını kəsir və şimalda Mərkəzi Bulvar küçəsinə, cənubda isə Nobel prospektinə çıxır. Dördzolaqlı Birinci Fəvvarələr küçəsində digər küçələrdə olduğu kimi, avtodayanacaq və piyadaların təhlükəsizliyi də nəzərə alınıb. Burada layihəyə uyğun olaraq, yolaltı infrastruktur işləri – çirkab və yağış suları kollektorları, elektrik xətləri, qaz təminatı boruları və İT kanal sistemləri çəkilib. Küçənin adı səkilərdə daş nişanlarla qeyd edilib, vətəndaşları istiqamətləndirən yolgöstəriciləri quraşdırılıbdır. Səkilərdə yaşıllıqlar, arabalar üçün panduslar salınıb, həmçinin avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulubdur. Yeddimərtəbəli binaları əhatə edən küçənin Nobel prospektinə birləşən 90 metrlik hissəsində istinad divarı tikilibdir.*

* * *

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tikintisi yekunlaşan Fəvvarələr Meydanı parkı ilə tanış oldular. Bakı «Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına məlumat verdi ki, təməli 2016-cı ilin dekabr ayında Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən*

*qoyulmuş Fəvvarələr Meydanı parkı piyada keçidi və 800 yerlik ictimai parkinq kompleksinin bir hissəsidir. Tikintisi əsasən başa çatmış Fəvvarələr meydanı kvartalının mərkəzində yerləşən parkda geniş istirahət zonaları, 3 fəvvarə kompleksi, uşaqların təhlükəsiz əyləncəsi üçün geniş meydança, gözəl landşaft dizaynı mövcuddur. Bakı «Ağ şəhər»in hər bir guşəsində olduğu kimi, burada da klassika, müasirlik və qarışıq üslub, müxtəlif «nou-hau»lar, «hay-tek»lər, tikinti materiallarının incə zövqlə seçimi, özünəməxsus memarlıq elementləri, ritmiklik, zəriflik, funksionallıq, konstruktivlik, elmi-texniki yeniliklərin tətbiqi, hər addımda nəfis ideyalar və bir-birindən üstün çalarların yer alması özünü qabarıq göstərir. Parkın bəzi hissələri «Qara şəhər»in keçmiş tikililərindən qalma daşlarla döşənib. Parkda «Ağ şəhər» layihəsi və ərazinin tarixi olan «Qara şəhər» haqda məlumatlandırıcı lövhələr, küçə saatı, termometr, xatirə medalyonu quraşdırılıb. Burada 2018-ci ilin sentyabrında Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş «Daşın nəğməsi» üçüncü Beynəlxalq Heykəltəraşlıq Simpoziumu çərçivəsində təqdim edilmiş heykəl qoyulub. Fəvvarələr Meydanı parkı və piyada keçidi «Ağ şəhər» boyunca piyadaların gəzintisi və mənalı istirahətinə geniş imkanlar açacaq. Belə ki, piyadalar şimalda yerləşən Babək prospektindən Mərkəzi Park rayonu, Fəvvarələr meydanı və Nobel prospekti üzərindən körpü vasitəsilə birbaşa «Ağ şəhər» bulvarına qədər 2 kilometrlik maneəsiz gəzintiyə çıxa biləcəklər. Piyadalar, həmçinin körpüdə yerləşdiriləcək eskalator və liftlər vasitəsilə metronun «Ağ şəhər»*

*stansiyasına rahat gediş-gəliş əldə edəcəklər. Eni 7–14 metr, uzunluğu isə 237 metr olan körpünün üst qatı cənubda «Baku City Mall» alış-veriş mərkəzinə, şimalda Fəvvarələr meydanının mərkəzinə, Birinci Fəvvarələr küçəsinə, körpünün alt qatı isə Nobel prospektində yerləşən Zaman meydanına çıxacaqdır.*

*Sonra dövlət başçısına ötən illərdə «Ağ şəhər»də həyata keçirilən və perspektivdə reallaşdırılması nəzərdə tutulan layihələr barədə məlumat verildi.*

*Qeyd olundu ki, Bakı «Ağ şəhər» layihəsi ərazisində Xəzər dənizindən 25 metr hündürlükdə yerləşən ərazidə də inşaat işləri davam edir. Burada tikilən 20 mərtəbəli yaşayış binalarının hündür podiumlarının üzərində istirahət və yaşıllıq zonaları, uşaq meydançaları olacaq. Hazırda tikinti, quruculuq və abadlıq işləri aparılır. Nizami parkının yaxınlığında bu rayonda «Knightsbridge (Naytsbric) Residence» kompleksinin tikintisi davam edir. Bu kompleksdə yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi planlaşdırılıb. Park rayonunun sakinlərə təhvili 2019-cu ilin sonunda gözlənilir. Babək prospektindən başlanan yeni Mərkəzi Şərq küçəsi Babək kvartalını iki hissəyə bölür. Eni 37, uzunluğu 470 metr olan Mərkəzi Şərq küçəsində yerləşəcək yeni Qarabağ Atları meydanının layihəsi hazırdır. Kvartalın mərkəzinə çevriləcək meydanda sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılacaq, burada mağazalar, kafelər və mərkəzində 7 atdan ibarət fəvvarələr kompleksi inşa olunacaqdır.*

*2018-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq sərəncamı çərçivəsində layihənin qərbində yerləşən 26,7 hektar xaotik tikintili və infrastrukturu olmayan yeni ərazinin texniki inventarlaşdırılması aparılıb, Şəhərsalma və Arxitektura Komitəsinin tövsiyələri əsasında inşa olunacaq tikililərin memarlıq göstəriciləri, şəhərsalma, nəqliyyat və digər infrastrukturu «Ağ şəhər» layihəsi ilə uzlaşdırılıb və müfəssəl planı hazırlanıbdır. Bununla yanaşı, inşa olunacaq çoxsaylı bina, yol, park, məktəb, servis obyektləri, digər ərazi-planlaşdırma və infrastruktur işlərinin layihələndirilməsi də yerinə yetirilərək, cari ildə nəzərdə tutulan bütün işlər yekunlaşdırılıb. Ərazisi 7800 kvadratmetr olan Zaman meydanı şimal tərəfdən gözəl landşaft və fəvvarələr kompleksi ilə əhatə olunacaq. Metronun «Ağ şəhər» stansiyasının çıxışlarından biri də burada yerləşir. Meydan xüsusi sifariş edilmiş çoxsaylı saatlarla bəzədiləcəkdir.*

* * *

*Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Ağ şəhər» piyada körpüsünün və Zaman meydanının təməlini qoydular.*

*Təməlqoyma mərasimindən sonra xatirə şəkli çəkdirildi.*

*Bakı «Ağ şəhər»də ötən müddətdə həyata keçirilmiş işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi, hər il geniş qeyd etdiyimiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi səmimi-qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni və mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbay-

canı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilibdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının «Doing Business–2019» hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, 10 ən islahatçı dövlət siyahısına daxil edilibdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunubdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan «Cənub Qaz Dəhlizi»nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt–Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki «Azərspace-2»nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq, qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2018-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş sunami nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2018-ci il*

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN POLİS AKADEMİYASINDA YENİ TƏDRİS BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dekabrın 25-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışında iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov dövlət başçısına raport verdi.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Polis Akademiyasının meydanında ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Dövlət başçısı yeni tədris binasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılmış şəraitlə tanış oldu.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov tədris binasında yaradılmış şərait barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, yeni tədris binasının inşası 2016–2018-ci illərdə aparılıb. Altımərtəbəli bina müasir səviyyədə və yüksək zövqlə inşa olunub. 7000 kvadratmetrə yaxın sahəsi olan binada təlim-tədris üçün hər cür şərait yaradılıb. Burada 138 nəfərlik oxu zalı və elektron*

*kitabxana müdavimlərin ixtiyarına veriləcək. Bina liftlər, havalandırma, videomüşahidə, səs-anons sistemləri, eləcə də elektron lövhələr və tədris prosesi üçün zəruri olan digər ləvazimatlarla təchiz edilib. Burada müasir akustik sistemin qurulduğu 252 nəfərlik iclas zalı yaradılıb. Zalda akademiyanın həyatında baş verən əlamətdar hadisələri qeyd etmək üçün hər cür şərait mövcuddur.*

*Yeni binada ümumilikdə 1400 kursant-yerlik 11 mühazirə zalı vardır. Burada elektron jurnal tətbiq edilir. Bütün kursantlar bu elektron jurnalda qeydiyyatdadır və onlar haqqında məlumat xidməti vəsiqələr vasitəsilə burada əks olunur. Bütün tədris proqramının daxil olduğu jurnalda kursantlar imtahan vaxtları və digər mövzularla bağlı məlumat ala bilirlər. Eyni zamanda, müəllimlər kursantların dərsə davamiyyətinə bu jurnal vasitəsilə nəzarət edirlər. Elektron jurnal həm də ümumilikdə auditoriyaya nəzarət etməyə imkan verir.*

*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası 1992-ci ildə yaradılıb və nazirliyin birbaşa tabeliyində olan dövlət ali təhsil-elm müəssisəsidir. Bu tədris müəssisəsi 1921-ci ildən milis nəfəri və komandir kadrları, 1957-ci ildən isə orta təhsilli hüquqşünas hazırlayan milis məktəbi kimi fəaliyyət göstərib. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə milis orqanlarına göstərdiyi qayğı və tələbkarlıq sayəsində Bakı Xüsusi Orta Milis Məktəbi və onun maddi-texniki bazası inkişaf edib, kadr cəhətdən möhkəmlənib və*

*Akademiya səviyyəsinə qədər yüksəlibdir. Maddi-texniki bazası nəzərə alınaraq, 1995-ci ildə Akademiyaya Nazirlər Kabinetinin qərarı ilə birinci kateqoriyalı ali təhsil müəssisəsi dərəcəsi verilibdir.*

*Yeni tədris binasında kriminalistik təlim şəhərciyindəki müasir şərait müəllimlərə maddi sübutun götürülməsi, ayaq, əl və digər izlər barədə məlumatların toplanılması, polis əməkdaşının davranış qaydaları, əməliyyat və xidmət zamanı digər zəruri hərəkətlər haqqında kursantlara əyani surətdə məlumat vermək imkanı yaradır. Burada şərait maksimal dərəcədə real vəziyyətə uyğunlaşdırılıb. Şəhərcikdə təlimlərin keçirilməsi üçün şərti olaraq mənzil, ofis, mağaza, bank, küçə və kafe yaradılıbdır.*

*Bu gün ölkədə qanunun aliliyinin təmin olunması, asayişin mühafizəsi istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm işlər görülür. Bu sahədə fəaliyyət göstərən dövlət qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb. Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının inşa olunması da bu sahədə görülən işlərdəndir. Bütün bunlarla yanaşı, hüquq-mühafizə orqanlarında çalışan əməkdaşların peşəkarlığının artırılması, onların sosial məsələlərinin həlli də dövlətimizin daim diqqət mərkəzindədir.*

*Prezident İlham Əliyev, həiçinin xidməti istifadə üçün alınan yeni avtomobillərə baxdı.*

*Məlumat verildi ki, Yol Patrul Xidməti üçün «Mercedes» markalı 118 avtomobil alınıb. Onlardan 75-i*

*«Mercedes» C-300, 4-ü E-450, 39-u isə E-350 modelidir. Bu avtomobillərin hamısında yeni «i-patrul» sistemi quraşdırılıb. Bu sistem texniki xüsusiyyətlərinə görə əvvəlkilərdən xeyli fərqlənir. Yol Patrul Xidməti avtomobilinin dayandığı, eləcə də hərəkət etdiyi hallarda fasiləsiz qaydada fəaliyyət göstərmək imkanına malik olan sistem ətrafı 360 dərəcə əhatə edən 9 videonəzarət kamerası ilə təchiz olunub. Sistemin daxilində qarşıdakı 5 zolaqda hərəkət edən nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarını və sürətlərini avtomatik rejimdə qeydə alan radar quraşdırılıb. Həmçinin avtomobillərdə yan istiqamətlərdə «nömrətanıma», gecə görüntüsü üçün 30 metrlik məsafəni əhatə edən infraqırmızı görünməz işıqlandırma sistemləri və GPS modulu vardır. Sistemin dayanıqlı daxili kompüter qurğusu bütün proseslərin avtomatlaşdırılmış rejimdə aparılmasına imkan verir. Eyni zamanda, Yol Patrul Xidməti avtomobilinə perpendikulyar istiqamətdə sağ və sol tərəflərdə dayanmış nəqliyyat vasitələrinin də nömrə nişanları oxunur. Bu sistem nömrəsi və sürəti oxunmuş nəqliyyat vasitələri barədə məlumatı cari tarix, saat və GPS koordinatı da əlavə etməklə, mərkəzi serverdə arxivləşdirir. Sürət həddini aşmış nəqliyyat vasitələri barədə məlumat sistemin mobil rabitə şəbəkəsi vasitəsilə dərhal Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi İnformasiya Sisteminə ötürülür.*

*Məlumat verildi ki, Post Patrul Xidməti üçün «Mercedes Citan» markalı 60 avtomobil alınıb. Bu avtomobillər də zəruri texniki avadanlıqlarla təchiz olunub. Daxili İşlər Nazirliyinin müvafiq strukturla-*

*rında digər xidmətlər üçün Azərbaycan istehsalı olan «Khazar» LD avtomobilləri də alınıbdır.*

*Qeyd edək ki, yeni tədris korpusunun inşası zamanı ərazidə təntənəli mərasimlər üçün 140 nəfərlik tribuna yenidən qurulub, geniş abadlıq-quruculuq işləri görülübdür. Burada görülən işlər bir daha sübut edir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə daxili işlər orqanları üçün yüksəkixtisaslı kadrlar hazırlayan Polis Akademiyasının fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində son illərdə mühüm islahatlar aparılır və bu sahədə iş davamlı xarakter alıbdır.*

## «ROSSİYA-24» TELEKANALINA MÜSAHİBƏ

*25 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Rossiya-24» telekanalına müsahibə vermişdir.*

**M ü x b i r:** Cənab Prezident, salam.

**İ l h a m Ə l i y e v:** Salam.

**M ü x b i r:** 2018-ci il dünya üçün asan keçmədi. Amma bu, tarixi tərəfdaşlarla, qonşularla və dostlarla münasibətlərin əhəmiyyətini dərk etmək və qiymətləndirmək üçün yaxşı məqamdır. Buna görə də bizə çox xoşdur və Sizə xüsusilə minnətdarıq ki, sıx iş qrafikinə baxmayaraq, vaxt tapıb bu gün burada bizi qəbul edirsiniz.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S u a l: Cənab Prezident, 2018-ci ilin Azərbaycan üçün siyasi-iqtisadi yekunlarını necə qiymətləndirərdiniz?**

**C a v a b:** Bütövlükdə il ölkəmiz üçün uğurlu olub. Azərbaycan uğurla inkişaf edib. Biz beynəlxalq miqyasda əsas tərəfdaşlarımızla, ilk növbədə, qonşu ölkələrlə ənənəvi münasibətimizi möhkəmləndirmişik. Xəzər dənizinin hüquqi statusunun nizamlanması haqqında Konvensiya imzalanıb. Hesab edirəm ki, bu, Xəzəryanı ölkələri bir-birinə daha da yaxınlaşdıran tarixi sənəddir.

İl bizim üçün ikitərəfli formatda fəal keçdi. Biz xeyli ikitərəfli görüşlər keçirmişik, beynəlxalq təşkilatlar

daxilində fəal iştirak etmişik. «Qoşulmama Hərəkatı»nın üzvü olan ölkələrin Xarici İşlər nazirləri səviyyəsində Bakıda beynəlxalq forum keçirilib. Gələn il sammit keçiriləcək və Azərbaycan gələn il bu iri beynəlxalq təşkilata rəhbərlik edəcəkdir.

Daxili-siyasi proseslər nöqteyi-nəzərindən ölkə uğurla inkişaf edib. Azərbaycanın daxilində potensial risklər mövcud deyil. Xarici potensial risklərə gəlincə isə, biz onlardan özümüzü qoruya bilirik. Əlbəttə ki, həmişəki kimi, iqtisadi islahatlara böyük əhəmiyyət vermişik. Fikrimcə, 2018-ci il bu cəhətdən çox mühüm il olub. Demək kifayətdir ki, Dünya Bankının «Doing Business» hesablamalarına görə, bu il ərzində Azərbaycan 32 pillə irəliləyərək, dünyada 25-ci yeri tutub. Yəni bu o deməkdir ki, biznesin asanlaşdırılması, şəffaflıq, sahibkarlığa dəstək istiqamətində aparılan islahatlar yaxşı nəticələr verir. Bu, əlbəttə ki, investisiya reytinqimizi yüksəldir. Bu il biz 10 milyard dollar investisiya cəlb etmişik. Bu, sərmayədarlarda əminlik yaradır, bizim islahatlar siyasətini davam etdirməkdə qətiyyətimizi də nümayiş etdirir. İnflyasiya 2 faizdən bir qədər çox olub. Əhalinin gəlirləri 9 faizdən çox artıb. Biz valyuta ehtiyatlarımızı artırmışıq, ümumi daxili məhsulun 20 faizi qədər olan xarici borcu məqbul səviyyədə saxlamışıq. Yaxın illər üçün xarici borcun ümumi daxili məhsulun 10 faizə qədəri səviyyəsində saxlanılması üçün strategiya hazırlanıb. Fikrimcə, bu tamamilə realdır. Bununla əlaqədar onu da deməliyəm ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan, demək olar ki, 5 dəfə artıqdır. Əgər istəsək, bütün borc-

larımızı azı 1 il ərzində ödəyə bilərik. Yəni makroiqtisadi vəziyyət sabitdir. Biz xeyli sosial məsələləri həll etmişik. Bu il 6000-ə qədər məcburi köçkün ailəsi yeni ev və mənzillərlə təmin olunub. Təxminən 30 minə yaxın insan, yəni bizim cəmiyyətimizin daha çox ehtiyacı olan hissəsinin nümayəndələri üçün bu il ərzində kiçik şəhər tikilib. Mən bu siyahını davam etdirə də bilərəm, amma düşünürəm ki, dediklərim bizim inkişafın əsas istiqamətlərini səciyyələndirir.

**S u a l: Güman edirəm ki, MDB məkanında iqtisadiyyatı inkişaf etməkdə olan ölkələr qarşısında olduğu kimi, Azərbaycanın, həmçinin Rusiyanın qarşısında iqtisadi tempi 1–3 faiz artırmaq vəzifəsi durur. Bu, 2018-ci il ərzində ümumi daxili məhsulun artım göstəriciləri üçün gözlənilən haldır. Bu gün sıçrayış üçün hansı potensialı görürsünüz? Yəni əgər orta dünya iqtisadi artım templəri 3 və daha artıq təşkil edirsə, onda aydındır ki, bizim ölkələrimiz qlobal iqtisadiyyatda geri qalmamaq üçün bu göstəriciyə yaxınlaşmalıdır.**

**C a v a b:** Bəli, siz tamamilə haqlısınız. Biz bu istiqamətdə göstəricilərimizi qiymətləndirərək, gələcək addımlarımızı planlaşdıranda həmişə qeyri-neft sektorunu neft sektorundan ayırırıq. Çünki neft sektoru həm qiymət dəyişikliklərinə, həm də neft hasilatının müəyyən artımına, yaxud azalmasına məruz qalır. Azərbaycan «OPEK+» proqramının fəal iştirakçısıdır və biz bu yaxınlarda bütün ölkələrlə həmrəylik nümayiş etdirmək üçün hasilatın azaldılması üzrə üzərimizə

əlavə öhdəliklər götürmüşük. Buna görə də həmin amillərə əsaslanaraq, biz həmişə qeyri-neft iqtisadiyyatına və qeyri-neft sənayesinə daha çox diqqət yetiririk. Fikrimcə, bizim bu istiqamətdə də nəticələrimiz xeyli yaxşılaşacaq. 11 ayın yekunlarına görə biz qeyri-neft sənayesinin artımını 9 faizdən çox həcmdə görürük. Bu, ilk növbədə, bizim qeyri-neft sektoru, kiçik və orta sahibkarlıq, fermerlər üçün sərfəli şəraitin yaradılması üzrə sənayeləşdirmə proqramımızın nəticəsidir. Bizim fermerlər torpaq vergisindən başqa, bütün vergilərdən azaddırlar. Dövlət güzəştli şərtlərlə gübrə, yanacaq və istehsalata böyük subsidiyalar ayırır ki, biz kənd təsərrüfatı məhsullarının ixracı baxımından mühüm ölkəyə çevrilək. Buna görə də bizim iqtisadiyyatımızın gələcək inkişafı neft-qaz sektoru ilə dəstəklənəcək, lakin dayanıqlı inkişaf sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalarla bağlı olacaqdır.

Mən bu ilin əlamətdar hadisələrindən biri kimi, orbitə 3-cü peykin buraxılmasını qeyd edərdim. Azərbaycan artıq beynəlxalq kosmik klubun fəal üzvüdür. Bizim artıq 3 peykimiz vardır və bu da niyyətlərimizdən və uğurlarımızdan xəbər verir.

**S u a l: Burada birinci plana Rusiya ilə xüsusi münasibətlər çıxır. Qeyri-neft sektorunda əməkdaşlığımız prioritet olduğuna görə bu, uzunmüddətli perspektivdir. Siz bu il Rusiya lideri ilə 6 dəfə görüşmüsünüz. Bu onu göstərir ki, hər iki tərəf bu qarşılıqlı fəaliyyətin, bu əlaqələrin əhəmiyyətini başa düşür. Yaşıl dəhlizlərin yaradılması, o cümlədən ilk növbədə, kiçik və orta**

**biznes baxımından qarşılıqlı ticarət üçün məhdudiyyətlərin götürülməsi şərtləri müzakirə olunur. Əsas qərarları və zaman oriyentirlərini Siz indi nədə görürsünüz? Bu qərarlar nə vaxt qəbul olunmalıdır?**

**C a v a b:** Bəli, siz haqlısınız. Bu il Rusiya–Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib. Bizim münasibətlərimiz prinsipcə çox dinamik inkişafla, sabitliklə, davamlı olması ilə səciyyələnir. Biz mehriban qonşu və etibarlı dostuq, bu, dəfələrlə sübut olunub. Bu yüksək etimad səviyyəsi və siyasi qarşılıqlı fəaliyyət bir çox layihələrin həyata keçirilməsinə kömək edir. Siz doğru qeyd etdiniz, mən Prezident Vladimir Vladimiroviç Putinlə 6 dəfə, o cümlədən mənim Rusiyaya rəsmi səfərim çərçivəsində və onun Azərbaycana səfəri çərçivəsində, eləcə də beynəlxalq tədbirlərdə görüşmüşəm. Bu görüşlərdən hər biri nəticə verib. Biz əmtəə dövriyyəsinin artırılması məsələsinə çox ciddi yanaşmışıq. Qarşılıqlı fəaliyyətin müxtəlif istiqamətlərinin inkişafı üzrə yol xəritələri işlənib hazırlanıb. Mən şadam ki, bu gün həm Azərbaycan, həm də Rusiya sərmayədarları ölkələrimizin iqtisadiyyatına investisiya qoyurlar. Birgə istehsalatların yaradılması, əmtəə dövriyyəsinin artırılması üçün çox güzəştli şərait yaradılır. Rusiya bankları böyük həcmdə, yüz milyon dollarla Azərbaycanın mühüm sənaye layihələrini maliyyələşdirir. Bu həm bizim münasibətlərin, həm də Azərbaycanın məhz elə ölkə olmasının göstəricisidir ki, burada banklar pul itirməkdən qorxmur. Biz həmişə öz öhdəliklərimizə görə cavab veririk.

Biz 2019-cu il üçün planları müəyyənləşdirmişik. Lap bu yaxınlarda Moskvada Rusiya–Azərbaycan hökumətlərarası birgə Komissiyanın növbəti iclası keçirilib. Bu il həm də Rusiya və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda Rusiya–Azərbaycan Regionlararası Forumu keçirilib. Yəni bu da bizim əməkdaşlığımızın, Rusiyanın regionları ilə fəal qarşılıqlı fəaliyyətin və onlarla ticari-iqtisadi münasibətlərin qurulmasının mühüm istiqamətidir. Düşünürəm ki, ikitərəfli ticarətə bizim birgə nəqliyyat təşəbbüslərimiz ciddi təkan verəcək. Şimal–Cənub layihəsi artıq reallaşır. Təkcə bu il biz Azərbaycan vasitəsilə Rusiyadan və Rusiyaya tranzitin 10 dəfə artdığını görürük, o cümlədən, bizim yük göndərənlər bu nəqliyyat arteriyasından fəal istifadə edirlər. Yəni biz öz münasibətlərimizə kompleks yanaşırıq. Təməl bizim tarixi dostluğumuzdur. Biz bu təməl üzərində siyasi münasibətlərin çox ciddi bazasını qurmuşuq və ticari-iqtisadi, nəqliyyat, energetika sahələrində, əlbəttə ki, humanitar sahədə əməkdaşlıq münasibətlərinin inkişafı üzrə dəqiq anlaşmamız vardır. Deməliyəm ki, rusiyalılar Azərbaycana gələn turistlərin sayına görə birinci yeri tutur.

**M ü x b i r:** Onları da anlamaq olar.

**İ l h a m  Ə l i y e v:** Bəli, bu il 800 mindən çox rusiyalı ölkəmizə gəlib və özlərini evdəki kimi, çox rahat hiss edirlər. Belə ki, bizim münasibətlərimiz çox zəngindir və düşünürəm ki, qonşuların öz münasibətlərini necə qurması üçün yaxşı nümunədir.

**M ü x b i r:** Cənab Prezident, Siz xatırlatdınız ki, gələn il Azərbaycan «Qoşulmama Hərəkatı»na rəhbərlik edəcək. Amma bu imkandan Avrasiya İqtisadi İttifaqı ilə münasibətləri inkişaf etdirmək üçün də istifadə etmək olar. Bu da elə ərazidir ki, onsuz keçinmək olmur və burada münasibətləri, əlaqələri təkcə ikitərəfli əsasda deyil, həm də Avrasiya cəmiyyəti çərçivəsində möhkəmləndirmək imkanları vardır.

**İ l h a m Ə l i y e v:** Bəli, sözsüz, biz bu istiqamətdə işləyirik. Deməliyəm ki, bizim Avrasiya İttifaqının üzvü olan ölkələrin mütləq əksəriyyəti ilə çox sıx dostluq, o cümlədən ticari-iqtisadi sahədə münasibətlərimiz vardır. Bizim həmin ölkələrlə azad ticarət haqqında müqaviləmiz mövcuddur. Əlbəttə, bizim əsas ticari-iqtisadi tərəfdaşımız Rusiya Federasiyasıdır. Bizdə azad ticarət formatı da mövcuddur. Buna görə də biz, əlbəttə, əməkdaşlıq potensialını gücləndirəcəyik. İndiki mərhələdə bu əməkdaşlıq daha çox ikitərəfli xarakter daşıyır, bəzən də üçtərəfli, amma daha geniş deyil. Gələn il hadisələrin necə davam edəcəyini və konkret nəticələri zaman göstərəcək. Amma, əlbəttə ki, «Qoşulmama Hərəkatı»nın sədr ölkəsi kimi, biz beynəlxalq arenada öz rolumuzu artıracağıq. Əlbəttə, çalışacağıq ki, Azərbaycana tərəfdaş ölkələr bizə necə dəstək göstərirlərsə, onlar da bizim tərəfimizdən eyni dəstəyi alsınlar.

**S u a l: Sizin enerji layihələrinizi və dünya bazarında enerji ambisiyalarınızı xatırlatmaya bilmərəm. Bu gün biz bir çoxları üçün nadir sayılan Rusiya–Türkiyə–Azərbaycan birliyini və Rusiya ilə Azərbay-**

**canın Türkiyə vasitəsilə Avropa İttifaqına qaz axınını necə yönəltmələrini müşahidə edirik. Bizi bu məqamda tez-tez toqquşdurmağa, rəqiblər kimi göstərməyə çalışırlar. Tamamilə aydındır ki, bu gün biz birlikdə öz dövlətlərimizin rifahı naminə Avropa İttifaqının enerji təhlükəsizliyini yaradırıq. Sizin üçün bu layihələr nə deməkdir? «Cənub Qaz Dəhlizi»nin açılması Sizin üçün nə demək idi?**

**C a v a b:** Hesab edirəm ki, sizin səciyyələndirdiyiniz bugünkü vəziyyət məhz belə olmalı idi. Biz uzun müddət buna doğru getmişik. Bəlkə də müxtəlif istiqamətlərdən, müxtəlif sürətlərlə, amma nəticədə məhz sizin dediyinizə gəlib çatmışıq. Bu gün dünyanın enerji xəritəsində bir növ Rusiya–Türkiyə–Azərbaycan əməkdaşlıq formatı yaranıb. Bu əməkdaşlığın həm ikitərəfli, həm də üçtərəfli planda böyük perspektivləri vardır.

Biz enerji layihələrimizi hələ 2000-ci ilin əvvəllərində neft-qaz kəmərlərinin tikintisi ilə həyata keçirməyə başlamışıq. Çünki dünya bazarlarına çıxmaq üçün biz mütləq infrastruktur qurmalı idik. Bizim açıq okeana birbaşa çıxmaq imkanımız yoxdur. Rusiya nisbətən yaxın vaxtlarda bu istiqamətdə addımlar atıb. Hərçənd biz xatırlayırıq ki, xeyli illər əvvəl «Mavi axın» layihəsi gerçəkləşdirilmişdi. Bu barədə indi bir az unudublar. Axı bu da Rusiyadan Türkiyəyə Qara dənizin dibi ilə qaz kəmərinin inşası layihəsi idi. Yəni prinsipcə, bu il «Türk axını»nın dəniz fazasının açılmasında yeni heç nə yoxdur. Sadəcə, Rusiya ilə Türkiyənin yüksək səviyyədə qarşılıqlı siyasi fəaliyyəti bu layihənin reallaşmasına, yaxud da gerçəkləşməsini

sürətləndirməyə imkan verib. Buna görə də biz Rusiya və Türkiyənin dostları kimi, bu layihəni alqışladıq və həmin layihənin açılışı mərasimində yüksək hökumət səviyyəsində iştirak etdik.

«Cənub Qaz Dəhlizi» layihəsinə gəlincə, bu ilin mayında həmin layihə rəsmən işə düşüb. Bu özündə 4 mühüm müstəqil layihəni birləşdirən layihədir. Bu, iri «Şahdəniz» qaz-kondensat yatağının işlənilməsi və inteqrasiya olunmuş 3 qaz kəmərinin tikintisidir. Bu gün bu layihənin 4 seqmentindən 3-ü artıq reallaşıb və mayda «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışından sonra iyunda TANAP layihəsinin açılışı oldu. Beləliklə, biz Türkiyə, daha sonra isə Avropa bazarlarına daha böyük həcmdə qaz nəql edəcəyik. Bu da bizim siyasətimizin davamıdır, çünki hələ 2007-ci ildə biz Bakıdan Türkiyənin Ərzurum şəhərinə qədər qaz kəməri açmışıq və Türkiyə bazarına qaz ixracatçısıyıq. «Cənub Qaz Dəhlizi» bizə Türkiyə bazarına qazın ixracını 2 dəfə artırmağa, eləcə də Türkiyənin ətrafındakı ölkələrin bazarlarına, sonra isə Qərbi Avropaya çıxmağa imkan verəcəkdir. Bu bizə böyük qaz potensialımızı reallaşdırmaq imkanı verəcək, xəzinəmizə milyardlarla dollar gətirəcəkdir. Bu, artıq on minlərlə iş yeri yaradıb və əlbəttə ki, Avrasiyanın tamamilə yeni enerji xəritəsini yaradır. Azərbaycanın, Rusiyanın və Türkiyənin bu istiqamətdə səylərini birləşdirməsi bizə nəinki planlarımızı tamamilə reallaşdırmağa, maraqlarımızı təmin etməyə imkan verəcək, həm də enerji ehtiyatlarımızın və nəqliyyatın inkişafı baxımından çox gözlənilən siyasət deməkdir.

**S u a l: Mən dərhal rəqiblər tərəfindən gözlənilən siyasət haqqında bir neçə kəlmə deyə bilərəm. Ölkə nə qədər güclü olarsa, nə qədər böyük uğurlar qazanarsa, ona bir o qədər çox təzyiq göstərilir və burada enerji nüfuzu uğrunda mübarizə göz qabağındadır. Siz Qərb ölkələri, ilk növbədə, Birləşmiş Ştatlar tərəfindən Rusiyaya məhz Avropada öz enerji planlarımıza görə məruz qaldığımız təzyiqə baxa bilərsiniz. Siz qoşulmağa hazırsınız, yoxsa bunun kənar fəsadları vardır?**

**C a v a b:** Məsələ ondadır ki, bizim enerji layihələrimizin inkişafı baxımından heç vaxt belə təzyiq hiss etməmişik. Mən hətta deyərdim, əksinə, Azərbaycan qazı Avropa ölkələrinin enerji təhlükəsizliyini müəyyən dərəcədə təmin edəcəyinə görə biz Avropa İttifaqı tərəfindən dəstək hiss etmişik. Hər il Bakıda «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşdırılması üzrə Məşvərət Şurası keçirilir. Bu layihədə Avropa İttifaqının üzvü olan bir neçə ölkə iştirak etdiyinə görə Avropa İttifaqı bu Məşvərət Şurası çərçivəsində hər zaman yüksək səviyyədə təmsil olunur. Biz öz enerji layihələrimizi reallaşdırırıq, çünki onlar bizə lazımdır. Çünki biz çox zəngin neft-qaz ehtiyatlarına malik ölkəyik. Biz onları satmalı, pul qazanmalıyıq. Buna görə də biz investor şirkətləri, bankları cəlb etmişik. Neft-qaz kəmərləri tikirik. Təkcə «Cənub Qaz Dəhlizi» təxminən 40 milyard dollara başa gəlir. Bu investisiyaların böyük hissəsi borc kapitallarıdır. Buna görə də beynəlxalq maliyyə təsisatları ilə fəal əməkdaşlıq həmin layihənin mühüm amilidir.

Bu kontekstdə enerji layihələrinin icrası baxımından biz heç bir maneə hiss etmirik. Digər tərəfdən, tamamilə haqlısınız ki, Azərbaycanın əhəmiyyəti və rolu təkcə enerji bazarında deyil, həm də bütövlükdə geosiyasi planda artır. Ölkə daha da inkişaf edir və regionda özünü təsdiqləmək üçün daha çox planları vardır. Bizim inkişafa, apardığımız müstəqil siyasətə mütənasib olaraq, bizə təzyiq də artır. Ancaq bu, enerji amilləri ilə əlaqədar deyil. Bu bəzən bizi xalqımıza və ölkəmizə tamamilə yad olan hansısa avantüralara cəlb etmək cəhdləri ilə bağlıdır. Mən söhbətin əvvəlində dedim ki, bizim ölkədə – Azərbaycanda heç bir potensial risk, fiziki, ideoloji, sosial, siyasi təhdid yoxdur. Bizim vətəndaşların rahatlığını yalnız kənardan poza bilərlər. Biz öz suverenliyimizlə bağlı məsələlərə, təhlükəsizliyimiz, vətəndaşlarımızın təhlükəsizliyi məsələlərinə çox həssaslıqla yanaşırıq. Ona görə də Azərbaycanı hansısa beynəlxalq avantüralara cəlb etmək cəhdləri həmişə fiaskoya uğrayıb. Yəqin ki, bu kiminsə xoşuna gəlmir və arabir biz bunun nəticələrini görürük. Bir qayda olaraq, bunlar bizim, ümumiyyətlə, iştirak etmədiyimiz beynəlxalq təşkilatların qəbul etdiyi hansısa qətnamələrdə ifadə olunur.

**M ü x b i r:** İnsan hüquqlarının pozulmasında ittihamlar...

**İ l h a m Ə l i y e v:** Tamamilə doğrudur.

**M ü x b i r:** Sevimli mövzudur.

**İ l h a m Ə l i y e v:** Bəli, elədir ki, var. Həm də qəribədir ki, bizim əleyhimizə olan qətnamələri üzvü olmadığımız və üzv olmağa hazırlaşmadığımız strukturlar

qəbul edir. Bu, necə deyərlər, daha çox təbəssüm doğurur. Həmçinin mətbuata yalançı təbliğat tullantıları atılır. Bu, qarayaxma, şantaj və təzyiq göstərmək cəhdlərinin sevimli üsuludur. Amma bizdə buna qarşı immunitet yaranıb. Azərbaycan vətəndaşları çox yaxşı başa düşürlər ki, bu informasiya tullantıları cəhdlərinin arxasında nə durur. Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır.

**S u a l: Mədəniyyət və təhsil məkanı ölkələrimiz arasında nə qədər geniş və dərin olarsa, vətəndaşlarımız nə qədər savadlı olarsa, onlar nəyin həqiqət və nəyin uydurma olduğunu bir o qədər tez və asanlıqla başa düşəcəklər. Burada mən bizim tarixi əlaqələrimizə, münasibətlərimizə toxunmaya bilmərəm. Azərbaycan o ölkədir ki, Sovet İttifaqının dağılmasından sonra artıq 27 ildir ki, rus dili özünü burada doğma hiss edir. Azərbaycana Rusiyadan turist axını yəqin bununla izah olunmalıdır. Bu gün azərbaycanlılar Rusiyaya təhsil almağa gedirlər. Bizim üçün bu da çox vacibdir. Belə ki, bu, gələcək üçün, gələcək nəsillər üçün əlaqədir. Bu gün neçə məktəbdə rus dili tədris olunur?**

**C a v a b:** Bu gün Azərbaycanda rus dilində təhsil verən 340-dan çox məktəb vardır. 3000-dən çox məktəbdə isə rus dili tədris olunur. Müqayisə üçün deyə bilərəm ki, ölkədə cəmi 4500-ə yaxın məktəb vardır. Yəni bizim məktəblərimizin mütləq əksəriyyətində rus dili tədris olunur. 340-dan çox məktəbdə isə tədris rus dilində aparılır və bu məktəblərin sayı artır. Hazırda

bizim rus dilini qorumaq üzrə siyasətimiz yaxşı nəticələr verir. Mən tez-tez, xüsusən yeni dərs ili ərəfəsində məktəblərdə oluram. Görürəm ki, rus dilində yeni şöbələr yaradılır və buna ehtiyac vardır. Əlbəttə, ölkənin hər bir vətəndaşı ilk növbədə, öz dövlət dilini bilməlidir. Bu cəhətdən Azərbaycanda problem yoxdur. Dövlət dili Azərbaycan dilidir və bütün kargüzarlıq işləri Azərbaycan dilində aparılır. Belə də olmalıdır. Amma rus dilini bilmək həm tələbatdır, həm də bizim tarixi əlaqələrimizə hörmət əlamətidir. Bu gün mən görürəm ki, buna cəmiyyətdə necə tələbat vardır. Siz tamamilə haqlısınız, milyona yaxın rusiyalı ona görə buraya gəlir ki, özlərini rahat mühitdə hiss edirlər. Bu da çox vacibdir. Bizim rus dilini qorumaq, onun inkişafı üçün daha yaxşı şərait yaratmaq siyasətimiz tamamilə düzgündür və bunun müsbət nəticələrini görürük. Rus dilinə hörmət etməklə, biz öz dilimizə qətiyyən xələl gətirmirik. Bu sadəcə, mümkün deyil. Hesab edirəm ki, Azərbaycanın bugünkü inkişafı dünyaya, ilk növbədə, öz qonşularına açıq olmaqla milli maraqlarını, identikliyini qorumağın nümunəsidir. Biz son illərdə Rusiyanın 2 aparıcı ali məktəbinin – Lomonosov adına MDU-nun və Seçenov adına Tibb Universitetinin filiallarını da yaratmışıq. Həmin filiallarda tədrisi Rusiyadan olan müəllimlər rus dilində aparırlar. Mədəni-humanitar sahə, təhsil sahəsi elə bir sahədir ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dəstəklənməsinə kömək edəcəkdir. Siz qeyd etdiniz ki, Sovet İttifaqının dağılmasından 27 il ötüb və yeni nəsil yetişibdir. Biz istəyirik ki, Azərbaycan vətəndaşları rus dilini də, ingilis dilini də və əlbəttə, ilk növbədə, öz ana dilini bilsin. Mümkün qədər çox dil bilsinlər və tərcüməçisiz rahat söhbət edə bilsinlər.

**S u a l: Rus dili beynəlxalq ünsiyyət dilidir. Biz burada rus dili haqqında məhz bu kontekstdə danışırıq. Amma bir daha qeyd edim ki, əgər gələcək nəsillər əcdadları tərəfindən yaradılmış tərəfdaşlığı bilsələr və qiymətləndirsələr, onda bu gün Sizinlə apardığımız müzakirələrin, gördüyümüz işlərin hədər olmadığı sübut ediləcək. Cənab Prezident, Siz 2019-cu ildən nə gözləyirsiniz? Hansı hadisələrin Azərbaycanın həyatında, bizim ölkələrin həyatında mühüm rol oynayacağını güman edirsiniz? Nəyi həll etmək istərdiniz?**

**C a v a b:** Mən əminəm ki, 2019-cu ildə ölkəmiz daha da inkişaf edəcək. Həyata keçirdiyimiz islahatların artıq xeyli hissəsi özünü 2019-cu ildə göstərəcək. Biz Azərbaycan iqtisadiyyatının transformasiyası prosesini bitiririk. Buna görə də düşünürəm ki, iqtisadi inkişaf cəhətdən bütün planlar reallaşdırılacaq. Dövlət büdcəsi də artıq qəbul olunub. O həmişəki kimi, sosial yönümlüdür. Buna görə də bütün sosial proqramlar həyata keçiriləcək. Biz gələn il məcburi köçkünlər və qaçqınlar üçün 4000-dən çox, Ermənistanla Azərbaycan arasında müharibə zamanı həlak olanların ailələri üçün 800-dən çox mənzil istifadəyə verməyi də nəzərdə tutmuşuq. Yəni bizim iqtisadiyyatımızın sosial yönümü çox əhəmiyyətli olacaqdır.

Düşünürəm ki, 2019-cu ildə Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək üçün də mühüm addımlar atılacaq. Bu gün Şimal–Cənub və Şərq–Qərb layihələri Azərbaycandan keçir. Biz yeganə ölkəyik ki, bu layihələrin hər ikisində iştirak edirik. Bu layihələrə qoşulan ölkələrin sayı isə ildən-ilə artır. Biz Azərbaycanda ən müasir nəqliyyat infrastrukturu – dəmir yolu, dəniz daşımaları, aviadaşımalar, 6 beynəlxalq aeroport, avtomobil yolları yaratmışıq. Deyə bilərəm ki, Davos İqtisadi Forumun qiymətləndirməsinə

görə, avtomobil yollarının keyfiyyəti üzrə Azərbaycan dünyada 34-cü yeri tutur. Bu kifayət qədər yüksək göstərici bizim həmin layihələrə necə diqqət göstərdiyimizdən xəbər verir. Əlbəttə, biz «Qoşulmama Hərəkatı»nın sədri kimi, beynəlxalq arenada fəal iş aparacağıq və üzv ölkələrə dəstək verəcəyik. Ümid edirik ki, 2019-cu ildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması işində də müsbət irəliləyişlər olacaq. Bu ilin baharında Ermənistanda baş verən hadisələr Ermənistan tərəfindən status-kvonun saxlanılması siyasətinin perspektivsizliyinin əyani göstəricisidir. Biz bu illər ərzində çox böyük inkişaf yolu keçmişik və Azərbaycanla Ermənistan arasında iqtisadi potensialın və bütün digər komponentlərin balansı artıq çoxdan pozulub. Düşünürəm ki, bizim iqtisadiyyatımızı, enerji, nəqliyyat layihələrinin potensialını gücləndirmək üzrə siyasətimiz müəyyən dərəcədə Ermənistanda baş verənlərə səbəb olub. Erməni cəmiyyətini narahat edən bütün digər məsələlərlə yanaşı, bu ilin baharında baş vermiş hadisələrin amillərindən biri Ermənistanın düşdüyü və ya özünü yuvarlatdığı ağır sosial-iqtisadi vəziyyət olub. Bu isə, mən qəti əminəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmamasının nəticəsində baş verib. Düşünürəm ki, həm Ermənistan cəmiyyətində, həm də hakim strukturlarda daha yaxşı başa düşəcəklər ki, münaqişə yalnız ədalətli nizamlandıqdan, işğal olunmuş ərazilər azad olunduqdan sonra Ermənistan iqtisadiyyatı xeyli arta bilər. Əks təqdirdə, Ermənistanda ciddi sosial-iqtisadi dəyişikliklərin nəticələrini gözləmək çətin olacaqdır.

Yəni biz öz siyasətimizin nəticələrini görürük. Biz münaqişəni həmişə danışıqlar yolu ilə nizamlamaq istəmişik və istəyirik. Lakin təbii ki, danışıqlar yolu ilə nizamlamaq üçün çox ciddi vasitələr lazımdır. Bizim apardığımız və aparaca-

ğımız siyasət sülhün regiona hansı üstünlüklərin verəcəyini və sülh olmayacağı təqdirdə Ermənistanda hansı çətinliklərin yaranacağını göstərməyə yönəlib. Mən qəti əminəm ki, Ermənistanın yeni rəhbərliyinin ölkəni dəyişmək üzrə bütün planlarını həyata keçirməsi üçün yeganə yol Azərbaycanla münaqişənin nizamlanması yoludur. Bunun üçün isə onlar özlərinə məxsus olmayan ərazilərdən çıxmalı və yüz minlərlə azərbaycanlının öz yurdlarına qayıtmasına imkan verməlidirlər. Buna görə də ümid var ki, bu baxımdan daha çox anlaşma olacaq. Amma dəqiq deyə bilmərəm. Necə deyərlər, zaman göstərər. Biz də haqqında dediyim siyasəti ardıcıl olaraq yürüdəcəyik, xüsusən görəndə ki, o, nəticə verir.

**M ü x b i r:** Strateji hövsələ, dözüm, səbir və öz inkişafına diqqət Azərbaycanın 2019-cu ildəki seçimidir.

**İ l h a m Ə l i y e v:** Tamamilə doğrudur. Siz bizim planlaşdırdıqlarımızı və etdiklərimizi çox dəqiq ifadə etdiniz.

**M ü x b i r:** Mən Sizə uğurlar arzulayıram. Bu müsahibə üçün çox sağ olun. Sizə rifah diləyirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Sizi görməyimə həmişə şadam. Yeni il ərəfəsində fürsətdən istifadə edərək, rusiyalılara sülh, uğur və xoşbəxtlik arzulayıram.

**M ü x b i r:** Sağ olun.

## MƏNZİL İNŞAATI DÖVLƏT AGENTLİYİ YASAMAL YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 26-da Bakı şəhəri Dairəvi avtomobil yolunu Şərifzadə küçəsi ilə birləşdirən yeni yolun, həmçinin Mənzil İnşaatı Dövlət Agentliyi Yasamal yaşayış kompleksinin açılışında iştirak etmiş və Agentliyin yeni yaşayış kompleksinin təməlini qoymuşlar.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov yeni yolda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Qeyd edək ki, bu yolun inşası Prezident İlham Əliyevin 2018-ci ilin yanvarında imzaladığı sərəncama əsasən aparılıb. Bu ilin fevral ayında tikintisinə başlanılan yeni yolun uzunluğu 1310, eni 18,5 metrdir. Yol 1-ci texniki dərəcəyə uyğun inşa edilib və 4 hərəkət zolağından ibarətdir.*

*Tikinti layihəsinə uyğun olaraq, yeni yol yatağı inşa edilib. Yolun tikintisi zamanı elektrik, rabitə, qaz xətləri dəyişdirilib, transformator məntəqələri köçürülərək, yenidən tikilib, yolboyu işıqlandırma sistemi, yol nişanları, göstərici lövhələr quraşdırı-*

*lıbdır. Bu yolun inşası nəticəsində Bakı Dairəvi avtomobil yolu ilə Abbas Mirzə Şərifzadə küçəsi arasında yeni bağlantı yaranıb. Beləliklə, nəqliyyat vasitələri Badamdar şosesindən istifadə etmədən birbaşa Şərifzadə küçəsinə və Bakı Dairəvi avtomobil yoluna çıxa biləcək. Bakı Dairəvi avtomobil yolundan isə nəqliyyat vasitələri istər Ələt–Qazax, istərsə də Biləcəri–Sumqayıt istiqamətlərinə rahat hərəkət edə bilər. Bu isə öz növbəsində, sürücülərin və sərnişinlərin əlavə yol qət etmədən və vaxt itkisi olmadan ünvana çatmasına, Badamdar şosesi, «20 Yanvar» dairəsi və «Şamaxı yolu» deyilən ərazidə xüsusən günün pik saatlarında nəqliyyat sıxlığının azalmasına müsbət təsir edəcəkdir. Bundan başqa, Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksi sakinlərinin rahat hərəkətinin təmin edilməsi, onların şəhərin müxtəlif istiqamətlərinə çıxışı baxımından da yeni yol əhəmiyyəti ilə seçilir.*

*Dövlət başçısı yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi Yasamal yaşayış kompleksinin açılışında iştirak etdilər.*

*Mənzil İnşaatı Dövlət Agentliyi İdarə Heyətinin sədri Sadiq Sadıqov görülən işlər barədə məlumat verdi.*

*Qeyd edək ki, layihələndirmə zamanı komplekslərdə həyətyanı sahələrin, uşaq meydançalarının olmasına, ərazilərin yaşıllaşdırılması və abadlaşdırılmasına xüsusi diqqət yetirilir. Açılışı olan Yasamal ya-*

*şayış kompleksinin ümumi sahəsi 11,6 hektardır. 2016-cı ilin dekabrında kompleksin ilk doqquzmərtəbəli yaşayış binasının və ərazidə yerləşən ümumtəhsil məktəb binasının təməli qoyulub. Ərazidə planlaşdırma sənədi üzrə 29 yaşayış binası inşa olunub. Bu binalardan 12-si 12 mərtəbəli, 17-si 9 mərtəbəlidir. Kompleksdə mənzillərin ümumi sayı 1843-dür. Burada 324 birotaqlı, 1052 ikiotaqlı, 467 üçotaqlı mənzil vardır. Birotaqlı mənzillərin sahəsi 34, ikiotaqlı mənzillərin sahəsi 58, üçotaqlı mənzillərin sahəsi isə 71 kvadratmetrə yaxındır. Mənzillər tam təmirli, mətbəx mebeli və qaz plitəsi, fərdi kombi sistemi ilə təchiz olunmuş vəziyyətdə vətəndaşlara təklif edilir. Kompleksin baş planı üzrə 5 binada bu ilin sentyabrında «Elektron hökumət» portalı üzərindən «Güzəştli mənzil» sistemi vasitəsilə 324 mənzil satışa çıxarılıb. Bu mənzillərdən 278-nin alqı-satqısı artıq başa çatıbdır.*

*Mənzillərin təmiri və kompleksin tikintisində istifadə olunmuş inşaat materiallarının 95 faizi yerli istehsaldır. İnşaat işləri zamanı burada 1500-ə yaxın işçi çalışıbdır.*

*Kompleksin nəqliyyat infrastrukturunun yaradılması da diqqət mərkəzindədir. Ərazi paytaxtın əsas nəqliyyat şəbəkəsinə və metronun «İnşaatçılar» stansiyasına yaxındır. Bakı Nəqliyyat Agentliyi tərəfindən yaşayış kompleksinə şəhərin 4 müxtəlif istiqamətində marşrut xətlərinin açılması nəzərdə tutulubdur.*

*Bu layihənin icrası Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək diqqət və qayğı ilə yanaşmasının növbəti təzahürüdür.*

*Vətəndaşların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən müasir memarlıq üslubunda çoxmənzilli yaşayış binalarının tikintisini təmin etmək baxımından bu layihə əhəmiyyəti ilə seçilir.*

*Kompleksin ərazisində 161 saylı tam orta məktəb binası da inşa edilibdir.*

*Dövlət başçısı və xanımı burada yaradılmış şəraitlə tanış oldular.*

*Təhsil naziri Ceyhun Bayramov məlumat verdi ki, 960 şagird-yerlik tam orta məktəbdə 36 sinif otağı vardır. Onlardan 15-i ibtidai, 21-i isə yuxarı sinif şagirdləri üçündür. Siniflərin hamısı zəruri tədris avadanlıqları ilə təchiz olunub. Burada, həmçinin 6 tədris laboratoriyası şagirdlərin istifadəsinə veriləcəkdir.*

*Bu təhsil ocağında yaradılmış şərait son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsil sahəsində aparılan islahatların uğurlu nəticələrinin əyani göstəricisidir. Bütün bunlar Azərbaycanda təhsil sferasının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnib. Yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması ölkəmizdə təhsil sahəsinin müasirləşdirilməsi istiqamətində aparılan işlərin tərkib hissəsidir. Bütün bu işlər həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı vardır. Bu da təsadüfi deyil. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin müasir, intellektual və savadlı yetişməsidir. Bu baxımdan təhsil*

*sahəsinə qoyulan investisiyalar, o cümlədən yeni-yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrində yeni korpusların tikilməsi və əsaslı təmiri mühüm əhəmiyyət kəsb edir.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin ərazisində inşa edilmiş 240 yerlik uşaq bağçasında yaradılmış şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, bağçadakı qrup, məşğələ və oyun otaqları zəruri avadanlıqlarla təchiz edilib. Uşaqların gün ərzində dolğun və keyfiyyətli qidalanması üçün burada yeməkxana yaradılıb. Bağçada yaradılmış şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Belə müasir körpələr evi-uşaq bağçalarının inşasına Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq və yaşıllıq işləri görülüb. Həyətdə uşaqların əylənməsi üçün müxtəlif attraksionlar quraşdırılıbdır.*

*Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ümumi sahəsi 15,4 hektar olacaq yeni yaşayış kompleksinin növbəti mərhələsinin təməlqoyma mərasimində iştirak etdilər.*

*Bildirildi ki, kompleksdə 40 yaşayış binasının inşası nəzərdə tutulub. Onlardan 22-si 9 mərtəbəli, 18-i 12 mərtəbəli olacaq. Bu kompleksdə 160 birotaqlı, 114 studio tipli, 674 ikiotaqlı, 1128 üçotaqlı, 126 dördotaqlı mənzil tikiləcək. Binalar üzrə mənzillərin ümumi sayı 2200-dən çoxdur. Bu mənzillər də tam təmirli, mətbəx*

*mebeli ilə təchiz olunmuş vəziyyətdə vətəndaşlara təklif ediləcəkdir.*

*Prezident İlham Əliyev yeni yaşayış kompleksinin təməlini qoydu.*

*Yaşayış binaları ilə yanaşı, ərazidə sosial-məişət obyektləri, uşaq oyun meydançaları, 3 uşaq bağçası, 1200 şagird-yerlik tam orta məktəb binasının inşası da nəzərdə tutulur. Yaşayış kompleksi üzrə bütün lazımi infrastruktur yaradılacaqdır.*

## PAYTAXTIN YENİ YASAMAL YAŞAYIŞ MASSİVİNDƏ İSTİRAHƏT PARKINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*26 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 26-da Yasamal rayonu Yeni Yasamal yaşayış massivi, Məhəmməd Xiyabani küçəsində yerləşən istirahət parkında əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olmuşlar.*

*Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov parkda aparılmış yenidən qurulma və abadlıq işləri barədə məlumat verdi.*

*Bildirildi ki, bu istirahət parkı müasir səviyyədə yenidən qurulub. Ümumilikdə 1,7 hektar ərazidə abadlıq işləri aparılıb, 9000 kvadratmetr sahədə yaşıllıq salınıbdır. Parkda suvarma və işıqlandırma sistemləri quraşdırılıb, gəzinti meydançaları salınıb, oturacaqlar qoyulub, dekorativ hasar çəkilibdir. Bu istirahət məkanında çay evi, kafe, Gənclər evi, internet-klub, Qocalar evi inşa olunub. Burada, həmçinin idman və uşaq əyləncə qurğuları və fəvvarə də quraşdırılıbdır.*

*Prezident İlham Əliyevin tapşırığı ilə son dövrlərdə Bakı şəhərində parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeni park, xiyaban və istirahət guşələri yaradılır. Bütün bunlar sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin davamıdır. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirmək üçün görülən məqsədyönlü işlərdəndir. Yenidən qurulmuş bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi baxımından olduqca əhəmiyyətlidir. Yeni park və xiyabanların salınması ölkəmizdə aparılan geniş abadlıq-quruculuq işlərinin daha bir nümunəsidir. Belə layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər ardıcıl şəkildə və yüksək keyfiyyətlə davam etdirilir.*

## FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN İDMAN-SAĞLAMLIQ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*27 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışında iştirak etmişdir.*

*Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlət başçısına raport verdi.*

*Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov görülən işlərlə və burada yaradılmış şəraitlə bağlı dövlət başçısına ətraflı məlumat verdi.*

*Qeyd edək ki, müasirliyi ilə diqqəti cəlb edən mərkəzdə tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 14 min kvadratmetr olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıbdır.*

*Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin universal zalında yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, 1950 tamaşaçı-yerlik universal zalda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Burada əsasən Fövqəladə Hallar*

*Nazirliyinin idman-sağlamlıq klubu fəaliyyət göstərəcək. İdman-sağlamlıq klubu tərəfindən əsas diqqət nazirliyin hərbi qulluqçularının və dövlət qulluqçularının fiziki hazırlığının yüksəldilməsinin həyata keçirilməsinə yönəldilib. Bundan başqa, klub nazirliyin qurumlarında idmanın müxtəlif növləri üzrə yarışların keçirilməsində iştirak edərək, yığma komandaların, ayrı-ayrı idmançıların, məşqçilərin respublika və beynəlxalq əhəmiyyətli yarışlara qatılmasını təmin edir. Klub, həmçinin xilasetmə qurumlarının fəaliyyət istiqamətlərinə uyğun olaraq, idman yarışları da təşkil edir. Son illər idman-sağlamlıq klubunun üzvləri müxtəlif yerli və beynəlxalq yarışlarda mühüm uğurlar qazanıblar. İdman-sağlamlıq klubunun təşkilatçılığı ilə hər il «Mübarizlər» yarışı keçirilir. Bu il keçirilmiş yarışda klubun təmsilçiləri 8-i əcnəbi iştirakçıdan ibarət olmaqla, 45 komanda arasında 1-ci yeri tutub. Bundan başqa, klubun üzvləri 20-dək çempionatda, o cümlədən dünya və Avropa birinciliklərində, həmçinin digər turnirlərdə uğurla çıxış ediblər. Klubun kişilərdən ibarət voleybol komandası Azərbaycan çempionatında müvəffəqiyyətlə çıxış edərək, ikinci yeri tutub. Klubda inkişaf etdirilən əsas idman növləri arasında nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq səmti müəyyənetmə, dağadırmanma, beşnövçülük və çoxnövçülüyə də xüsusi diqqət yetirilir.*

*İdman-Sağlamlıq Mərkəzinin trenajor, cüdo, boks, güləş, karate və taekvondo zallarında da idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Zal-*

*larda məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait vardır. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunubdur.*

*Qeyd edildi ki, İdman-Sağlamlıq Mərkəzinə daxil olan restoran və mətbəxdə xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Burada üzgüçülük hovuzu da ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25, eni isə 12 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 120 nəfər izləyə biləcəkdir.*

*Ölkəmizdə həyata keçirilən quruculuq işləri çərçivəsində gənclərlə iş və idman sahəsinə də xüsusi diqqət yetirilir. Kütləvi bədən tərbiyəsi və idman artıq cəmiyyət həyatının ayrılmaz tərkib hissəsinə çevrilibdir. Azərbaycanın müxtəlif bölgələrində bir-birinin ardınca çoxsaylı idman obyektləri, o cümlədən olimpiya kompleksləri inşa edilib, bir çox müvafiq infrastruktur yenidən qurulubdur.*

*İndi Azərbaycanda güclü idman potensialı formalaşıb. Böyüməkdə olan nəsil adlı-sanlı idmançılardan nümunə götürür və onların şərəfli yolunu davam etdirməyə çalışır. Onu da qeyd edək ki, idman-sağlamlıq klubunun üzvləri yalnız nazirliyin əməkdaşlarından ibarətdir. Hazırda klubun 300-dək üzvü vardır. Klubun üzvləri bu idman qurğusunda cüdo, güləş, karate, üzgüçülük, gimnastika, taekvondo və digər idman növləri üzrə ustalıqlarını artırırlar. Gələcəkdə idman növlərinin sayının artırılması nəzərdə tutulur. İdman-Sağlamlıq Mərkəzinin həyatində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıbdır.*

## SUMQAYITDA QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN İNŞA EDİLMİŞ YENİ YAŞAYIŞ BİNALARI KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*27 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilmiş yaşayış binaları kompleksinin açılışında iştirak etmişlər.*

*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və «Archico» MMC-nin rəhbəri, layihənin icraçısı Məhəmməd Musayev görülən işlərlə bağlı dövlət başçısına və xanımına məlumat verdilər.*

*Şəhərin mərkəzində, Koroğlu prospektində yerləşən kompleksin inşasına 2017-ci ilin martında başlanılıb. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunmuş bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina, o cümlədən 8 mərtəbəli 8, 15 mərtəbəli 4 bina vardır. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri inşa edilibdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mənzillərdə yaradılmış şəraitlə tanış oldular.*

*Mənzillərin hamısı tam təmirlidir və mətbəx mebeli, qaz sobası ilə təchiz olunubdur. Bundan başqa, mənzillərdə mərkəzləşdirilmiş internet və televiziya şəbəkəsi quraşdırılıb. Kompleksdəki 1005 mənzilin 167-si birotaqlı, 536-sı ikiotaqlı, 302-si isə üçotaqlı və dördotaqlıdır. Ərazidə sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün 2 istirahət guşəsi yaradılıb, uşaq meydançası quraşdırılıbdır. Kompleksin ümumi ərazisinin 67 faizində yaşıllıq və abadlıq işləri görülüb. Bu kompleks Sumqayıtın mərkəzində yerləşdiyindən şəhərin memarlıq üslubuna uyğun inşa olunub, binaların fasadlarına xüsusi diqqət yetirilib, fərqli üslubda pəncərələr quraşdırılıbdır.*

*Layihənin icrası zamanı Sumqayıtda 12-ci mikrorayonda yerləşən 21 saylı məktəbə əlavə olaraq, dördmərtəbəli yeni korpus inşa edilib, məktəbin mövcud binasının fasadı, dam örtüyü tamamilə yenilənibdir. Məktəbin 540 şagird-yerlik yeni korpusunda 21 sinif otağı vardır. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait vardır.*

*Bu layihənin icrası Azərbaycan dövlətinin qaçqın və məcburi köçkün uşaqlarının təhsilli, bilikli və intellektual səviyyədə yetişməsinə nə dərəcədə həssaslıqla yanaşmasının əyani təzahürüdür. Eyni zamanda, bu işlər ümumilikdə ölkəmizdə təhsil sahəsinin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində icra olunan layihələrin ardıcıl və keyfiyyətlə davam etməsini göstərir.*

*Kompleksin ərazisində 50 yerlik uşaq bağçası da inşa edilib. Uşaq bağçasında balacaların təlim-tərbi-*

*yəsinin təşkili, onların istirahəti və əyləncəsi üçün hər cür şərait yaradılıbdır.*

*Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlət başçısı qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqın və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunubdur. Onların sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı bir sıra mühüm işlər görülübdür. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqın və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və ondan istifadə olunur.*

**SUDAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Sudan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 dekabr 2018-ci il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASI VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MİGEL DİAS-KANEL BERMUDESƏ**

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 dekabr 2018-ci il*

## ZİYA BÜNYADOV PROSPEKTİ İLƏ BALAXANI–BİNƏQƏDİ AVTOMOBİL YOLUNU BİRLƏŞDİRƏN YENİ YOLUN AÇILIŞI MƏRASİMİ

*28 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Böyükşor gölünün üzərində inşa edilmiş və paytaxtın Ziya Bünyadov prospekti ilə Balaxanı–Binəqədi avtomobil yolunu birləşdirən ümumşəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına layihənin texniki göstəriciləri barədə məlumat verdi.*

*Ziya Bünyadov prospekti ilə Balaxanı–Binəqədi avtomobil yolunu birləşdirən, paytaxtın nəqliyyat sistemində mühüm əhəmiyyətə malik yeni yolun tikintisi 2017-ci ilin yanvarında və bu ilin mayında Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən həyata keçirilib. Uzunluğu 2,7 kilometr olan yolun tikintisi yüksək keyfiyyətlə və sürətlə aparılaraq yekunlaşdırılıb. Yeni yol Böyükşor gölünün 2 hissəyə bölünməsi məqsədilə çəkilən 1570 metr uzunluğunda bəndin üzərindən keçir. Bu yol 4 hərəkət zolaqlı*

*olmaqla, 1-ci texniki dərəcəyə uyğun inşa edilib. Yolboyu 16 yol nişanı quraşdırılıb. Yolun əvvəlində və sonunda uzunluqları 320 və 274 metr olan 2 tunel də inşa edilib. Tunellərin hərəkət hissəsinin eni 28 metr-dir. Tikinti işləri çərçivəsində yeni yolun giriş və çıxış hissələrində qovşaqlar da tikilib. Yol boyunca müasir işıqlandırma sistemi qurulub, 4 avtobus dayanacağı quraşdırılıbdır.*

*Qeyd edək ki, yeni avtomobil yolunun inşası nəticəsində sürücülər həm Xırdalan–Binəqədi–Balaxanı avtomobil yoluna, həm də Ziya Bünyadov prospektinə rahat çıxış əldə edəcəklər. Belə ki, avtonəqliyyat vasitələri «20 Yanvar» dairəsindən istifadə etmədən Xırdalan–Binəqədi–Balaxanı avtomobil yolu ilə Xırdalan dairəsi ərazisindən Xırdalan, Masazır qəsəbələrinə, həmçinin Sumqayıt şəhərinə və bu istiqamətdə yerləşən digər qəsəbələrə, bundan başqa, Binəqədi, Mehdiabad, Digah, Fatmayı, Goradil, Pirşağı qəsəbələrinə rahat hərəkət edəcək. Xırdalan–Binəqədi–Balaxanı avtomobil yolundan Zabrat–Maştağa avtomobil yoluna çıxmaqla isə, bu istiqamətdə yerləşən qəsəbələrə rahat gediş-gəliş təmin olunacaq. Bundan başqa, həmin qəsəbələrin sakinlərinə Ziya Bünyadov prospektinə çıxmaqla, şəhər mərkəzinə rahat və qısa yolla hərəkət etmək imkanı yaranacaq. Bununla da həm məsafə qısalacaq, həm vaxt itkisi azalacaq, xüsusilə də günün pik saatlarında istər Ziya Bünyadov prospektində, istərsə də Heydər Əliyev prospekti, metronun «Koroğlu» stansiyasının qarşısından keçən*

*hissəsində müşahidə olunan nəqliyyat sıxlığı aradan qaldırılacaqdır.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial yönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son 15 ildə bu sahədə çox mühüm uğurlar əldə olunub və yeni layihələrin icrası davam etdirilir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.*

## TÜRKİYƏ RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ SÜLEYMAN SOYLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Türkiyə Respublikasının Daxili İşlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, bu il bu münasibətlərin daha da yüksək zirvəyə qalxdığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin dövlət başçıları arasında həm Azərbaycanda, həm Türkiyədə, həm də beynəlxalq tədbirlərdə keçirilən görüşlərin və çoxsaylı təmasların əlaqələrimizin daha da möhkəmlənməsi baxımından xüsusi rol oynadığını söylədi. Dövlət başçısı bu il bir çox mühüm birgə layihələrin, o cümlədən TANAP və STAR layihələrinin açılışı mərasimlərinin olduğunu qeyd edərək, siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə çox gözəl əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev bu il Türkiyə Prezidentinin iştirakı ilə keçirilən Bakı*

*şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradı dostluq və qardaşlıq münasibətlərimizin parlaq təzahürü kimi dəyərləndirdi. Dövlət başçısı qarşıdan gələn ilin də Azərbaycan–Türkiyə əlaqələrinin inkişafında uğurlu il olacağına əminliyini ifadə etdi və Türkiyənin Daxili İşlər naziri Süleyman Soylunun Azərbaycana səfərinin əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyini vurğuladı.*

*Qəbula görə minnətdarlığını bildirən Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Türkiyə–Azərbaycan əlaqələrinə toxunan Süleyman Soylu qeyd etdi ki, əlaqələrimiz böyük lider, görkəmli dövlət xadimi Heydər Əliyevin dediyi kimi, «bir millət – iki dövlət» prinsipi üzərində qurulub və bu gün uğurla inkişaf edir. O bildirdi ki, Azərbaycan və Türkiyə dövlət başçılarının uğurla inkişaf etdirdiyi bu əlaqələr bu gün regiona və dünyaya böyük töhfə verir və qardaşlıq münasibətlərinin bir nümunəsidir. Türkiyəli nazir qeyd etdi ki, başda Dağlıq Qarabağ məsələsi olmaqla, Azərbaycanın kədəri Türkiyənin kədəri, sevinci isə Türkiyənin sevincidir.*

*Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

# SƏUDİYYƏ ƏRƏBİSTANININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HAMƏD BİN ABDULLAH BİN SƏUD BİN XUDEYR İLƏ GÖRÜŞ

*29 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyrin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Haməd bin Abdullah bin Səud bin Xudeyr Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Haməd bin Abdullah bin Səud bin Xudeyr etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın yüksək səviyyədə olduğunu, güclü siyasi əlaqələrin qurulduğunu bildirərək, ölkələrimizin bir-birini beynəlxalq təşkilatlarda dəstəkləməsini bunun parlaq təzahürü olduğunu söylədi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı və ada-*

*lətli mövqeyinin ardıcıl surətdə dəstəkləməsinin yüksək qiymətləndirildiyini vurğuladı. Dövlət başçısı ölkələrimizin iqtisadi, ticari, investisiya sahələrində əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı maraq göstərdiklərini və bu istiqamətdə birgə fəaliyyət həyata keçirdiklərini bildirdi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanından ölkəmizə gələn turistlərin sayının sürətlə artmasını əlaqələrimizin gözəl nümunəsi kimi dəyərləndirdi. Dövlət başçısı əməkdaşlığımızın geniş gündəliyə malik olduğunu qeyd edərək, Haməd bin Abdullah bin Səud bin Xudeyrin səfir kimi fəaliyyəti dövründə qardaşlıq münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu nəzərə çatdırdı.*

*Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyr xoş sözlərə görə minnətdarlığını bildirərək, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O vurğuladı ki, Kral Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir.*

*Səfir Haməd bin Abdullah bin Səud bin Xudeyr Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edərək, iqtisadi-ticari, investisiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. O, ikitərəfli münasibətlərin daha*

*da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.*

## BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MANUEL ADALBERTO KARLOS MONTENEQRO LOPES DA KRUZ İLƏ GÖRÜŞ

*29 dekabr 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycanın Braziliya ilə əlaqələrə böyük önəm verdiyini qeyd edərək, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Siyasi sahədə əlaqələrin qarşılıqlı anlaşmaya əsaslanaraq, tarazlı şəkildə inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ticari-iqtisadi əlaqələrin və kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı fəaliyyətin artırılmasının zəruriliyini qeyd etdi. İki ölkə*

*arasında aviasiya sahəsində əməkdaşlığa toxunan dövlət başçısı, həmçinin mədəniyyət və turizm sahələrində də əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza səfir kimi, Azərbaycanda fəaliyyəti dövründə uğurlar arzuladı.*

*Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz Braziliyanın dövlət başçısının salamlarını Prezident İlham Əliyevə çatdırdı və Azərbaycanda fəaliyyətə başlamasından böyük məmnunluq hissi keçirdiyini qeyd etdi.*

*Səfir ölkələrimiz arasında siyasi məsləhətləşmələrin aparıldığını qeyd edərək, iqtisadi, ticarət və digər sahələrdə iki ölkənin mövcud potensialından istifadə edilməsi üçün səylərin artırılmasının zəruriliyini nəzərə çatdırdı. O, ümidvar olduğunu bildirdi ki, iqtisadi məsələlər üzrə ikitərəfli işçi qrupunun keçirilməsi nəzərdə tutulmuş növbəti iclası bu istiqamətdə əməkdaşlığın inkişafına töhfə verəcəkdir.*

*Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz ölkələrimiz arasında dostluğun və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacağını söylədi.*

*Prezident İlham Əliyev Braziliyanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Braziliya Prezidentinə çatdırmağı xahiş etdi.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

2018-ci il sona yaxınlaşır. Tam əminliklə demək olar ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olubdur. Ölkəmiz bütün istiqamətlər üzrə uğurla, sürətlə inkişaf edibdir. Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib. Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Mən bu il 16 xarici səfər etmişəm. Ölkəmizə də 16 dövlət və hökumət başçısı səfər edibdir və bu, ikitərəfli əlaqələrimizin nə qədər geniş olduğunu göstərir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan uğurla fəaliyyət göstəribdir. Biz beynəlxalq aləmdə layiqli yerimizi tuta bilmişik.

Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək səviyyəyə qalxıb. Bu hər bir ölkə üçün çox önəmlidir, o cümlədən Azərbaycan üçün. Qonşu dövlətlərlə siyasi, iqtisadi və digər sahələrdə birgə apardığımız işlər bölgədə sabitliyi daha da möhkəmləndirir. Sabitliyə gəldikdə, deyə bilərəm ki, dünyada gərginlik, risklər, təhdidlər artır, Azərbaycan isə sabitlik məkanıdır. 2018-ci ildə xalqımız əmin-amanlıq, sabitlik şəraitində yaşayıb. Sabitliyin əsas səbəbi və onun mənbəyi xalq–iqtidar birliyidir.

Biz Avropa İttifaqı ilə əlaqələrimizi daha da möhkəmləndirmişik. Bu il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədi bu münasibətlərin nə qədər yüksək səviyyədə olmasının təzahürüdür. Bu sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox aydın fikirlər öz əksini tapıb və bu bir daha onu göstərir ki, Avropa İttifaqı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində düzgün mövqedədir.

İslam həmrəyliyi məsələlərində bizim rolumuz artır. İslam Əməkdaşlıq Təşkilatı bu sahədə apardığımız siyasətə çox yüksək qiymət verir və tam əminliklə demək olar ki, Azərbaycan müsəlman aləmində öz güclü rolunu daha da gücləndirə bilib. Müsəlman ölkələri tərəfindən bizə göstərilən diqqət, hörmət və rəğbət göstərir ki, Azərbaycan bu sahədə də böyük uğurlara nail olubdur.

Bu il Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi öz həllini tapdı. Bu, hesab edirəm ki, tarixi nailiyyətdir. Çünki bildiyiniz kimi, uzun illər ərzində bu məsələ həll olunmamış qalmışdı. Ancaq bu hal-hazırda öz həllini tapıb və Azərbaycan bu məsələnin həllində öz dəyərli töhfəsini veribdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqemizdə qalırıq. Bizim mövqemiz haqq-ədalət mövqeyidir. Bizim mövqemiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır.

Azərbaycan 2018-ci ildə münaqişənin həlli işində çox ciddi mövqelərə malik oldu. Bildiyiniz kimi, Ermənistanda 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal, rüşvətxor, xunta rejimi çökdü və bu, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin tam iflasıdır. Onu da deyə bilərəm ki, bizim Ermənistana qarşı apardığımız çox düşünülmüş, məqsədyönlü və prinsipial siyasətimiz öz bəhrəsini verdi. Biz Ermənistanı bütün regional və beynəlxalq layihələrdən təcrid edə bilmişik, Ermənistan iqtisadiyyatının çökməsində bizim payımız da kifayət qədər böyükdür. Hesab edirəm ki, bu gün münaqişənin həlli üçün yeni vəziyyət yaranır. Ümid edirəm ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər.

Bununla yanaşı, əlbəttə, hesab edirəm ki, bizim güclü hərbi potensialımız münaqişənin həlli üçün əsas amildir. Biz son illər ərzində öz hərbi qüdrətimizi yüksək dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə 2 dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan–Ermənistan sərhədinin Naxçıvan istiqa-

mətində uğurlu əməliyyat keçirərək, 11000 hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək.

Biz bundan sonra da öz hərbi qüdrətimizi artıracağıq. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur. Ancaq hər kəs bilir və bilməlidir ki, münaqişənin həlli üçün hərbi amil xüsusi rol oynayır və bundan sonra da biz hərbi qüdrətimizi artıracağıq.

Bu il məcburi köçkünlər üçün çox böyük işlər görülüb. 5800 köçkün ailəsi üçün yeni evlər, mənzillər tikilib və onlara təqdim edilibdir. Bu, son illərdə rekord göstəricidir. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 626 mənzil verilibdir və biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Əlbəttə ki, bütün bu işləri görmək üçün güclü iqtisadiyyat olmalıdır və bu iqtisadiyyat vardır. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil. Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir. Bu il ümumi daxili məhsul artır, qeyri-neft sektoru artır, sənaye istehsalı artır, qeyri-neft sənaye sektorunda isə artım 9 faizdən çoxdur. İxracımız təxminən 40 faiz artıb. Ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulubdur. Dünya Bankının «Doing Business» proqramının son hesablamalarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Yəni bu onu

göstərir ki, apardığımız ciddi iqtisadi islahatlar, şəffaflıq öz nəticəsini verir və Dünya Bankı bunu yüksək qiymətləndirir.

Biz müasir texnologiyalara böyük əhəmiyyət veririk. Bu il bizim 3-cü peykimiz orbitə buraxılıb. Bu, böyük hadisədir. Azərbaycan dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və bu sahədə öz mövqelərimizi möhkəmləndiririk.

Bu il «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı olubdur. May ayında biz bu möhtəşəm tədbiri qeyd etdik. Bu, tarixi nailiyyətdir. Eyni zamanda, bu ilin iyun ayında TANAP layihəsi də rəsmi olaraq açıldı və beləliklə, «Cənub Qaz Dəhlizi»nin tam başa çatması üçün çox gözəl imkanlar yarandı. Bu bizim tarixi nailiyyətimizdir və Azərbaycan xalqı bundan sonra onilliklər ərzində bu layihələrin faydasını görəcəkdir.

Bu il Bakı Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd etdik. Bu da tarixi layihədir. Azərbaycan nəinki regionun, Avrasiyanın çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Şimal–Cənub, Şərq–Qərb dəhlizləri bizim ərazimizdən keçir. Güclü nəqliyyat infrastrukturu bizə imkan verəcək ki, tranzit imkanlarımızdan çox böyük səmərə ilə istifadə edə bilək.

Bildiyiniz kimi, ilin əvvəlində mənim sərəncamımla 2018-ci il «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilmişdir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə böyük təntənə ilə qeyd etmişik. Bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır.

Bu il ölkəmizdə Prezident seçkiləri keçirildi. Azərbaycan xalqı bir daha mənə yüksək etimad göstərdi, mənim fəaliyyətimə yüksək qiymət verdi. Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara, soydaşlarımıza öz salamlarımı çatdırıram, onlara uğurlar arzulayıram.

Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2018-ci il*

**RUSİYA FEDERASİYASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Maqnitoqorskda baş vermiş faciə barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 yanvar 2019-cu il*

## ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİNİN YENİ ƏMLAK XİDMƏTLƏRİ MƏKANININ AÇILIŞI MƏRASİMİ

*3 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 3-də Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak etmişdir.*

*Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Prezident İlham Əliyevə burada yaradılmış şərait barədə məlumat verdi. Binanın tikintisinə ötən ilin mayında başlanılıb. Müasir səviyyədə və yüksək zövqlə inşa olunmuş ikimərtəbəli binanın həyatində avtomobillər üçün parkinq yaradılıb, abadlıq və yaşıllıq işləri görülübdür.*

*Dövlət başçısı Əmlak Xidmətləri Məkanının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Əmlak Xidmətləri Məkanının yaradılmasında əsas məqsəd Əmlak Məsələləri Dövlət Komitəsinin bütün fəaliyyət sahələri üzrə göstərdiyi xidmətlərin vahid məkanda həyata keçirilməsidir. Burada əmlakla bağlı bütün xidmətlər beynəlxalq standartlara uyğun qurulmaqla, şəffaflığın təmin olunması, vətəndaş məmnunluğunun artırılması, vətəndaş–məmur təmaslarının*

*minimuma endirilməsi, xidmətlərin tam elektronlaşdırılması təmin edilibdir.*

*Şənbə və bazar da daxil olmaqla, həftənin bütün günləri məkanda 100-ə yaxın işçi tərəfindən xidmətlərin göstərilməsi nəzərdə tutulur. Burada könüllülərin xidmətlərindən də istifadə olunur. Binada, həmçinin BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq, bu qəbildən insanların sərbəst hərəkəti üçün də bütün şərait yaradılıb. Burada notarius, bank, memarlıq və layihələndirmə işləri, əmlakın sığortalanması və poçt xidməti nəzərdə tutulubdur.*

*Əmlak Xidmətləri Məkanında 1909–2018-ci illərdə daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarını özündə əks etdirən müxtəlif dövrlərə aid hüquq müəyyənedici mülkiyyət sənədlərinin sərgiləndiyi arxiv guşəsi də vardır. Binada kafe, kitabxana, uşaq oyun sahəsi yaradılıbdır.*

*Dövlət başçısına komitə tərəfindən elektronlaşdırılmış xidmətlər barədə məlumat verildi. Komitə artıq 40 xidməti elektron qaydada vətəndaşlara birbaşa və «e-Hökumət» portalı vasitəsilə təqdim edir. Daşınmaz əmlakın qeydiyyatı üzrə ödənilən xidmət haqqının və dövlət rüsumunun öyrənilməsi ilə bağlı vətəndaşlar üçün daha çox maraq doğuran «Əmlak kalkulyatoru» iş prinsipləri və «Elektron çıxarışın yoxlanılması» kimi elektron xidmətlər nümayiş olundu. «Elektron çıxarış» xidməti vətəndaş–məmur ünsiyyətini tam məhdudlaşdırır. Belə ki, elektron imzaya sahib vətəndaş istənilən yerdən «e-Hökumət» portalı vasitəsilə xidmətə*

*müraciət edir, müvafiq sənədlərini göndərir, komitə tərəfindən hazırlanmış elektron çıxarış isə onun portaldakı şəxsi kabinetinə göndərilir. Vətəndaş digər dövlət orqanlarına müraciət zamanı elektron çıxarışının düzgünlüyünü yoxlamaq üçün «Elektron çıxarışın yoxlanılması» xidmətindən istifadə edir. Qısa müddət keçməsinə baxmayaraq, artıq 8000-dən çox «Elektron çıxarış» sahibi vardır.*

*Binada elektron informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunubdur. Məkanda xidmətlərin daha dəqiq, prosedurların sürətli olması üçün elektron idarəetmə sistemini həyata keçirən qurğular quraşdırılıb. Vətəndaşlar elektron monitorlara daxil olmaqla, xidmətlərdən internet vasitəsilə də istifadə edə bilirlər.*

*Özəlləşdirmə hərraclarının keçirilməsi ilə bağlı 100 nəfərlik hərrac zalında monitorlar vasitəsilə özəlləşməyə çıxarılan əmlaklarla tanışlıq, keçirilən özəlləşdirmə hərraclarında həm canlı iştirak etmək, həm də elektron qoşulmaqla, hərraca qatılmaq imkanları yaradılıbdır.*

*Özəlləşmənin elektronlaşdırılması prosesin sürətlənməsinə və investorların marağının artmasına imkan verib. Elektron hərracda elektron imzası olan hər bir vətəndaş yerindən asılı olmayaraq, «elektron hərrac» sisteminə qoşularaq, iştirak edə bilər. İndiyədək 28 «elektron hərrac» keçirilib və 900-dən çox əmlak satışı üzrə elektron sifariş qəbul olunubdur.*

*Burada gün ərzində 1000-ə yaxın vətəndaşa xidmət göstərilməsi planlaşdırılır. Əmlak Xidmətləri Məkanında ümumilikdə Komitənin fəaliyyət sahələrinə uyğun 46 xidmət təqdim ediləcək. Göstərilən xidmətlərə dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi, dövlət və bələdiyyə əmlakı ilə bağlı hərracların təşkili, torpaq və qeyri-yaşayış sahələrinin icarəyə verilməsi, əmlakın qiymətləndirilməsi, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciətlərin qəbulu, hazır sənədlərin təqdim edilməsi və digər xidmətlər daxildir.*

*Prezident İlham Əliyevə torpaqların idarə edilməsində istifadə olunan «Peyk müşahidə sistemi» layihəsinin iş prinsipi barədə məlumat verildi. Layihənin məqsədi torpaqlara dövlət nəzarətinin həyata keçirilməsində çevikliyin artırılması, qanunsuz tikililərin, torpağın münbit qatının korlanmasının qarşısının alınması, torpaq tədqiqatı, geobotaniki tədqiqat zamanı yeni texnologiyaların, süni intellektin imkanlarından istifadə edilməsidir. Layihə nəticəsində ölkə ərazisi peyk vasitəsilə 5 gündən bir çəkilir. Peyk vasitəsilə çəkilmiş bütün təsvirlər süni intellektin tətbiq olunduğu «Peyk müşahidə sistemi»nə daxil edilir.*

*Süni intellekt vasitəsilə təsvirlərin analizi başlanır və əvvəlki təsvirlərlə sonrakı təsvirlər arasındakı fərqlər, yəni hər çəkilişdən sonrakı dövrdə torpaq səthində baş verən dəyişikliklər və onların koordinatları sistem vasitəsilə avtomatik olaraq müəyyən edilir. Sistem vasitəsilə torpaq səthində aşkarlanmış dəyişikliklərə yerində baxışın keçirilməsi Komitənin torpaq müfəttişləri tərəfindən təmin edilir, aşkarlanmış qanunsuz tikililərin qarşısı*

*alınır, torpağın münbit qatının korlanmasına və ümumiyyətlə, qeyri-qanuni istifadəsinə yol verilmir.*

*Komitə ilə yanaşı, Peyk müşahidə sisteminin imkanlarından kənd təsərrüfatı təyinatlı torpaqlarda əkilmiş bitkilərin müəyyənləşdirilməsi və monitorinqi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi, fövqəladə hadisələr zamanı meşə yanğınlarının müəyyən edilməsi və təbiətə dəyən zərərin monitorinqi, su daşqınları zamanı dəyişikliklərin və çaylarda suların artma-azalma intensivliyinin müəyyən edilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyi, meşə fonduna daxil olan ərazilərdə dəyişikliklərin müəyyən edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eyni zamanda, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən istifadə olunacaqdır. Sistemin bu ilin əvvəlindən ilkin sınaqlar həyata keçirməklə, tam istifadəyə verilməsi nəzərdə tutulur.*

*Eyni zamanda, lokal ərazilərdə torpaqlarda baş verən dəyişikliklərin öyrənilməsi, nəzarətin keyfiyyətinin artırılması, daşınmaz əmlakın kadastrı və torpaqların elektron uçotunun aparılması, məkan məlumatları və aerofoto çəkilişlərlə yanaşı, yeni texnologiya olan «dron» çəkilişlərindən də istifadə ediləcəkdir.*

*Əmlakların 3D çəkilişlərinin aparılması məqsədilə son texnologiyalardan olan «Matterport» avadanlığından istifadə edilir. Bu innovativ avadanlıq daşınmaz əmlak, mənzil, fərdi ev, zavod, fabrik, muzey və digər tikililərin 3D modelini əldə edir, plan-çertyojları və ölçüləri avtomatik olaraq qısa müddət ərzində hazırla-*

*yır, əmlakın qeydiyyatında, hərraclarda, özəlləşdirmədə əmlak barəsində ətraflı məlumatı təqdim edir.*

*«Streetviev» layihəsi nəqliyyat infrastrukturu obyektlərinin vizual rəqəmsallaşdırılmasını, seçilmiş yollar, küçə və prospektlər üzrə ünvan reyestrinin dayanıqlı idarə olunmasını təmin edir. Bu sistem əldə olunan məlumatların «Ünvan» portalına inteqrasiyasını və reyestrdə ünvanvermə işinin asanlaşdırılmasını təmin edir.*

*Prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müasir dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycan Respublikası yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi cəmiyyətə malikdir.

Tarixən müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində vahid ailə kimi yaşadığı Azərbaycanda pravoslavlıq say etibarilə ən böyük xristian konfessiyasıdır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan pravoslav xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində fəal iştirak edir, dinlərarası əməkdaşlıq və etimad mühitinin inkişafına öz layiqli töhfələrini verir. İnanıram ki, pravoslav xristian icması bundan sonra da ümumi

evimiz olan Azərbaycanın daha da güclənməsi naminə əlindən gələni əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 yanvar 2019-cu il*

## YENİ İNŞA EDİLMİŞ «TUFAN» TİPLİ SƏRHƏD GÖZƏTÇİ GƏMİSİ İLƏ TANIŞLIQ

*10 yanvar 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 10-da Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş «Tufan» tipli sərhəd gözətçi gəmisi, döyüş texnikası, silah və sursatla tanış olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Sonra Elçin Quliyev görülən işlər barədə məlumat verdi.*

*Dövlət başçısına «Savalan» tipli müasir sərhəd gözətçi gəmisinin layihəsi, həmçinin «Milli Boat» proqramı çərçivəsində yeni itisürətli üzmə vasitələri, yedək gəmiləri təqdim olundu.*

*Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin tikintisini əks etdirən videoçarxa baxdı, onların texniki göstəriciləri ilə tanış oldu.*

*Sonra Prezident İlham Əliyevə yeni xüsusi təyinatlı döyüş texnikası, silah və sursat, pilotsuz uçan aparatlar,*

*tank əleyhinə idarəolunan raketlər, lazer hədəf tuşlama sistemləri, termal müşahidə cihazları təqdim olundu. Bu döyüş texnikası, silah və sursat dünyanın ən aparıcı ölkələrinin məhsullarıdır.*

*Qeyd edək ki, Azərbaycan Sərhəd Mühafizəsinin xidməti-döyüş fəaliyyətinin formalaşdırılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində bu xidmət keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Dövlət başçısının 2005-ci ilin fevralında imzaladığı fərmanla sərhəd gözətçi gəmilər dəstəsinin əsasında Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin təsis edilməsi nəticəsində Xəzər dənizində dövlət maraqlarımızın yüksək səviyyədə qorunması və dəniz sərhədlərinin etibarlı mühafizəsi üçün daha geniş imkanlar yarandı. Dövlət Sərhəd Xidməti dənizdə sərhəd mühafizəsinin təşkili üzrə beynəlxalq təcrübədən istifadə edərək, Xəzərdə səmərəli sərhəd mühafizə sisteminin formalaşdırılması istiqamətində mühüm işlər gördü.*

*Prezident İlham Əliyevə mobil qida maşınlarının istehsalı, sərhəd gözətçi katerlərin təmiri üçün nəzərdə tutulmuş texnika nümayiş olundu. Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində xidmətin istifadəsində olan üzmə vasitələrinin, o cümlədən gəmilərin inşası və təmirini yüksək səviyyədə aparmaq üçün müasir qurğular quraşdırılıb, hərbi və mülki təyinatlı müxtəlif məhsulların istehsalı və təmiri nəzərdə tutulubdur.*

*Dövlət başçısına, həmçinin dövlət sərhədlərinin mühafizəsində yeni tətbiq olunan səhra qərargahları, səhra yataqxanaları və sərhədçilərin səhra məişət xidmətləri barədə məlumat verildi.*

*Bu gün sərhədçi dənizçilərin peşəkarlıq səviyyəsinin artırılması xüsusi diqqət mərkəzində saxlanılır. Xidmətin Sahil Mühafizəsinin şəxsi heyətinin cəlb olunduğu müxtəlif mövzulu döyüş və taktiki təlimlərin hər il keçirilməsi döyüş hazırlığının yüksəldilməsində, ekstremal şəraitdə peşə vərdişlərinin möhkəmləndirilməsində böyük rol oynayır. Ötən ilin avqustunda «Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində təhlükəsizliyin təmin olunması» mövzusunda döyüş atışlı taktiki sərhəd təlimləri keçirilib, gəmi silahlarının gecə və gündüz şəraitində döyüş atışları zamanı bütün təlim tapşırıqları yüksək səviyyədə icra olunub, şəxsi heyət böyük məharət nümayiş etdiribdir.*

*2018-ci il avqustun 12-də Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında milli diplomatiyamızın növbəti uğuru oldu. Dövlət maraqlarımızın qorunması üçün mühüm əhəmiyyət kəsb edən «Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya»nın imzalanması ilə dənizdə dövlət sərhədlərimizin mühafizəsi üzrə xidməti fəaliyyət yeni müstəvidə təşkil olundu.*

*Sonra dövlə t başçısı «Tufan» tipli sərhəd gözətçi gəmisi ilə tanış oldu. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ötən il aprelin 30-da təməlini qoyduğu və qısa müddətdə inşası yekunlaşdırılmış yeni gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən*

*raketlər və raket silahlarına qarşı mübarizə kompleksi, gecə-gündüz görmə müşahidə sistemləri və hid-roakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən, itisürətli qayıqla təchiz edilmiş və 62 metr uzun-luğunda olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkündür.*

*Yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sər-həd sularında rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlü-kəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifə-lərin icrası zamanı istifadə olunacaqdır.*

# QEYDLƏR

**1. Belarus**, B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 5–23, 105.

**2. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5–23.

**3. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-polkovnik. 2913-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» və «Rəşadət» ordenləri ilə təltif edilmişdir. – 13, 185.

**4. Zakir Qaralov,** Z a k i r B ə k i r o ğ l u (d.1956) – Azərbaycan Respublikasının Baş prokuroru, birinci dərəcəli Dövlət Ədliyyə müşaviri, «Əməkdar hüquqşünas». Azərbaycan Respublikasının «Şöhrət» və «Azərbaycan bayrağı» ordenləri ilə təltif edilmişdir. – 14.

**5. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 14, 174.

**6. Livan,** L i v a n  R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati cəhətdən 5 mühafazaya bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Beyrut şəhəridir. – 24.

**7. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların

işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 20, 159, 160, 172, 174, 177, 178, 187, 189, 226, 227, 246, 267, 296, 297, 298.

**8. Mişel Aun** (d.1935) – Livanın hərbi və siyasi xadimi. 2016-cı ildən Livan Respublikasının Prezidentidir. – 24.

**9. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 25–26, 47, 64, 118–119, 140–141, 155, 177, 179, 260, 261, 288, 289.

**10. Yaşar Gülər** (d.1954) – türk generalı, 2018-ci ildən Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 25–26.

**11. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23

ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 26, 30, 83, 299.

**12. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 27–28, 79–82, 98–99, 136–137, 152–154, 161, 171–174, 204–205, 253–268, 301.

**13. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 29, 47, 61, 123, 132–133, 161.

**14. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 29, 132.

**15. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezi-

dent, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 32–72.

**16. Rəşid Meredov** (d.1960) – Türkmənistanın siyasi və dövlət xadimi. Türkmənistan Nazirlər Soveti Sədrinin birinci müavini və Xarici İşlər naziridir. – 32.

**17. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya

müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 33.

**18. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 39–72.

**19. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT

Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 42, 43, 46, 68, 161, 174, 199.

**20. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. «Soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 46, 174.

**21. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 47, 61.

**22. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 47, 61, 65, 177, 232.

**23. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan kəmər 2006-cı ildə istifadəyə verilmişdir. – 51, 232.

**24. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA) – Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 52, 196.

**25. Yaqub Eyyubov,** Y a q u b A b d u l l a o ğ- l u (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Res-

publikası Nazirlər Kabinetində Baş Nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş Nazirinin birinci müavinidir. Rusiya Federasiyasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 52, 53.

**26. Həsən Zeynalov,** Həsən Sultan oğlu (d.1951) – diplomat. 2015-ci ildən Azərbaycan Respublikasının Türkmənistanda, eyni zamanda, Əfqanıstan İslam Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. Azərbaycan Respublikasının 2-ci dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilmişdir. – 53.

**27. Cavid Qurbanov,** Cavid Qənbər oğlu (d.1958) – mühəndis. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, Texnika elmləri üzrə fəlsəfə doktoru. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Milli Məclisin Təbii Ehtiyatlar, Energetika və Ekologiya məsələləri daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 53.

**28. Səfər Mehdiyev,** S ə f ə r  M ə m m ə d  o ğ -l u (d.1973) – general-leytenant. 2018-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədridir. – 54.

**29. Rauf Vəliyev,** R a u f  G ö y ü ş  o ğ l u (d.1965) – mühəndis. 2013-cü ildən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin sədridir. «Əməkdar mühəndis»dir. – 55.

**30. Ramin Quluzadə** (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini işləmişdir. 2016–2017-ci illərdə Rabitə və Yüksək Texnologiyalar naziri olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. – 55, 56, 105.

**31**. **Şahin Mustafayev,** Ş a h i n  A b d u l l a  o ğ- l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 56.

**32. İpək yolu**, b ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 65, 68, 70.

**33. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən

çıxdıqdan sonra əhali arasında (müsəlman boşnak, serb və xorvat) milli-dini zəmində yaranmış qarşıdurma qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yarandı. Sahəsi 51,2 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 73.

**34. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 74, 206.

**35. Şinzo Abe** (d.1954) – Yaponiyanın dövlət və siyasi xadimi. 2006–2007 və 2012-ci ildən Yaponiyanın Baş Naziridir. – 74.

**36. Mavritaniya,** M a v r i t a n i y a İ s l a m R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min $km^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 75.

**37. Məhəmməd uld Əbdüləziz** (d.1956) – Mavritaniyanın hərbi və siyasi xadimi, 2009–2019-cu illərdə Mavritaniya İslam Respublikasının Prezidenti olmuşdur. – 75.

**38. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min $km^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 76.

**39. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq

norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 77, 81, 148–151,168, 169, 170, 182, 229, 289, 311.

**40. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 77–78, 94, 95, 105, 122–124, 134–135, 153, 174.

**41. Çeçenistan –** Rusiya Federasiyasında respublika. Sahəsi 15,6 min $km^2$, əhalisi 1,4 milyon nəfərdir. Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar

yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. Paytaxtı Qroznı şəhəridir. – 79–82.

**42. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 80, 136, 257, 301.

**43. Rumıniya –** Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 86.

**44. Tahir Salahov,** T a h i r T e y m u r o ğ l u (d.1928) – böyük Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSRİ-nin Xalq rəssamı. Azərbaycan və

SSRİ Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. Yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monumental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət», 1-ci dərəcəli «Əmək», «İstiqlal», «Heydər Əliyev» ordenləri və «Heydər Əliyev mükafatı» ilə təltif edilmişdir. – 87–88, 125–127, 182–184.

**45. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 89, 90, 91, 105.

**46. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentidir. – 89.

**47. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş Naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 90.

**48. Laos,** L a o s X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı **–** Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir. Paytaxtı Vyentyan şəhəridir. – 92.

**49. Bounyanq Voraçit** (d.1937) – Laos siyasətçisi. 1996–2001-ci illərdə Laos Baş Nazirinin müavini, 2001–2006-cı illərdə Baş Nazir, 2006–2016-cı illərdə isə vitse-prezident olmuşdur. 2016-cı ildən Laos Xalq Demokratik Respublikasının Prezidentidir. – 92.

**50. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 93.

**51. Salome Zurabişvili** (d.1952) – Gürcüstanın siyasi xadimi. O, Fransada doğulduğuna görə 30 il Fransa Xarici İşlər Nazirliyində işləmişdir. 2003-cü ildə Fransanın Gürcüstanda səfiri kimi fəaliyyətə başlayır və Gürcüstan vətəndaşlığını qəbul edir. 2004-cü ildə

Gürcüstanın Xarici İşlər naziri təyin olunur. Gürcüstanda siyasi fəaliyyətə başlayır. Salome Zurabişvili 2018-ci ilin dekabrından Gürcüstan Respublikasının Prezidentidir. – 93.

**52. Corc Uolker Buş** (d.1946) – ABŞ-ın 43-cü Prezidenti (2001–2009). ABŞ-ın 41-ci Prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel Universitetini, 1975-ci ildə isə Harvard Universitetini bitirmişdir. «Spektrum-7» Enerji Korporeyşn firmasının yaradıcısıdır. 1994–2000-ci illərdə Texas ştatının qubernatoru olmuşdur. – 94.

**53. Corc Helbert Buş** (1924–2018) – Amerikanın görkəmli dövlət xadimi. 1980–89-cu illərdə ABŞ-ın vitse-prezidenti, 1989–93-cü illərdə ABŞ-ın 41-ci Prezidenti olmuşdur.  – 94, 134–135.

**54. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 95.

**55. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i - k a s ı – Şimali Avropada dövlət. Sahəsi 338,4 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi 11 lya-

niyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 96.

**56. Sauli Niinistö** (d.1948) – Finlandiyanın dövlət və siyasi xadimi. 2012-ci ildən Finlandiya Respublikasının Prezidentidir. – 96.

**57. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 97.

**58. Maha Vaçiralonqkorn** (d.1952) – 2016-cı ildən Tailandın Kralıdır. – 97.

**59. Cisco** – əsasən böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerikan kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompüter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. Kompaniyanın əsası 1984-cü ildə qoyulmuşdur. – 100–101.

**60. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən

Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 105, 182, 195, 199, 200, 201, 217, 218, 219, 221, 230, 236, 240, 243, 269, 270, 273, 275, 280.

**61. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva

Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 105, 182, 184.

**62. Arzu Əliyeva,** A r z u İ l h a m q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı. Film prodüseri. – 105.

**63. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 105, 174.

**64. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azər-

baycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 106, 219, 282.

**65.** «**Mikrosoft**» – müxtəlif hesablama texnikası – şəxsi kompüterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, «Vindovs» əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kompaniya. 1975-ci ildə yaradılmışdır. Texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmondda yerləşir. – 106, 107, 116.

**66. «Azercell» Telekom MMC** – 1996-cı ildə təsis edilmiş və Azərbaycanda ilk GSM operatoru kimi, öz kommersiya fəaliyyətinə başlamışdır. «Azercell» Azərbaycana bir sıra innovativ texnologiya və kon-

sepsiyaları gətirmişdir. «Azercell» dünya telekommunikasiya sektorunda abonentlərin istifadəsinə öncədən ödəmə sistemini təklif edən şirkətlərdən biri oldu. Hal-hazırda «Azercell»in 4 000 000-dan çox abonenti vardır. Şirkətin rabitə bazarındakı payı 55% təşkil edir. – 106.

**67. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının liderididir.

